# MİLLİ MƏDƏNİYYƏT SİSTEMİNDƏ POETİK TƏSƏVVÜF KODU

**Sərxan Xavəri**



*Professor **Yaşar Qarayevin***
*ön sözü ilə nəşr olunur*

ELM
nəşriyyatı

**Sərxan Xavəri**

# MİLLİ MƏDƏNİYYƏT SİSTEMİNDƏ POETİK TƏSƏVVÜF KODU

**Bakı – «Elm» – 2016**

*Elmi redaktor:* akademik **Teymur Kərimli**

**Sərxan Abbas oğlu Xavəri.** Milli mədəniyyət sistemində poetik təsəvvüf kodu. Bakı: “Elm”, 2016, – 180 səh.

Monoqrafiyada XIII-XVI əsrlər Azərbaycan bədii fikrinin inkişaf dinamikası həmin mərhələdə ümummüsəlman mədəniyyətinin mühüm ideya bazalarından birini təşkil edən təsəvvüf təlimi ilə qarşılıqlı əlaqələr kontekstində vahid kulturoloji proses kimi elmi baxımdan modelləşdirilmişdir. Təqdim olunan modeldə milli poetik düşüncə nümayəndələrinin yaradıcılıqları poetik fəlsəfədən (Mahmud Şəbüstəri, Marağalı Əvhədi, İzzəddin Həsənoğlu, Qazi Bürhanəddin) fəlsəfi poeziyaya (İmadəddin Nəsimi) və təriqət xarakterli fəlsəfi poeziyadan (Şah Qasım Ənvar, Şah İsmayıl Xətai) fövqəlestetik poetikliyə (Məhəmməd Füzuli) inkişaf xətti üzrə ümummüsəlman və ümumtürk mədəniyyəti kontekstində araşdırılır.

ISBN 978-9952-453-54-6

X $\frac{4603020100-1}{655(07)-2016}$ Qrifli nəşr

© Sərxan Xavəri, 2016

## MÜNDƏRİCAT

**ÖN SÖZ** (professor Yaşar Qarayev) ........................................5

**GİRİŞ** ..........................................................................................9

**I FƏSİL**
**TƏSƏVVÜFÜN GENEZİSİ VƏ FƏLSƏFİ-ƏDƏBİ ƏSASLARI** ..........................................................15

Təsəvvüfün genezisi və təşəkkülü: Rəbiyə əl-Ədəviyyədən İmam Qəzaliyə .............................16

Təsəvvüf mistik-fəlsəfi sistem kimi: İmam Qəzalidən İbn Ərəbiyə .............................................30

Təsəvvüf-poeziya münasibətlərinin strukturu: ədəbi-tipoloji təsnifat .........................................................35

**II FƏSİL**
**TÜRK-İSLAM MƏDƏNİYYƏTİNİN TƏŞƏKKÜLÜ VƏ TƏSƏVVÜF** ..........................................45

Türk-islam mədəniyyətinin təşəkkülü prosesində şamançılıq və təsəvvüf münasibətləri .................................46

Təsəvvüfün türk-islam mədəniyyətinin təşəkkülündə rolu: Seyid Əhməd Yəsəvi və Yunis İmrə ..................................53

**III FƏSİL**
**XIII-XIV ƏSRLƏR AZƏRBAYCAN BƏDİİ DÜŞÜNCƏ SİSTEMİNDƏ TƏSƏVVÜF KODU: POETİK FƏLSƏFƏDƏN FƏLSƏFİ POEZİYAYA** ..........65

Poetik fəlsəfənin fəlsəfi traktat kodu:
Mahmud Şəbüstəri ..............................................................72

Poetik fəlsəfənin didaktik məsnəvi kodu:
Marağalı Əvhədi .................................................................81

Türkdilli ədəbiyyatda poetik fəlsəfədən fəlsəfi poeziyaya
keçid: İzzəddin Həsənoğlu və Qazi Bürhanəddin ..............92

Sənət və təriqət bütövlüyünün fəlsəfi poeziya kodu:
İmadəddin Nəsimi ..............................................................99

**IV FƏSİL**
**XV-XVI ƏSRLƏR AZƏRBAYCAN BƏDİİ DÜŞÜNCƏ SİSTEMİNDƏ TƏSƏVVÜF KODU: FƏLSƏFİ POEZİYADAN FÖVQƏLESTETİK POEZİYAYA** ........117

Fəlsəfi poeziyanın dini-mistik təriqət kodu:
Şah Qasım Ənvar ............................................................120

Fəlsəfi poeziyanın mistik-siyasi təriqət kodu:
Şah İsmayıl Xətai ............................................................128

Ümumtürk ədəbiyyatının fövqəlestetik poeziya kodu:
Məhəmməd Füzuli ............................................................140

**NƏTİCƏ** .........................................................................162

**ƏDƏBİYYAT** .................................................................166

*Summary* .........................................................................175
*Резюме* ...........................................................................177

## ÖN SÖZ

Təsəvvüf və təsəvvüf ədəbiyyatı haqqında dünya şərqşünaslığında çox yazılıb və sevindirici haldır ki, son illərdə Azərbaycan ədəbi-nəzəri fikri də bu problemlə məşğul olmağa başlamışdır. Lakin burada bir cəhətə diqqət yetirilməlidir. Sənət yalnız bədii reallığın və məhz bədii mental (şüur) səviyyəsində təlimin, konsepsiyanın daşıyıcısıdır. Yalnız bu zaman (bədii-obrazlı interpretasiyada!) təsəvvüf mətnin yox, mənanın strukturunda komponentə çevrilir. Hikməti, fəlsəfəni burada təkcə kəlmənin, sözün parametri yox, həm də duyğunun, hissin əsəbi, siniri, stixiyası ifadə edir və söhbət artıq təzkirə oxumaq, cəridəni, risaləni dərk etmək səviyyəsində deyil, dünyanı, özünü, ilahini dərk səviyyəsində həyat-sənət-fəlsəfə münasibətlərindən gedir.

Böyük poeziyanın əsil "ilahiliyi" onun dinlə, təriqətlə bağlılığında deyil, sənət ilə idrakda (sənətkarlıqda!) şairin çatdığı zirvədə və möcüzədədir. Bütün təzkirələri, dünyadakı və tarixdəki bütün risalələri bir yerə yığıb əzbərləsə də, vəhysiz və istedadsız qrafoman onun sehrinə (hərfinə yox!) nüfuza qabil deyil. Elə ona görə də şeirdə, sənətdə təsəvvüfdən danışan qaynaqlar sxemi və stereotipi (məlumat) min ildir ki var, xalis estetik konstantlar isə bədii-fəlsəfi irsdə hələ də axıracan mənimsənilməmiş qat kimi qalır, ixtisaslı antoloji təhlil isə ümumiyyətlə yoxdur. Üstəlik, təsəvvüfşünaslığın qaynaqçılığa aludəçilik səviyyəsi qaynaqdan yüksəyə və irəliyə hər hansı təşəbbüsə hətta qarşı durur, "qaynaq müqaviməti" göstərir. Halbuki bədii-

estetik qanunlardan kənarda hətta Nəsimidən və Füzulidən də yalnız teoloq və tarixçi kimi bəhs etmək olar, mütəxəssis-filoloq kimi yox! Sənətdə təriqətdən sitatları, təsəvvüf "ayələrini" və mistik "surələri" arayıb-arıtlayan, dini ayinlərdən kolleksiya və herbari düzəldib adını "dissertasiya" qoyan "araşdırmaların" gen-bol yayıldığı indiki mərhələdə yuxarıdakı vəzifənin elmi həlli xüsusi aktuallıq kəsb edir. Hələ VII yüzildən başlayan mənbələrin siyahı və kartotekasınının təsviri yox, elmdə XXI yüzili başlayan ən yeni nəzəri-estetik metodologiyanı tədqiqat hansı tamlıqla əks etdirir? – indi məhz bu suala verdiyi cavabda haqqında danışdığımız mövzuda yazılan əsərin sambalı və ləyaqəti görünür.

Vaxtı keçən, elmdə sxolastikaya çevrilən "qaynaq ənənəsindən" bizə təsvirçilik modeli, "sosialist realizmindən" isə onun tam əksi – digər normativ yadigar qalıb: "fəlsəfi poeziya"da fəlsəfəni və poeziyanı bir-birindən ayırmaq, ideyaya mahiyyət, poeziyaya isə illüstrasiya rolu ayırmaq! Poetik fəlsəfədən fəlsəfi poeziyaya və buradan da fəlsəfə səviyyəsinə qalxan poeziyaya! – bu mərhələlərdən üçünü də keçmək sovet şeirində çox az şairə nəsib olurdu. Kütləvi boz axında şeir çox vaxt elə "poetik fikir" (poeziya şəkli alan ideya!) mərhələsində donub qalırdı.

Əlbəttə, nəzəri dialektika, predmeti analitik qiraət belə ilkin hazırlıqsız (predmetin tədqiqi tarixinə bələd olmadan) mümkün deyil. Lakin söhbət də elə məhz bu hazırlıqdan (mətbəxdən, laboratoriyadan!) sonrakı mərhələlərdən gedir.

Sərxan Xavərinin Azərbaycan mədəniyyətində təsəvvüf ədəbiyyatına həsr olunan monoqrafiyası, hər şeydən əvvəl, bu iki mərhələnin hər ikisindən vəhdətdə bəhrələnmək, qədim və klassik bədii-fəlsəfi irsə ən yeni, modern nəzəri-metodoloji mövqedən nəzər salmaq təşəbbüsü ilə diqqəti cəlb edir, xüsusi elmi dəyər, novatorluq rolu və

müasirlik əhəmiyyəti kəsb edir. Belə ki, Sərxan Xavərinin araşdırması tam halda strukturu, ideyası və forması ilə filologiyamızın xatırlatdığımız zəifliyindən çox uzaqdır.

Burada "təsəvvüf" məhz poetika problemi kimi alınır, onun bədii qatdakı modelinə, sufi yaddaşın şeirdəki kodlarına və kateqoriyalarına, mənəvi-əxlaqi və semantik-antoloji dəyərlər sisteminə, romantizmlə əlaqələrinə təhlil və təsnif verilir. Bu isə böyük zaman kəsimindən, miqyaslı poeziya məkanından kənarda qeyri-mümkündür. Belə elmi-metodoloji və nəzəri-analitik yolla gedən müəllif böyük ədəbi-fəlsəfi və estetik problemi miqyaslı bədii materialda qaldıra bilmişdir.

Müəllifin toxunduğu hər əsər – təkcə bədii yox, həm də nəzəri-elmi sehrdir, hikmətdir, məchulluqdur. Hər hansı salnamədən, təzkirədən, yaxud risalədən bir sitatla, növbəti "snoska" ilə bu hikməti açmaq mümkün deyil. Əgər belə olsa idi, intellektə, istedada, kəşfə ehtiyac aradan qalxardı, təkcə arxiv, kartoteka, təzkirəçi işi hər şeyi həll edərdi.

Nəsimiyə təkcə Nəimidən baxmaq – XIV əsrin düşüncə və şüur kontekstində dayanmaq, donub-qalmaq demək olardı: həm Nəsimiyə, həm də Nəiminin özünə məhz XXI əsrdən – Sərxandan baxmaq lazımdır. Adətən, Nəsimi və Nəimi ilə bağlı qaynaqlar mütləq məqsədə çevrilir, amma onlara yanaşmada bugünkü baxışın – Sərxanın elmi intellekt göstəriciləri olmasa, bu qaynaqların rolu, əhəmiyyəti elə qaynaq çərçivəsində də qalar. (İnformsiyanın həcmi, passiv "bankı" böyüyər, amma canlı elmi dövriyyədə iştirakı sıfıra bərabər olar).

İdeyanı bədii rəmzdə, obrazda yenidən yaradan və sonuca çatdıran poeziyanın özüdür! Yalnız orta əsr sufi risalələrindən çıxış edərək bədii təsəvvüfdən (Füzulidən və Nəsimidən) nəzəri-ədəbi dərslər (konsepsiya və təlim) əxz etmək və mənalandırmaq mümkün deyil, onları qıraqdan

əxz edib onları "kənardan tətbiq etmək" isə qeyri-elmi və səmərəsiz yoldur.

Elə ona görə də sufizmi öyrənən elmi-tarixi salnamə, risalə, ədəbiyyat – dəryacan, Füzulidə, Nəsimidə, Nəbatidə təsəvvüf və təsəvvüfdə bədiilik barədə təsəvvür – qətrəcəndir. Sərxan Xavərinin bu araşdırması – həmin dəryalar yox, qətrələr sırasındadır.

***Yaşar Qarayev,***
***2000-ci il***

## GİRİŞ

Milli mədəniyyət sistemi daxilində bədii düşüncənin ümumi inkişaf qanunauyğunluğunun və inkişafının müxtəlif mərhələləri üzrə tipoloji xarakterinin universal ictimai-mədəni və dini-fəlsəfi təsisatlarla şərtlənməsi müxtəlif mədəniyyət tiplərinin əsas simasını müəyyənləşdirən xüsusiyyətlər əsasında çoxdan sübut olunmuş həqiqətdir. Zamanın keçmişində varlığı öyrənən və öyrənə-öyrənə müdrikləşən fəlsəfə zamanın gələcəyinə doğru yön almış bədii düşüncə karvanının önündə dayanan şairlərin yaradıcılığında əksərən ideya bazası funksiyasını yerinə yetirmişdir. Həm də fəlsəfi ideyanın, ideoloji təsisatın məhz sənətin, poeziyanın timsalında əyaniləşdiyi anlarda poetik fəlsəfə və fəlsəfi poeziyanın əbədi dəyər kəsb edən nümunələri yaranmışdır. Elə buna görədir ki, bədii düşüncəmizin keçmişinə nəzər saldıqda onun, əsasən, estetik meyarlarla müəyyənləşən tarixi mərhələlərinin ideoloji təsisatın, fəlsəfi təlimin inkişafı ilə də şərtləndiyinin şahidi oluruq.

XIII-XVI əsrlər Azərbaycan ədəbiyyatı (istər türkdilli, istərsə də farsdilli poetik mətnlər daxil olmaq şərtilə) öz tipoloji xarakterinə, ideya bazasının epoxal zaman daxilində stabilliyinə görə bədii fikir tariximizin ayrıca bir mərhələsi kimi xarakterizə olunmağa tam əsas verir və bu, ədəbiyyat tarixinin dövrləşdirilməsini, mərhələ təsnifatını əks etdirən son tədqiqatlarda bu və ya digər şəkildə öz əksini tapmışdır.

Haqqında söhbət gedən mərhələdə bədii fikrimizin ideya əsasını İslam sivilizasiyasının ən müxtəlif sferalarında həlledici rol oynayan təsəvvüf təlimi və onun müxtəlif

istiqamətlərdəki fikir axınları təşkil etmişdir. Bundan dolayı XIII-XVI əsrlər milli poetik təfəkkürünün konseptual məzmununu da daha çox estetikləşən fəlsəfi ideya müəyyənləşdirir. Bu estetikləşmə Məhəmməd Füzulinin timsalında özünün elə bir zirvəsinə çatır ki, hətta "estetik" istilahının özü belə bu xalis, büllur, saf poeziya hadisəsinin mahiyyətini tam ifadə edə bilmir.

Lakin açıq etiraf etmək lazımdır ki, professional ədəbiyyatşünaslığımızın əsas mərhələsini ehtiva edən Azərbaycan sovet ədəbiyyatşünaslığında XIII-XVI əsrlərdə yaşayıb-yaratmış şairlərin yaradıcılığı barədəki tədqiqatlar mədəniyyətimizin bu mərhələsini öyrənmək baxımından böyük əhəmiyyətə malik olmaqla yanaşı, ideya-estetik istiqamətlərin müəyyənləşdirilməsi baxımından ciddi yanlışlıqlardan da xali deyil.

Bunun da başlıca səbəbi həmin mərhələdə humanitar və ictimai elm sahələrində marksizm-leninizm görüşlərinin, dialektik materializm metodunun tədqiqatın əsas üsuluna və mövzuya yanaşma tərzinə çevrilməsi olub. Məhdud sosialoji aspektdən yanaşmanın nəticəsi olaraq klassik Şərq mədəniyyətinə aid araşdırmalarda təsəvvüfün əsas mahiyyəti də, sənətlə məhrəm münasibətləri də bəzən hətta siniflərin mübarizəsi zamininə qədər endirilmişdir.

Problemin həll olunmamasının ikinci başlıca səbəbi müxtəlif klassik mədəniyyət faktlarının mənsub olduğu mədəni kontekstdən təcrid edilməsi olub. Mövcud araşdırmalarda əksər hallarda orta əsrlərin Azərbaycan şairi mənsub olduğu ümummüsəlman mədəniyyətindən təcrid olunaraq həmin mədəniyyətə qarşı qoyulub. Həm Azərbaycan ədəbiyyatında fəlsəfi ideya olaraq təsəvvüfün iştirakının müəyyənləşdirilməsi, həm də Azərbaycan təsəvvüf ədəbiyyatının bütöv ədəbi proses halında gerçək elmi mənzərəsinin alınması üçün isə genetik əsaslar baxımından ortaq türk, sonrakı inkişaf mərhələsində isə ümummüsəlman konteksti hök-

mən əsas götürülməlidir. Yalnız bu halda XIII-XVI əsrlər Azərbaycan təsəvvüf ədəbiyyatının ümumtürk ədəbiyyatının tərkib hissəsi kimi müsəlman mədəniyyətində mövqeyini də müəyyənləşdirmək mümkündür.

Ötən əsrin 90-cı illərindən klassik irsin tədqiqi ilə məşğul olan alimlərimizin ayrı-ayrı şairlərin bədii irsinə bu aspektdən yenidən qayıtmaları, eyni zamanda gənc tədqiqatçıların da onların təcrübəsinə əsaslanaraq klassik irsdə təsəvvüfün ayrı-ayrı aspektlərinə meyl göstərmələri vaxtilə hakim ideologiyanın təzyiqi nəticəsində yol verilmiş yanlışlıqların aradan qaldırılmasına yönəldilmişdir. Monoqrafiyada bu mövzuya müraciət də belə bir elmi məqsədin reallaşdırılması zərurətindən doğmuşdur.

Monoqrafiyanın əsas elmi hədəfi XIII-XVI əsrlər Azərbaycan bədii fikrinin təsəvvüfi baza əsasında poetik fəlsəfədən fəlsəfi poeziyaya, fəlsəfi poeziyadan isə yeni keyfiyyətli estetik poetikliyə doğru inkişafının ümummüsəlman və ümumtürk mədəniyyəti kontekstində vahid bir proses kimi elmi mənzərəsini verməkdir.

Milli bədii düşüncə tariximizin XIII-XVI əsrlər mərhələsi ədəbi yaradıcılıqları istər ideya-estetik, istərsə də bədii forma mükəmməlliyi baxımından olduqca çoxsaylı ədəbi simaları, ad və imzaları özündə birləşdirən bir dövrdür. Mövcud araşdırmada bu çoxsaylı nümayəndələr içərisində ədəbi düşüncənin təsəvvüf-poeziya münasibətləri ilə şərtlənən inkişaf dinamikasını öz yaradıcılıqlarında əks etdirən ən xarakterik simalar təhlilə cəlb edilmişdir.

Tədqiqatın tamlığını təmin etmək məqsədilə araşdırmalar, əsasən, aşağıdakı istiqamətlərdə aparılmışdır:

- **İslam sivilizasiyası kontekstində təsəvvüfün mənşəyini araşdırmaq;**
- **İstər İslami, istərsə də qeyri-islami təlimlərlə müqayisəli kontekstdə təsəvvüfün fəlsəfi əsaslarını ümumiləşdirmək;**

**• Təsəvvüfün sənətlə, xüsusən poeziya ilə münasibətlərinin dini-fəlsəfi, mədəni-estetik səbəblərini və bu qarşılıqlı münasibətlərin tipoloji xarakterinə görə bir-birindən fərqlənən inkişaf mərhələlərini müəyyənləşdirmək;**

**• Təsəvvüfün türk-islam mədəniyyətinin təşəkkülündə iştirakı kontekstində şamançılıq və təsəvvüfün tipoloji müqayisəsini aparmaq;**

**• Tüklərin İslamı qəbul etdiyi və türk etnik-mədəni sisteminin müsəlmanlaşdığı mərhələdə Əhməd Yəsəvi və Yunus İmrə yaradıcılığı timsalında təsəvvüfün bu prosesdə oynadığı özünəməxsus rolu şərh etmək;**

**• Konkret mətnlərin təhlili əsasında XIII-XIV əsrlərdə Mahmud Şəbüstəridən İmadəddin Nəsimiyə qədərki bədii fikrin poetik fəlsəfədən fəlsəfi poeziyaya doğru inkişafını əsaslandırmaq;**

**• XV-XVI əsrlər Qasım Ənvardan Məhəmməd Füzuliyə qədərki bədii fikrin konkret mətnlərin təhlili əsasında fəlsəfi poeziyadan estetik poetikliyə doğru inkişafını əsaslandırmaq və bu inkişafın obyektiv qanunauyğunluqlarını müəyyənləşdirmək.**

İstər dünyada – həm Şərq, həm də Qərb ictimai və humanitar düşüncəsində, istərsə də milli şərqşünaslıq, fəlsəfə və filoloji düşüncəmizdə təsəvvüflə bağlı araşdırmalar kifayət qədərdir. Xüsusən təsəvvüfün tarixi, onun ayrı-ayrı nümayəndələri, bu nümayəndələrin həyat və yaradıcılığı, həmçinin təsəvvüfün Şərq mədəniyyətinin müxtəlif sahələrinin: poeziyanın, musiqinin, rəngkarlığın, memarlığın və s.-nin inkişafında iştirakı haqqında araşdırmaların sayı-hesabı yoxdur. Belə zəngin araşdırmalar bolluğunda təqdim olunan monoqrafiyanın elmi yeniliyi ilk növbədə bədii fikrimizin XIII-XVI əsrlər mərhələsinin vahid bir ideya-estetik baza əsasında inkişafını izləyib, həmin ideya bazası ilə münasibətin xarakterindən asılı olaraq mərhələlə-

rini müəyyənləşdirmək təşkil edir. Monoqrafiyada araşdırmalar aşağıdakı istiqamətlərdə bloklaşdırılmışdır:

"Təsəvvüfün genezisi və fəlsəfi-ədəbi əsasları" sərlövhəli birinci fəsildə təsəvvüfün mənşəyi, fəlsəfi əsasları Şərq fəlsəfi fikrinin özünəməxsus inkişaf qanunauyğunluğu kontekstində, bu təlimin poeziya ilə əlaqələri isə müasir nəzəri-metodoloji baxış bucağından şərh edilir. Burada bütün sonrakı fəsillərdə bədii mətnlərin təhlili üçün əsas prinsip kimi götürülən təsəvvüf-poeziya münasibətlərinin ədəbi-tipoloji təsnifatı aparılır.

"Türk-islam mədəniyyətinin təşəkkülü və təsəvvüf" adlı ikinci fəsildə isə üzərində dayanılan əsas problem tanrıçılıq-ibtidai monoteizm, şamançılıq-magiya-əfsun görüşləri bazası əsasında inkişaf edən qədim türk mədəniyyətindən İslam mədəniyyətinə keçidin təsəvvüfün iştirakı ilə daxili mexanizminin aydınlaşdırılmasıdır. Burada Əhməd Yəsəvi və Yunis İmrə yaradıcılıqları timsalında ilkin türk xalq təsəvvüf ədəbiyyatının formalaşması da nəzərdən keçirilir.

"XIII-XIV əsrlər Azərbaycan bədii düşüncə sistemində təsəvvüf kodu: poetik fəlsəfədən fəlsəfi poeziyaya" başlıqlı üşüncü fəsildə Mahmud Şəbüstəri, Marağalı Əvhədi, İzzəddin Həsənoğlu və Nəsimi ədəbi irsi məqsədəmüvafiq aspektdən təhlil olunaraq təsəvvüfün onların yaradıcılığında oynadığı bir-birindən fərqli və ümumi funksional xüsusiyyətlər müəyyənləşdirilir.

"XV-XVI əsrlər Azərbaycan bədii düşüncə sistemində təsəvvüf kodu: fəlsəfi poeziyadan fövqəlestetik poeziyaya" adlı dördüncü fəsildə Qasım Ənvar, Şah İsmayıl Xətai və ən nəhayət, Məhəmməd Füzuli ədəbi irsi üzərində müvafiq elmi təhlillər aparılır, təriqətlə bilavasitə əlaqəli təsəvvüf ədəbiyyatından (Qasım Ənvar, Şah İsmayıl Xətai) poetik büllurluq, xalis estetiklik (fövqəlestetiklik) kəsb edən ədəbiyyata (Məhəmməd Füzuli) keçid göstərilir. Qasım Ənvar poeziyasında təsəvvüfün ifrat vəhdəti-vücud məz-

munu və poetik istiqamətləri, Şah İsmayıl poeziyasında siyasi məzmunu, Füzulidə mətn daxilində poetik və təsəvvüfi səviyyələrin estetik prinsiplər əsasında yeni keyfiyyətdə təşkili bu fəsildə üzərində xüsusi dayanılan problemlərdəndir.

Hesab edirik ki, monoqrafiyada elmi müşahidə və ümumiləşdirmələrin nəticəsi kimi təqdim olunan mülahizə və qənaətlər təsəvvüfün kulturoloji aspektdən öyrənilməsində, həmçinin milli klassik ədəbi irsin araşdırılmasında faydalı ola bilər.

# I FƏSİL

## TƏSƏVVÜFÜN GENEZİSİ VƏ FƏLSƏFİ-ƏDƏBİ ƏSASLARI

# I FƏSİL

# TƏSƏVVÜFÜN GENEZİSİ VƏ FƏLSƏFİ-ƏDƏBİ ƏSASLARI

## Təsəvvüfün genezisi və təşəkkülü: Rəbiyə əl-Ədəviyyədən İmam Qəzaliyə

VIII əsrdə İslam sivilizasiyası hadisəsi kimi meydana çıxan, sonralar islam mədəniyyətinin əsas ideoloji bazasına çevrilən və bu funksiyasını uzun əsrlər boyu davam etdirən təsəvvüfün İslamla bağlılığının xarakteri elmi ədəbiyyatlarda mübahisə hədəfi olaraq qalmaqdadır. İstər Şərq, istərsə də Avropa alimləri təsəvvüfün mənşəyi ilə bağlı irəli sürdüyü fikirlərdə "islami" ilə "qeyri-islami"nin rolu, həlledici əhəmiyyəti məsələsində bir-birindən ayrılırlar. Şərq alimləri təsəvvüfün mənşəyini əsasən Quran və Sünnədə axtarmağa üstünlük verirlər. Onların fikrincə, təsəvvüf İslamın öz bətnindən doğulub, müsəlman ictimai-fəlsəfi fikrində peyğəmbərin aşiqlikdən doqmatizmə, praktikliyə doğru yarımçevrə hərəkət istiqamətini tamamlamaq üçün yenidən doqmadan aşiqliyə doğru hərəkət baş verib, çevrə qapanıb.

İslam alimləri daha çox təsəvvüfün mənşəyini Qurana bağlamağa cəhd edir, şəriət və təsəvvüf arasındakı fərqləri nizama tabe etdirməyə, onların hər ikisini bir-birini tamamlayan ardıcıl mərhələlər kimi izah etməyə çalışırlar. Onlara görə təsəvvüf İslam, Quran, fiqh, şəriət sahələrini

təmsil etməklə İslamın öz bətnindən doğulmuşdur. Bu təlim istər nəzəri-fəlsəfi əsasları, istər praktiki yaşam formulları, istərsə də sosial mahiyyəti baxımından tövhidə və şəriətə əsaslanır [1, 1-13].

Təsəvvüfün yaranması ilə bağlı geniş yayılmış ikinci qənaət isə onun qədim Çin, hind, İran, yəhudi, yunan xalqlarının mistik təmayüllü fikir axınları əsasında formalaşması ilə bağlıdır [2, s. 63; 3, s. 204; 4, s. 87; 5, s. 92; 6, s. 16].

Təsəvvüfün mənşəyini, onun təşəkkülündə "islami" ilə "qeyri-islami"nin rolunu dəqiq müəyyənləşdirmək üçün İmam Qəzaliyə qədərki təsəvvüfün təşəkkülü dövrünün yarımmərhələ təsnifatı aparılmalı, haqqında söhbət gedən problem bu yarımmərhələlər əsasında açıqlanmalıdır. VII-VIII əsrlərdən XI əsrəqədərki dövrü əhatə edən təsəvvüfün təşəkkülü mərhələsində İslam sivilizasiyası daxilində təsəvvüfi fikrin inkişafı aşağıdakı yarımmərhələləri ayırıb fərqləndirməyə əsas verir:

**1.Zahidlik hərəkatı**

**2. İlkin təsəvvüf**

Zahidlik hərəkatının meydanagəlmə səbəbləri, əsasən, VII-VIII əsrlərdə Xilafət daxilində baş verən ictimai-siyasi hadisələrlə şərtlənir.

Mənbələrin verdiyi məlumata görə, İslam peyğəmbəri öz həyatının ilkin çağlarında təfəkkür ibadətlərinə dalar, hətta mistik həyəcanlar yaşayardı. Hətta bu yaşantı o dərəcədə güclü təzahür olunurdu ki, "ərəblər rəsulallahın peyğəmbərlikdən əvvəl Hira dağına çəkilib ibadət etdiyini gördükləri zaman "Məhəmməd Rəbbinə aşiq olmuşdur" – deyiblər" [7, s. 154]. Lakin peyğəmbərin həyatının Mədinə dövrü isə mistikdən daha çox, dünyanı idarə etmək istəyən fatehin hərbi-siyasi fəaliyyətini xatırladır. Onun həyatında belə bir dəyişiklik öz daxili-mənəvi strukturunun abadlığından sonra, ictimai-sosial strukturun da nizama salınması missiyasından qaynaqlanırdı.

Lakin, məlum olduğu kimi, xəlifədən-xəlifəyə bu dəyişiklik hakimiyyət hərisliyinə çevrilir, Əməvilərin hakimiyyəti dövründə (661-750) özünün kulminasiya mərhələsinə çatır. Bu illər ərzində Xilafət öz "peyğəmbər mənşəyindən" o qədər uzaqlaşır ki, Məhəmmədin Rəbbinə aşiqliyini onlara yenidən xatırlatmaq lazım gəlir. Və müsəlman dünyasında zahidlik hərəkatı nizamı pozulmuş, ədalətsizliklərlə dolu cəmiyyətə qarşı müxalifət ovqatından yaranır.

Zahidlik hərəkatının xarakterik xasiyyətləri dünyaya ifrat dərəcədə bağlanmamaq üçün dünyadan ifrat dərəcədə ayrılmaq və Allahı unutmamaq üçün onun adlarını müntəzəm olaraq təkrarlamaq idi. Bu hərəkatı sonrakı mərhələdə müşahidə etdiyimiz normativ təsəvvüf kimi xarakterizə etməyə imkan verməyən başlıca cəhət mistik yaşantının zəifliyidir. Zahidlər təsəvvüfün sonrakı inkişaf mərhələsi üçün xarakterik olan başlıca bir xüsusiyyətdən – mistik həyəcandan məhrum idilər [2, s. 17]. Lakin təsəvvüfün sonrakı mərhələlərində əsas nəzəri-fəlsəfi müddəalara çevriləcək bəzi ana istiqamətlərin rüşeymlərinə bu dövrün zahidlərində rast gəlmək mümkündür. Məsələn, müsəlman zahidlik hərəkatının günümüzə haqqında daha çox məlumat gəlib çatan nümayəndəsi Rəbiyə əl-Ədəviyyənin (713-801) məhəbbət haqqında aşağıdakı fikri sufiliyin eşq konsepsiyasının rüşeym halıdır:

*Allaha üsyan edib durduğun halda onun məhəbbətindən dəm vurursan,*
*And içirəm ki, bu başa düşülən kimi deyil,*
*Əgər məhəbbətində sadiq olsaydın, Ona itaət edərdin,*
*Çünki sevən sevdiyinə itaət edər. [1, s. 202]*

Və yaxud təsəvvüfün əsas ana istiqamətlərindən olan "Allaha Allah üçün can atmaq" ideyası Rəbiyənin başqa bir duasında qorunub saxlanmışdır:

*Ey Allahım, əgər mən sənə cəhənnəm qorxusundan ibadət edirəmsə, məni ora at.*
*Əgər cənnət arzusu ilə ibadət edirəmsə,*
*məni oradan qov.*
*Yox, əgər mən sənə yalnız sənin üçün ibadət edirəmsə,*
*onda öz əbədi gözəlliyini məndən gizlətmə. [1, s. 202]*

Rəbiyənin bu duası artıq zahidlik hərəkatı daxilində, belə demək mümkündürsə, mistik ovqatın ilk simptomları idi. Və belə mistik ovqatın formalaşmasına təkan verə biləcək stimullar Quran və Sünnədə kifayət qədər mövcud idi.

Quranda zahidlərin öz zahidanə ibadətlərində və həyat tərzində əsaslandığı əsas ayələr aşağıdakılardır:

- *Biz ona şah damarından da yaxınıq. (8, L, 16)*
- *Qəlblər ancaq Allahın zikri ilə hüzura enər. (8, XIII, 28)*
- *Məni xatırlayın ki, sizi xatırlayım (8, 11, 152)*

(Rum rəqəmi ilə göstərilən ədəd Qurani-Kərimin surəsini, ərəb rəqəmi isə ayəsini bildirir).

Və yaxud sünnədən ayırıb fərqləndirdiyimiz aşağıdakı hədislər:

- *Allah gözəldir və gözəlliyi sevir [9, s. 287].*
- *Kim Allah üçün təvazö edərsə, Allah onu ucaldar,*
  *kim təkəbbürlük edərsə, Allah onu alçaldar,*
  *kim daimi zikr edərsə, Allah onu sevər [9, s. 342].*

Zahidlərin ən xarakterik cəhətini təşkil edən daimi, fasiləsiz zikr İslam mənbələrində bu kimi ayə və hədislərə dayanırdı. Və bu zikrin birbaşa hədisdən qaynaqlanan məntiqi nəticəsi kimi Allah sevgisinin hasil olduğuna da inanılırdı.

İslam xilafətinin dördüncü xəlifəsi Əlinin aşağıdakı müddəası isə az qala Nəiminin hürufiliyi səviyyəsində elə

birbaşa substansionallaşmış "Mən"in coşqunluqla tərənnümüdür:

"Bə"də (ərəb əlifbasının ikinci hərfi nəzərdə tutulur - S.X.) vücud zahir oldu. Ondan başlar və ona qayıdar. Allahın kitabında olanlar kitabın "fatihə"sindədir, kitabın "fatihə"sində olanlar "bismillah"dadır. "Bismillah"da olanlar "bə"dədir. "Bə"də olanlar "bə"nin nöqtəsindədir. Mən "bə"nin altındakı nöqtəyəm" [5, s. 41].

Bu hədisdə Əli dolayısıyla özünün "kəlamullah" olduğunu elan edir. Kəlamullahla Allah arasındakı mənəvi məsafə isə elə Qıl körpüsünün özü kimi bir şey idi. Bu şəkildə qeyri-ənənəvi, eyni zamanda daxili bir coşqunluqla ifadə edilən "mən kəlamullaham" kredosundan "Mən Allaham" kredosuna bircə addım qalır. Və bu bir addım isə zahidlik hərəkatından az sonra Həllac Mənsur tərəfindən atılır. Lakin bizi maraqlandıran cəhət odur ki, zahidlik hərəkatı dövründə doqmadan mistikaya doğru atılan addımlar heç bir kənar müdaxilənin nəticəsi kimi meydana çıxmır, İslam sivilizasiyasının öz daxili ictimai-siyasi və dini-mənəvi inkişaf qanunauyğunluğundan doğurdu. İslam sivilizasiyası daxilində zahidlikdən təsəvvüfə keçid VII əsrin sonraları - IX əsrin əvvəllərində baş verir. Belə bir keçidin coğrafi məkanı kimi Kufə, Bəsrə, Bağdad, sonralar İslamiyyətin əsas ərazilərindən birinə çevrilən Xorasan daha çox fərqləndirilir. Bu keçidin daxili mexanizmini aydınlaşdırmaq üçün İmam Qəzaliyə qədərki təsəvvüfün zahidlik hərəkatından fərqlənən iki başlıca xüsusiyyəti üzərində dayanmaq lazımdır:

**1. Nəzəri bazanın yaranması;**

**2. Təşkilatlanma.**

"Qeyri-islami" fikir cərəyanlarının təsəvvüfə əhəmiyyətli təsiri məhz bu iki xüsusiyyətin meydana çıxmasında özünü göstərmişdir. Başqa sözlə, zahidlik hərəkatından ilkin təsəvvüfə keçid bu cərəyanların təsiri altında baş verir.

Bu dövrdə bir sıra qədim mədəniyyətlərin çoxsaylı nümunələri ərəb dilinə tərcümə edilir. Abbasi xəlifəsi Məmun 831-ci ildə Bağdadda "Beytül-hikmətə" adlı tərcümə mərkəzi yaradır, Həllac İbn Mətər və İbn Bitrinq kimi şəxslərin vasitəsilə yunan, Suriya, xaldey, hind, pəhləvi, latın dillərində fəlsəfə, riyaziyyat, tibb, ədəbiyyat sahəsinə aid kitabları ərəb dilinə tərcümə etdirir [10, s. 19]. Bunun da nəticəsindən "yunan amili özü də öz intibah rolunu xristianlıqdan əvvəl İslamda oynayır" [11, s. 85].

"Qeyri-islami" fikir cərəyanlarının təsiri altında nəzəri bazanın formalaşmasını bu dövrün sufilərindən Əbu Haşım, Həsənül-Bəsri, Cüneyd Bağdadi, Həllac Mənsur, Haris ibn Əsəd kimi ünlü sufilər təmsil edir. Haris ibn Əsədin "Ar-riayyat li hüquq Allah" (Allah hüququna riayət) əsərinin nəzəri bazanın formalaşmasında xüsusi əhəmiyyəti olub. Təsəvvüfün sonrakı inkişafı üçün xarakterik olan daxili kamilləşmə konsepsiyası ilk dəfə olaraq öz şərhini burada tapıb. XII əsrə qədər əksər sufilər bu kitabdan əsas mənbə kimi istifadə ediblər [2, s. 29].

İlkin təsəvvüfün formalaşdığı dövrlərdə qeyri-islami axınların rolu da bir-birindən əsaslı şəkildə fərqlənir. Onların ayrılıqda nəzərdən keçirilməsi zəruridir:

**1. Qədim hind təlimləri**

Bəşər mədəniyyətinin çox qədim beşiklərindən olan qədim Hindistanda dini-fəlsəfi fikrin təsəvvüflə müştərək çalar kəsb edən istiqamətləri, əsasən, brahmanizm, yoqa təlimi və buddizmdir.

Brahmanizmin təsvir etdiyi daha çox mifoloji-fəlsəfi panorama görə, bütün varlığın fövqündə Brahma adlı əbədi varlıq mövcuddur. Yaradılmışlar ölümdən sonra təkrar ona dönürlər.

Yoqa təlimi isə insan ruhunu öz əzəli mahiyyəti ilə birləşdirməyə çağıran hind təlimidir. Öz xarakteri etibarilə

mistik səciyyə daşıyan bu təlim ekstaza çatmağın arxaik texnikası üzərində xüsusi dayandığından daxili mistika o qədər də nəzərə çarpmır. "Allaha eşq bütün biliklərdən üstündür" kimi formalaşan yoqa devizi təsəvvüflə analoji baxışın ən uyğun nöqtəsidir.

Qədim Şərqin ən nəhəng dinlərindən hesab olunan buddizmin daxili kamilləşmə yolu ilə xilasolma nəzəriyyəsi də müsəlman mistikası ilə çox oxşardır.

Təlimin əsasını "həyat əzabdır" kredosu təşkil edir [12, s. 141; 13, s.37]. Bu əzabdan xilasolmanın yeganə vasitəsi isə sansaradan keçərək nirvanaya qovuşmaqdır [13, s. 53]. Təsəvvüfdə olduğu kimi, buddizmdə də ali məqsədə qovuşmağın mərhələləri işlənib hazırlanmışdır:

- Doğru inam;
- Doğru qətiyyət;
- Doğru söz;
- Doğru əməl;
- Doğru həyat;
- Doğru fikir;
- Doğru niyyət.
- Doğru seyr. [3, s. 204]

Təsəvvüfün qədim Şərq təlimləri ilə əlaqəsindən danışan bəzi müəlliflər "fəna" ilə buddizmin "nirvana" anlayışı arasında oxşarlıqdan söz açırlar. Buddizmdə Buddanın nirvanaya ən böyük keçidi (maxaparanirva) fiziki ölüm hesab edilir. Təsəvvüfdə də ölüm aktı "vüsal gecəsi" kimi metaforikləşdirilərək əbədiyyətə qovuşma kimi dəyərləndirilir. Öz ümumi cizgilərinə görə bənzər olan "nirvana" və "fəna" arasında əsaslı bir fərq mövcuddur. Bu da mütəsəvviflərin fənadan sonra bəqaya (əbədiyyətə), buddistlərin isə nirvanadan sonra "yoxluğ"a qovuşmaları ilə bağlıdır [14, s. 268].

Hesab edirik ki, qədim hind buddizminin mütləq reallıq haqqında kardinal tezisi, həyatın mahiyyətini əzab kimi xarakterizə, mənəvi kamilləşmə nəzəriyyəsi ilə təsəvvüf ara-

sında oxşar xüsusiyyətlər hər iki təlim arasında birbaşa qarşılıqlı əlaqədən irəli gəlmirdi. Mənəvi kamilləşmə ilə mütləq başlanığıca yaxınlaşdıqca (mənəvi evolyusiya) hansı tarixi dövrdə, hansı ictimai-siyasi və dini-mənəvi mühitdə yaşamasından asılı olmayaraq, hər kəs eyni bir marşrut üzrə hərəkət edir və eyni bir mənzilə yetişir. Mövcud qövmi ənənələr, ictimai-siyasi hadisələr belə bir mənəvi təkamülün olsa-olsa zahiri deklorasiyasını müəyyən edir.

Prinsip etibarilə hindlilərin buddizmi də, təsəvvüf də eyni amala xidmət edir: ruhi-mənəvi saflaşma və eşqlə əzabdan xilas olub əzəli mahiyyətə qovuşmaq! Lakin belə bir eyniliyin birbaşa təsirdən gəlməsini sübut edən heç bir tarixi fakt yoxdur. Hind təlimlərindən fərqli olaraq antik yunan mədəniyyəti ilə İslam mədəniyyətinin, eyni zamanda təsəvvüfün əlaqələri isə tamamilə birbaşa faydalanma səciyyəli idi.

**2. Yunan mədəniyyəti**

Elmin, incəsənətin ən müxtəlif sahələrində yüksək inkişaf zirvələri fəth etmiş antik yunan mədəniyyəti bütövlükdə İslam mədəniyyətinin, xüsusən fəlsəfənin inkişafına çox əhəmiyyətli təsir göstərmişdir. Abbasilər sülaləsinin ilkin çağlarından etibarən antik mədəniyyət nümunələrinin ərəb dilinə tərcüməsi nəticəsində müsəlman fəlsəfi fikrində ən müxtəlif istiqamətdə fikir cərəyanları meydana çıxır. Eyni zamanda zahidlik hərəkatının nəzəri konsepsiya əsasında təşkilati bir hərəkata, təsəvvüf təliminə çevrilməsində antik yunan fəlsəfi fikri əhəmiyyətli rol oynayır. Antik fəlsəfənin və riyaziyyatın ən böyük nümayəndələrindən olan Pifaqor ruhun əbədiliyinə inanmış, onun (ruhun) kamilləşməsini isə elm və sənətdə görmüşdü. Pifoqorun anlamında elm – riyaziyyat, sənət isə musiqi idi.

Əgər zahidlər fasiləsiz zikrin nəticəsində Allah məhəbbətinin hasil olduğuna inanırdılarsa, Pifaqorun, Plato-

nun bu xüsusda daha kamilləşmə nəzəriyyəsi ilə tanış olduqdan sonra bu inamları rasional konsepsiyaya çevrildi. Məlumdur ki, qədim yunanlar məhəbbətin üç müxtəlif formasını ayırıb fərqləndirirdilər:

- Ailə üzvləri və dostlar arasında məhəbbət ("filia");
- Hissi məhəbbət ("eros"-məhəbbətin bu formasını vulqar Afrodita simvollaşdırırdı);
- Ali məhəbbət.

Platonun irəli sürdüyü ali məhəbbətdə önəmli rolu ideya tuturdu. Bu, insanın istənilən obyektə hissdən arınmış coşğunluqla meyli idi. Ona görə də bu məhəbbət nikah tələb etmir [15, s. 179]. Məhəbbətin ali forması ilə tanışlıq zahidlərin təmənnasız və fasiləsiz zikrə sövq edən daxili potensiyasını (bu, haradasa hörmət və canatma idi) məhəbbətə çevirdi.

Təsəvvüfün fəlsəfi əsasının "vəhdəti-vücud" kimi formalaşmasında da qədim yunan fəlsəfəsinin əhəmiyyətli təsiri olmuşdu. Öz kamil şərhini İbn Ərəbinin fəlsəfəsində tapan "vəhdəti-vücud" konsepsiyası təsəvvüf tarixində "tənəzzülat sita"nın (altımərhələli eniş) və "kidam ərvah"ın fəlsəfi təkmilləşməsi kimi meydana çıxmışdır. Artıq sabitləşmiş qənaətə görə isə, "kidam ərvah" konsepsiyası (dünyayaqədərki ruhlar) Platona məxsusdur. Platon özünün "Fedon" əsərində bu aspekti geniş şərh etmişdir. Müsəlman fəlsəfi fikir tarixində bu konsepsiya İbn Sina və Fərabi tərəfindən yenidən təkrarlanır ki, Qəzali də onları məhz buna görə şəriətə etinasızlıqda ittiham edirdi [16, s. 29].

### 3. Neoplatonizm

Təsəvvüfün qeyri-islami fikir cərəyanları ilə əlaqəsindən danışan bütün tədqiqatçılar neoplatonizm üzərində xüsusi dayanır, onun nəzəri müddəaları ilə sufizmin müddəaları arasındakı oxşarlıqları qarşılıqlı müqayisə edirlər. Neoplatonizmin banisi Plotin (204-cü ildə doğulub) öz nə-

zəri sistemini "Ennada" əsərində şərh etmişdir. Plotinə görə, Vahid dərkedilməzdir. Material dünya Vahiddən (Plotinin şərhində Allah Vahid kimi göstərilir) emanasiya nəticəsində yaranmışdır. Bu emanasiya beş mərhələdən keçir:

1. Vahid;
2. Ruh;
3. Qəlb;
4. Materiya;
5. Fiziki dünyanın təzahürü.

Neoplatonizmdə insanın başlıca məqsədi qəlbi fiziki bədənin şərindən uzaqlaşdırıb ilahi başlanğıca yaxınlaşmaqda görülür. Buna isə ekstazla nail olmaq mümkündür.

Plotinin ən böyük xidməti mistik düşüncəni sirrin fantastik havasından qurtarması və onu dinin əsası ilə praktiki fəlsəfənin zirvəsi arasında körpü halına gətirməsində idi. Plotin yazırdı: "İnsan ifrat olunan hər şeyi yonaraq, saxta olan hər şeyi ataraq, hər şeyi gözəlliyin bir şərəfi halına gətirərək Allaha bənzəməli və gözəl olmalıdır".

Neoplatonizmin müsəlman fəlsəfi fikrinə, xüsusilə təsəvvüfə təsiri olduqca böyükdür. Mütəxəssislərin rəyinə görə, yuxarıda haqqında söz açdığımız "tənəzzülat sita" (beşmərhələli eniş) İbn Ərəbi yaradıcılığında Plotinin emanasiya nəzəriyyəsinə dayanaraq meydana gəlmişdi.

İslamın ilkin dövrlərində neoplatonizmin kitablarından biri ərəb dilinə "Aristotelin metafizikası" (İlahiyyati-Ərəstu) adı altında tərcümə edilmişdir. İtalyan professoru Ditriqinin bu kitabın Aristotel və onun metafizikası ilə heç bir əlaqəsinin olmadığını əsaslı şəkildə sübut edən mülahizəsinə baxmayaraq, bu əsər hələ də Aristotel metafizikası kimi tanınır. Belə hesab edilir ki, təsəvvüfün nəzəri bazasının formalaşmasında neoplatonizmin təsiri məhz bu mənbə vasitəsilə həyata keçmişdi [17, s. 178].

**4.Xristianlıq**

Xristianlığın müsəlman mistisizminin formalaşmasına göstərdiyi təsir barədə təsəvvüf tarixini araşdıran mütəxəssislər arasında fikir ayrılığı mövcuddur. Bəzi tədqiqatlarda təsəvvüfün istər nəzəri bazasının formalaşmasında, istərsə də təşkilatlanmada xristianlığın oynadığı rol həddindən ziyadə qabardılır.

Biz belə bir yanlış tendensiyaya Adam Metsin "Müsəlman renessansı" əsərində rast gəlirik: "Qədim dini inamlar, hər şeydən əvvəl xristianlıq, başqa sözlə xristianlığa bürünmüş ellinizm dünyası cəmiyyətin dərinliklərində əlverişli şərait güdərək, öz xidmətini təklif edirdi. III-IV əsrlər ərzində İslamın şəklini dəyişən hərəkat (əsasən, təsəvvüf - S.X.) xristian ideyalarının bütöv axınının Məhəmməd dininə daxil olmasından başqa bir şey deyildi" [18, s. 268].

Belə bir ümumiləşdirmədən sonra müəllif bu istiqamətdə fikirlərini daha da dərinləşdirir, təsəvvüfün mənşəyini təşkilati qurumun yaranması kimi izah edərək belə təşkilati qurumların da bilavasitə xristian monastrının təsiri altında formalaşması fikrini irəli sürür. IX-X əsrlər müsəlman sivilizasiyasının tədqiqi baxımından əhəmiyyətli olan bu kitabda təsəvvüfün mənşəyi ilə bağlı belə yanlış, birtərəfli izah bütövlükdə Avropada bu xüsusda geniş intişar tapmış tendensiyanın bariz nümunəsidir. Biz İslam sivilizasiyasının bütöv mənzərəsini vermək baxımından müəllifin xidmətini azaltmadan, onu da qeyd etməyi vacib bilirik ki, təsəvvüfün mənşəyi ilə bağlı belə birtərəfli mülahizələrin təsəvvüfşünaslıqda normativləşməsi İslam mədəniyyətinin də genezis etibarilə yad kontekstlərə bağlanmasına gətirib çıxarır. Çünki bu halda xristianlıq təsəvvüflə İslamın sintezindən yaranan müsəlman intibahına da bilavasitə tarixi irs hüququ qazanır.

Mistik fikrin dinin bətnindən doğulması, dünya mistik təlimləri tarixinin sübut etdiyi kimi, özünəməxsus qanuna-

uyğunluğun nəticəsidir. Din özündə gizli mistika toxumu gəzdirir. Onun cücərməsi, inkişafı isə ictimai-siyasi hadisələrin və kənar təsirlərin doğura biləcəyi əlverişli zəminin olmasına bağlıdır.

Zahidlik hərəkatından ilkin təsəvvüfə keçiddə xristianlıq digər başqa təmayüllərlə yanaşı belə bir zəminin hazırlanmasında iştirak etmişdir. Həm də daha çox nəzəri bazanın formalaşmasına deyil, təşkilatlanmaya təsir göstərmişdi. Zahidlik hərəkatından sonra nəzəri bazanın yaranması həmin nəzəri görüşlərə uyğun həyat tərzi tələb edir ki, bunun da nəticəsində sufilərin zaviyə, xanəgah, dərgah və təkyə kimi xüsusi yaşayış yerlərində birləşməsi meydana çıxır. Başqa sözlə, təsəvvüf tarixində təşkilati qurumların yaranması bu hərəkatın zahiri tərəfi idi. Əgər Adam Metsin yazdığı kimi, ilk sufi ocaqları xristian monastrlarının yayıldığı ərazidə yaranırdırsa, bu faktın özü belə təsəvvüfün bilavasitə xristianlığın təsiri altında yaranması demək deyildi.

Yeri gəlmişkən qeyd edək ki. "təkyə" fars mənşəli söz olub "dayanılan yer" anlamına uyğun gəlir. "Dərgah"sözü isə "qapı önü" mənasında işlədilir. Təkyə, dərgah dərvişlərin toplanıb zikrlə məşğul olduğu yerdi. Təriqətlərdən birinə məxsus şeyxlərin yaratdığı təkyəyə "xanəgah", səyyah dərvişlərin qonaq qalması üçün nəzərdə tutulan tikiliyə isə "zaviyə" deyilir. Bu mənada "deyr" və "sovməə" istilahları da işlədilir [20, s. 7].

Yuxarıda haqqında məlumat verdiyimiz qeyri-islami təmayüllərin təsiri nəticəsində zahidlik hərəkatının nəzəri bazanın formalaşması və təşkilatlanma ilə xarakterizə olunan ilkin təsəvvüfə çevrilməsi, həqiqətən də, mistik-fəlsəfi fikrin dini fikirdən uzaqlaşmasını özündə əks etdirirdi. Məhz buna görə də bu mərhələdə sufilər rəsmi din nümayəndələri tərəfindən təqib olunurdular.

Təsəvvüfün İslam teologiyası ilə başlıca ziddiyyəti "tövhid" (Allahın birliyi) anlayışına olan münasibətdə idi.

Rəsmi ilahiyyatın "Allahdan başqa Allah yoxdur" kimi formulə etdiyi tövhidə sufilər "Allahdan başqa varlıq yoxdur" kimi yanaşır, hər şeyi onun varlığında yox bilib, onun varlığı ilə var olduqlarını bəyan edirdilər [19, s. 54].

İslam teologiyası ilə təsəvvüfün antoloji baxışlarını birləşdirməyə ilk cəhd edən Əbülqasim Əbu Kərim Hüşeyri olur. Lakin bu cəhd heç bir müsbət nəticə vermir. Çünki mövcud təriqətlərdən hər hansısa birinə üstünlük vermək istər-istəməz yenə həmin təriqətin ayrılıqda özünün inkişafına gətirib çıxarır. İslam tarixində bu böyük missiyanı İmam Qəzali yerinə yetirmişdir. Hüccətül-islam adıyla tanınan Qəzali dövrünün əksər elmlərini dərindən bilən mütəfəkkir idi. Bağdadın Nizamiyyə universitetinin rəhbəri kimi cəmiyyətdə yüksək sosial mövqeyə malik alim günlərin bir günü anlayır ki, onun bütün fəaliyyətinin əsasında şöhrət dayanır. Altı ay sarsıntılı günlər, tərəddüdlər keçirən Qəzali malını kasıblara paylayıb Həccə getmək adı ilə Bağdadı tərk edir. On il dərviş həyatı yaşayan, Şərqin müxtəlif şəhərlərini pay-piyada gəzən bu böyük həqiqət mücahidi sonralar yazırdı: "Heç bir şübhə olmayacaq dərəcədə anladım ki, mütəsəvviflər, həqiqətən, Allah yolunu tutan kimsələrdi. Onların gedişləri gedişlərin ən gözəlidir. Getdikləri yol yolların ən doğrusu, əxlaqları əxlaqların ən təmizidir. Dünyadakı bütün ağıllı insanların ağlı, həkimlərin hikməti, şəriətin sirlərinə vaqif olan üləmanın elmi bir yerə yığılsa, buna imkan tapa bilməzlər. Onların zahiri və daxili yaşantılarındakı bütün hərəkət və sükunət tamamilə nübüvvət nurundan feyz və işıq almışdır" [16, s. 65].

Qəzalini özünəqədərki mütəfəkkirlərdən fərqləndirən başlıca xüsusiyyət onun ifrat təmayüllərindən heç birinə qapanıb qalmaması, əksinə, bütün fikri təmayülləri (kəlamı, batiniliyi, fəlsəfəni və təsəvvüfü) öz sistemi daxilində birləşdirməsi olmuşdu. Əslində, Qəzaliyə qədərki təriqətlərin bir-biri ilə, hamısının isə birlikdə rəsmi İslamla oppo-

zisiyası Qəlb və Ağlın ziddiyyətindən başqa bir şey deyildi [21, s. 18].

**Qəzali ilk dəfə olaraq ağılla qəlbin, soyuq məntiqi mühakimə ilə çılğın məhəbbətin ümumi zəminini gördü və belə ümumi zəmini dayaq nöqtəsi tutaraq "sufiliyi daha müdrik, möminliyi isə daha canlı"** [22, s. 189] etdi. Qəzalinin fəaliyyəti nəticəsində ayrı-ayrılıqda inkişaf edən və İslam inancının zəifləməsinə gətirib çıxaran fəlsəfə, batinilik, təsəvvüf, kəlam bir yerə cəm oldu və İslamın sarsılmazlığına xidmət etdi. Eyni zamanda, Qəzali sufilərə müsəlman cəmiyyətində başqaları ilə bərabərhüquqlu vətəndaşlar kimi yaşamaq imkanı qazandırdı.

**Beləliklə, təsəvvüf zahidlik hərəkatı formasında İslamın öz bətnindən doğulur, ilkin təsəvvüf mərhələsində qeyri-islami təmayüllərin nəzəri bazası əsasında mistik-fəlsəfi zənginləşmə və təşkilatlanma ilə xarakterizə olunan çox mürəkkəb bir prosesdən keçir. Bu proses öz ümumi istiqamətinə görə İslam inancından uzaqlaşmağa doğru olsa da, lakin İmam Qəzalinin timsalında yenidən start götürdüyü ilkin nöqtəyə dönür.**

## Təsəvvüf mistik-fəlsəfi sistem kimi: İmam Qəzalidən İbn Ərəbiyə

**Təsəvvüfün təqdim etdiyi modelə görə, inkişaf dairəvi trayektoriya boyunca vahiddən parçalanmaya (nüzul və ya involyusiya) və yenidən parçalanmadan vahidə (üruc və ya evolyusiya) marşrutu üzrə gedir. Zaman ilkinliyində vahid olanı parçalanmaya doğru qovduqca fərqləndirici xüsusiyyətlər üzə çıxarır. Bu fərqli xüsusiyyətlər ilkin ümumi başlanğıcdan uzaqlaşmanın elə bir həddinə çatır ki, artıq onlar arasında ümumilik görünməz olur. Və bu nöqtədən evolyusiya başlayır... Evolyusiya mərhələsinə fərqlərin tədrici azalması, ümumiliyin isə artması xasdır.**

**İlkin ümumilik mənəvi başlanğıcdır. İnvolyusiyadan evolyusiyaya keçid isə mənəvi başlanğıcdan uzaqlığın kulminasiya həddi olmaq etibarı ilə ən qatı materiallıq momentidir. Ona görə də evolyusiya mərhələsində kəsrətdən vəhdətə doğru gedən yol dünyəvilikdən mənəviyə doğru da gedən yoldur. Məşhur mütəsəvviflərdən olan Cüneyd Bağdadidən "son nədir?"- deyə soruşulduqda, "əvvələ dönməkdir"-cavabını verir. Bu mənada təsəvvüf ruhun zamanda əvvələ doğru tədrici təkamülünü böyük bir sıçrayışla irəliyə doğru aparmaq cəhdindən yaranmış və özünəqədərki eyni məqsədli cəhdlərin (Hind-buddizm sisteminin mütləq reallıq haqqında kardinal tezisi, neoplatonizmin emanasiya nəzəriyyəsi, ilkin xristianlığın asketizmi və s.) daha kamil, sistemli bir forması kimi meydana çıxmışdır.**

**Təsəvvüfün ümumi mistik-fəlsəfi xarakteristikası ən dürüst müəyyənliyini də elə özünün təqdim etdiyi inkişaf modeli kontekstində tapır: kəsrətin vəhdətə, materiallığın ilkin mənəviyə çevrilməsində zamanın öz təbii axarında minillərə görəcəyi işi zamandan almaq və geniş mənada tarixi qabaqlamaq, kamil insan timsalında evolyusiyanı tamamlamaq!**

Təsəvvüf mistik təlim olduğundan onun teoloji bazasının bütün mahiyyəti psixoloji nəzəriyyəsində üzə çıxır. Çünki insanı "aləmi-suqra" (kiçik aləm) hesab edən sufilər "aləmi-kübra" (böyük aləm), onun mövcudluq səbəbi və s. haqqındakı təsəvvürlərini kiçik aləm əsasında formalaşdırırdılar.

**Təsəvvüf ilkin mənəvi başlanğıca - Allaha intuitiv olaraq eşqlə qovuşmağı və bu qovuşma üçün daxili kamilləşməni vacib hesab edir.** Təsəvvüf öz mövcudluğunun müxtəlif mərhələlərində, ən müxtəlif təriqətlərin timsalında bu ana müddəasından heç vaxt ayrılmamışdır. Orta əsr sufi mütəfəkkirlərinin sistemləşdirdiyi daxili kamilləşmənin müxtəlif modelləri mövcuddur. Onların içərisində ən kütləvi normativlik qazananı isə aşağıdakıdır:

- **Şəriət;**
- **Təriqət;**
- **Mərifət;**
- **Həqiqət.**

**Şəriət mərhələsi** möminin həyat tərzini müəyyən edən ilahi qanunlar məcmusunun (Quran və Sünnə əsasında hazırlanmış praktiki yaşam prinsipləri olan ehkamlar) mənimsənilməsi, həyat tərzinin ona əsasən qurulmasıdır.

**Təriqət mərhələsi** hansısa bir şeyxin, mürşidin rəhbərliyi altında mənəvi təmizlənmə mərhələsidir. Daxili kamilləşmədə ən uzun mərhələ hesab olunan təriqət , daxili yolçuluq olduqca çoxsaylı məqamlar və halları özündə ehtiva edir.

**Mərifət mərhələsi** keçilmiş təkamül nəticəsində qazanılan mənəvi-əxlaqi və idraki keyfiyyətləri təcəssüm etdirir.

**Həqiqət mərhələsi** isə empirik varlığın məhv edilməsi vasitəsilə ilkin başlanğıca qovuşmadır. Bu mərhələdə salikin qəlbi ilahi atributlarla dolur.

Bu mərhələlər zahirən keçilib gedilən yol deyil, uzun illər ərzində mistik təcrübənin mənimsənilməsidir. Mistik təcrübəni mənimsəyənlər şəriətdən sonrakı üç mərhələyə uyğun olaraq **talib, salik və vasil** adlanırlar. Daxili kamilləşmənin bu üç mərhələsi qnesoloji olaraq idraki təkamülün də üç səviyyəsini formalaşdırır:

- **Elm əl-yəqin;**
- **Eyn əl-yəqin;**
- **Həqq əl-yəqin.**

Adətən, mistik-idraki təkamülün bu üç səviyyəsi arasında fərqi anlatmaq üçün məşhur "odun yandırması" misalından istifadə edirlər. "Od yandırır" hökmünün məntiqi şəkildə qəbulu birinci səviyyəyə, odun yandırılmasını kənardan seyr etmək ikinci səviyyəyə, özünün odun içərisində yanaraq odun yandırmasının nə demək olduğunu bilmək isə üçüncü səviyyəyə uyğun gəlir. Təsəvvüfün qneseoloji baxışının əsasında dayanan bu üç mistik-idraki səviyyə antoloji planda vəhdətin də üç mərhələsini formalaşdırır:

**1. Vəhdəti-şühud**

Bu mərhələdə birləşmə bir ruh halındadır. Onun xaricində varlıq bir-birindən ayrı və Allahdan ayrı görünür. Şərq fəlsəfi fikir tarixində Fərabi, İmam Rəbbani kimi alimlər belə birləşmənin mümkünlüyünü qəbul etmişdilər.

**2. Vəhdəti-küsud**

Bu mərhələdə varlığın vahidləşdirilməsi bir məfhumlar birləşməsi olmaqdan insanlar arasında iradə birləşməsi olmağa qədər irəliləyir.

### 3. Vəhdəti-vücud

Şərq fəlsəfi fikri tarixində əş-şeyx ul-Əkbər ləqəbi ilə məşhur İbn Ərəbi (1165-1240) tərəfindən fəlsəfi sistem halına salınan və təsəvvüfün fəlsəfi əsasını təşkil edən vəhdəti-vücud mərhələsində iradə və təsəvvür yolu ilə birləşməyə varlıq baxımından da birləşmə əlavə olunur. Sonralar bu nəzəriyyə Fəridəddin Əttar, Cəlaləddin Rumi tərəfindən daha da inkişaf etdirilmişdir.

Vəhdəti-vücud VIII əsrdən etibarən mövcud olan sufi ideyalarının inkişaf edərək İbn Ərəbi fəlsəfi sistemində yeni keyfiyyət halına gəlib çıxmasının nəticəsi idi. Tədqiqatlarda sistemləşdirmə dahisi adlandırılan İbn Ərəbinin təlimi müsəlman ezoterizminin ensiklopediyası adlandırılır [23, s. 8].

Vəhdəti-vücud hər şeydə tanrının qüdrətini, lütfünü, sifətlərinin təcəllasını görmək, hər şeyin onun varlığıyla müqayisədə bir kölgədən, ilğımdan başqa bir şey olmadığını qəbul etməkdir. Avropa müəllifləri tərəfindən "Şərq panteizmi" adlandırılan bu təlimin Spinozanın panteizmi ilə müqayisəsi sovet şərqşünaslığında möhkəm kök salmışdır. Əslində isə, varlığının birliyi inancı və fəlsəfəsi (İbn Ərəbi) Qərb panteizmindən (Spinoza) daha çox, dialektik idealizmlə(Hegel) müqayisəyə əsas verir. Mütləq, deyə Hegel yazırdı, sanki öz xeyirxahlığından vahidlikləri kənara atır ki, onlar öz mövcudluqlarından ləzzət alsınlar. Bu ləzzət özü sonradan onları mütləq vahidə doğru qovur [24, s. 158].

Hegelin ən ümumi şəkildə xarakterizə etdiyi mütləqin mənşəyi, ümumi istiqaməti, inkişaf səbəbi təsəvvüfün təqdim etdiyi ruhun zamanda inkişaf modelindən o qədər də fərqlənmir. Lakin nəzərə alınması vacib olan bir məsələ var ki, şərqli təfəkkürü üçün xarakterik olan predikatlılıq (Allaha kənardan əlamətlər şamil edərək yanaşma) təsəvvüf təlimi üçün də xarakterik olmuş, yaranışın, inkişafın

dərk edilmiş fəlsəfi panoramı mistik dumana bürünmüşdür.

Dialektik idealizmlə təsəvvüf arasındakı digər bir ümumilik "Mən"ə olan münasibətdə idi. Təsəvvüf insanın fəna məqamına yüksəlməsi üçün empiriklikdən - fərdi-dünyəvi "Mən"dən təmizlənməni, xilas olmanı, arınmanı təklif edirdi. Belə bir təmizlənmə nəticəsində əldə olunan şəxsiyyət artıq substansionallaşmış "Mən" idi ki, məhz O, ifrat təsəvvüf təlimlərində, xüsusən də hürufilikdə Allahla eyniləşdirilirdi. "Ənəlhəq" ideyası da daxili emprik "Mən"in dünyəvilikdən qurtularaq substansionallaşması nəticəsində yaranmışdı.

Dahi Alman filosofu Hegel də eyni mövqedən obyektiv, fövqəlfərdi "Mən"i ən ümumiyə bərabər hesab edir, bu cür mütləq "Mən" əldə etmək üçün isə onu hər cür insani "mən"lərdən ələmək, ona cansız, abstrakt "Mən" səciyyəsi vermək lazım olduğunu vurğulayırdı [25, s. 16].

Əlbəttə, təsəvvüfün dünya fəlsəfi fikrinin nəhəng sistemlərindən olan dialektik idealizmlə müqayisəyə əsas verən ümumi çalarları onu şəksiz fəlsəfə kimi səciyyələndirməyə əsas vermir. Başqa sözlə, belə ümumilik təsəvvüfün XI-XII yüzilliklərdəki inkişaf mərhələsi üçün daha çox xarakterik idi. İbn Ərəbinin simasında bu dövrlərdə fəlsəfə mahiyyətini alan təsəvvüf öz inkişafının sonrakı dövrlərində daha çox hamı tərəfindən qəbul olunan mənəvi-əxlaqi dəyərlər məcmusuna və yaşanılan həyat tərzinə çevrildi.

## Təsəvvüf-poeziya münasibətlərinin strukturu: ədəbi tipoloji təsnifat

İslam sivilizasiyası tarixində insanın həqiqəti azad, buxovsuz, kənar təsirlərsiz dərketmə cəhdi kimi meydana çıxan təsəvvüf fəlsəfədə konseptuallıq, bitkin nəzəri sistem xarakteri kəsb etdisə, sənətdə, poeziyada dövrün ictimai atmosferini şərtləndirən mənəvi-əxlaqi dəyərə çevrildi. Həm də professor Yaşar Qarayevin qeyd etdiyi kimi, "məhz poeziyada o, mistik ifratlardan təmizləndi və sənətə çevrilən poetik din və fəlsəfə şəklini aldı" [11, s. 95].

Bütövlükdə isə təsəvvüfün İslam mədəniyyətindəki rolunu yenə də professor Yaşar Qarayevin aşağıdakı düsturu çox dürüst müəyyənləşdirir: "Əgər Avropa intibahı xristianlıqla antik ənənənin sintezi kimi yaranırsa, "Müsəlman renessansı" İslamla sufizmin qaynağı kimi meydana çıxır. Avropa və Şərq intibahları arasında əsaslı əhval-ovqat fərqi də elə buradan irəli gəlir" [11, s. 189]. Təsəvvüfün müsəlman intibahında belə əsaslı iştirakı sufi ideyanın mədəniyyətin bu və ya digər sahəsində ifadəsinin son nəticədə sənət hadisəsinə çevrilməsi ilə bağlı idi. Zaman-zaman sufi ideya özünü Sənainin, Əhməd Yəsəvinin, Yunus İmrənin, Cəlaləddin Ruminin, Hafizin, Nəsiminin, Caminin, Füzulinin timsalında sənətdə dərk etdi. İstənilən fəlsəfi fikrin, ideoloji təsisatın sənətdə ifadəsi yalnız bu halda (özünü sənətdə dərk!) sənət hadisəsinə çevrilir. Bütün başqa hallarda sənət təyinolunan statusunda qalır: poetik din, poetik fəlsəfə deyil, dini poeziya, fəlsəfi poeziya kimi. Təsəvvüflə sənətin qarşılıqlı münasibətlərindən yaranan orta

əsrlərə məxsus poetik mətnləri bunlardan yalnız biri kimi (ya poetik din, ya dini poeziya) qəbul etmək mümkün deyil. Çünki təsəvvüf poeziya ilə münasibətdə bu mərhələlərin hər ikisindən keçib, hətta ayrıca bir şairin yaradıcılığında dini poeziya ilə poetik dinin paralelliyinə də rast gəlmək mümkündür.

Beləliklə, sufi poeziyası üzərində nəzəri aspektdə müşahidələr sənətin dinlə münasibətinə gətirib çıxarır. Din bütün tarixi dövrlərdə bəşər miqyasında sosial harmoniyanı, ayrıca fərdin təcəssümündə ruhi-mənəvi strukturun abadlığı missiyasını həyata keçirir. Çünki yalnız bu halda insan ilahi başlanğıcla vəhdət təşkil edərək kosmik nizamın ayrılmaz tərkib hissəsinə çevrilir. Bəşər tarixinin ayrı-ayrı mərhələlərində din kosmik sahmanın təminatçısı kimi ən müxtəlif vasitələrdən istifadə edir. İslamın ilkin çağlarında sənət də təsəvvüfün timsalında dinin vasitəçilərindən, qulluqçularından birinə çevrilir. Bu mərhələdə sənətin qul və vasitəçi statusu (hətta ali məqsəd naminə olsa belə) onun özünün görünməsinə, fərqlənməsinə imkan vermir. Obrazlı ifadə etsək, sənət bu mövqeyində şahın məktubunu aparan qasidə bənzəyir. Elə bir qasidə ki, öz sözünün deyil, başqasının sözünün daşıyıcısıdır... Lakin sənətin daxili hərəkətverici potensiyasında avtonomluğa meyl, müstəqil şaha çevrilmək cəhdi var. Və sənət o zaman hakimi-mütləqə çevrilir ki, dini məzmunla yanaşı bədii formanın mükəmməlliyi də onun üçün əhəmiyyət kəsb edir [26, s. 26]. Estetikləşmiş təsəvvüfi poeziyada (İbn əl-Fərid, Hafiz, Füzuli) sənət məhz belə bir şahlıq taxtına qalxır. Sufi poeziyasının zirvə məqamına, şahlıq taxtına gedən yolu isə adi qul və vasitəçilikdən başlanırdı...

Təsəvvüfün poeziyaya ilkin müraciətində məqsəd ekstaza çatmağı texniki vasitələrlə sürətləndirmək idi. Onların vəcdə gəlmək üçün təşkil etdikləri "səma" məclisində formaca ritmik, məzmunca aşiqanə şeirlərin ifadə olun-

duğu musiqi ekstazın başlıca texniki stimulu idi. Təsəvvüflə poeziyanın ilkin tanışlığı kimi bu mərhələni də nəzərə alsaq(həm də poeziya bu statusunda mövzunun sufiləşməsi şərti ilə təkyə ədəbiyyatı kimi ayrıca inkişaf edib), təsəvvüflə poeziyanın qarşılıqlı münasibətlərinin fərqli formalarını (təsəvvüfi poeziyanın inkişaf mərhələlərini) aşağıdakı kimi qruplaşdırmaq olar:

**1. Poeziya sufi ideyaya çatmağın vasitəsi kimi;**

**2. Poeziya sufi ideyanın ifadə vasitəsi kimi;**

**3. Poeziya sufi ideyanın estetik özünüdərk aktı kimi.**

Sufilər poeziyaya ekstazın texniki stimulu kimi müraciət edərkən lap ilkin mərhələdə İslamaqədərki ərəb poeziyasının öz dünyagörüşlərinə münasib mövzularını seçib istifadə edirdilər. Müsəlmanlıqdan əvvəlki ərəb poeziyası çöl ərəbinin heç bir təsisat tərəfindən buxovlanmayan azad hisslərinin tərənnümündən ibarət idi. Bədəvi həyatının qəhrəmanlıq romantikası, məhəbbət lirikası, səhra təbiətinin təsviri və s. mövzularla zəngin ərəb poeziyasından vəcdə gəlmək üçün istifadə olunarkən məhəbbət lirikasına xüsusən üstünlük verilirdi. Məsələn, ünlü mütəsəvviflərdən Zünnuni-Misrini vəcdə gətirərək rəqs etdirən, sonra bayıldan aşağıdakı şeir qaynarqanlı ərəbin məhəbbət əzablarından bəhs edir:

*Sənin kiçik eşqin mənə əzab verdi,*
*Bəs o eşq böyüdüyü, qəlbimi istila etdiyi zaman nə edəcəkdi?*
*Sən əvvəlcə müştərək bir eşqi mənim qəlbimdə cəmlədin.*
*Bəs dərdsiz bir kimsənin güldüyü zaman,*
*Ağlayan dərdli bir kimsə üçün heç şəfqəti yoxdurmu?"*[7, s. 190]

Sufi şair tərəfindən yazılmamış poetik mətnlərdən ekstaza çatmağın vasitəsi kimi istifadənin əks-təsir göstərmək

təhlükəsi də mümkün idi. Bu təhlükəni, xüsusən o şeirlər doğura bilərdi ki, orada mücərrəd anlayışlardan (eşq, vüsal, hicran, əzab və s.) deyil, birbaşa qadının zahiri əlamətlərindən söhbət gedirdi. Məhz belə bir əks-təsiri neytrallaşdırmaq üçün Qəzali bu tipli şeirlərin səma məclisində simvolik qəbulunu təklif edir: "O kimsə ki, Allah sevgisi onun qəlbində qalib gəlir, o şeirdəki zülflərdə küfrün zülmətini, yanağın parlaqlığında iman nurunu, vüsalda Allahın liqasını (sufi anlamda qovuşma), ayrılıqda Allahdan təcrid olub mərdudlar kütləsi içərisində olmasını, vüsala mane olan mövzularda Allahla ünsiyyətə mane olan dünyanı xatırlamalıdır" [7, s. 160].

Səma məclisində poetik mətnlərin əks-təsir təhlükəsini aradan qaldırmaq üçün əsas vasitələrdən biri mətnin sufi düşüncə tərzinə uyğun simvolik qəbulu idisə, digər bir vasitə də elə sufi məzmunlu şeirlərin yazılması idi. Təriqətin müxtəlif mərhələlərindəki sufilər tərəfindən yazılan belə şeirlər nəzmə çəkilmiş moizə xarakteri daşıyırdı:

*Göylərin cabbarı münəzzəhdir;*
*Aşiq isə məşəqqət içərisindədir* .[7, s. 178]

Və yaxud:

*Əbədiyyət evindən səni yeməklərmi məşğul edir?*
*Xeyir verməyən nəfsin ləzzətimi səni məşğul edir?*
[7, s. 188]

Beləliklə, sufinin poeziyaya ekstaza çatmağın vasitəsi kimi ilkin müraciəti bir tərəfdən şeirin ritmik gücünə, digər tərəfdən isə dünyəvi plandakı məhəbbət lirikasına ehtiyacdan qaynaqlanırdı. Bu məqsəd üçün lap ilkin çağlarda İslamaqədərki ərəb poeziyasının sufi düşüncə tərzinə münasib mövzulardan istifadə ilə yanaşı, poetik cəhətdən zəif olsa belə, sufilərin özləri tərəfindən də şeirlər yazılmağa başlayır. Belə bir başlanğıc poeziyanı əvvəlki ilə müqayi-

sədə daha şərəfli bir mövqeyə-sufi ideyanın ifadəsinə doğru qovur. Din və sənətin sufi poeziyası timsalında növbəti münasibətini həm də poetik fikrin dini buxovları qıraraq estetik müstəqilliyə doğru can atmaq kimi ümumi hərəkət istiqaməti də şərtləndirir. Poetik fikrin belə hərəkət istiqaməti ilə sufinin poeziyaya mistik fikrin ifadəedilməzliyindən dolayı özünüifadə imkanı kimi yanaşması üst-üstə düşdüyündən poeziyanın ekstaza çatmağın vasitəsi olmaqdan ekstazın ifadə vasitəsinə çevrilməsi prosesi çox sürətlə gedir.

Bəs növbəti mərhələdə poeziyaya bu aspektdə (özünüifadə imkanı kimi) yanaşmanı zərurətə çevirən səbəblər nədən ibarət idi?

Həqiqətin məntiqi yolla dərkinin qeyri-mümkünlüyü qənaətinə gələn sufilər intuisiyanı insanı mütləq həqiqətə çatdıran, Allahın mənəvi qonşuluğuna qaldıran yeganə vasitə hesab edirdilər.

Ekstaz yolu ilə əldə olunan biliyin ifadəsi zamanı isə onlar linqvistik çətinliklərlə üzləşirdilər. Bu linqvistik çətinlikləri doğuran səbəblərin izahı isə intuitiv yolla həqiqətə çatma prosesinin açıqlanmasını tələb edir.

Təsəvvüfdə batini idrak mərkəzi, haqqın nəzərgahı hesab olunan qəlbin hissi reallıqdan arınması nəticəsində Allahın camalı həmin qəlbdə təzahür edir. Mütləq varlıq salikin qəlbində zatı, feli, sifəti və adları ilə birlikdə təzahür edirsə, salik fəna məqamına yüksələrək vasilə çevrilir. Fəna, deyə Əbu Əbdürrəhman Sülərni yazırdı, qulun varlığını Allah üçün və Allahla bərabər görməsidir. Fənanın üç mərhələsindən (fəna fiş-şeyx, fəna fir-rəsul, fəna fillah) keçən vasilin gözündə bütün mövcudluq yalnız Allahın vahidliyi göstəricisinə çevrilir. Belə bir daxili kamilləşmə materiallıqdan mənəviyə, kəsrətdən vəhdətə doğru gedərək son nəticədə mənəvi vəhdətə gətirib çıxarır ki, fəna elə bu mənəvi vəhdətdir ki, var. Fəna məqamında vasilin Allahla

vüsalı heç bir yerüstü ləzzətlə müqayisəedilməz ilahi bir zövqə çevrilir. Bu ilahi zövqdən məhrum bəşərin nəzərində "quş dilinə" çevrilən sufi poeziya, – "heyrət, ey büt, surətin gördükdə lal eylər məni" səviyyəsində şeiriyyət də bu ilahi zövqün nəticəsidir.

Poeziyanın təsəvvüfdə ekstaza çatmağın vasitəsi olmaqdan ekstazın ifadə vasitəsinə çevrilməsi məhz ilahi-mənəvi yaşantının normativ dil qəliblərində ifadəedilməzliyindən irəli gəlirdi. "Böyük dəniz qaba sığışmadığı kimi, mənalar da heç vaxt hərfin içərisinə sığmaz" (Şəbüstəri). Bu "sığmazlıq" sözün məfhumla bağlılığından irəli gəlir ki, "elm əl-yəqin" dərəcəsini keçən sufi üçün təfəkkürlə və deməli, məfhumla əlaqə kəsilir, Qəlb ilkin başlanğıcla vəhdət təşkil edir. Bu məqamda sözün müstəqim mənada işlədilməsi mənəvi yaşantının ifadəsindən daha çox onun gizlədilməsinə gətirib çıxarır. Daxili-mənəvi yaşantıdan ayrılan enerji isə nə yolla olur-olsun realizasiya olunmaq istəyir. Belə bir realizasiya üçün normativ dilin məhdudluğu əsl "faciəyə" çevrilir [27, s. 222]. Bu məqamda ilkin azadlığına qayıtmağa cəhd edən poeziya öz xidmətini təklif edir. Çünki poeziyanın ekstaza çatmağın vasitəsi olmaqdan öz ilkin azadlığına (heç bir təsisat tərəfindən buxovlanmadan dünyanın poetik təqdimi) gedən yolu məhz ekstazın ifadə vasitəsi olmaqdan keçib gedirdi. Necə ki, Şərq poetik təfəkkürünün sonrakı inkişafı bunun doğruluğunu sübut etdi.

İlkin təsəvvüf mərhələsində ekstaz yolu ilə əldə olunan biliyin ifadəedilməzliyi o qədər problematik xarakter alır ki, bu mövzunun elmi söhbət şəklində müzakirəsi belə eyniməsləkli sufilər arasında mübahisələrə səbəb olur. Onların özlərinin bir-birini başa düşməsi üçün belə poeziya ümumanlaşıqlı dil səviyyəsində çıxış edir. Bu baxımdan, Qəzalinin Əbu Hüseyn Huri haqqında verdiyi aşağıdakı məlumat çox xarakterikdir:

"Əbu Hüseyn Huri bir məclisə dəvət olunur. Məclisdə elmi bir məsələnin müzakirəsi başlanır. Bu zaman sükut içərisində oturan Əbu Hüseyn aşağıdakı şeiri oxuyur:

*Çox göyərçin var ki, daim oxuyur,*
*İncə budaqlar üstündə həzin-həzin oxuyur.*
*Dostu və əlverişli zamanı xatırladır.*
*Üzüntüdən ağlayır, mənim də üzüntümü artırır.*
*Buna görə də mənim ağlamağım onun yuxusunu,*
*Onun ağlamağı mənim yuxumu qaçırır.*
*Mən şikayət edirəm, ona anlada bilmirəm.*
*O, dostdan ayrı düşdüyü üçün şikayət edir,*
*Mənə anlada bilmir.*
*Amma mən qəlbimin vəcd və yanğısından onu tanıyıram.*
*O da içinin vəcd və yanğısından məni tanıyır.*

Əbu Hüseynin bu şeirindən sonra məclisdəkilər ayağa qalxaraq vəcdə qapılır". [7, s. 202]

Nümunədən göründüyü kimi, poeziya daxili yaşantının ifadəedilməzliyini belə ifadə etmək üçün simvolik imkanları ilə köməyə gəlir.

Poeziya sufi ideyanın ifadəsinə çevrilərkən xüsusi işlənib hazırlanmış rəmz və simvollarla zənginləşir. Belə simvolikləşmədə ərəb şeirinin ənənəvi poetik obraz və ifadələri başlıca baza rolunu oynayır. Tutaq ki, ərəb təbiətinin təsvirində xüsusi poetik obraz olan "ay" – ilahi manifestasiyanın, dünyəvi süfrə poeziyasının "şərab" obrazı – ilahi eşqin, "sərxoşluq" – daxili nurlanmanın və s. simvolu kimi çıxış edir. Bu simvollar vasitəsilə ilk baxışdan yerüstü bir məsələdən danışılan mövzunun arxasında daxili sufi məzmun gizlədilir. Rəmzlər və simvollarla sufi məzmunun ifadəsi bir çox şairlərin yaradıcılığında "quş dili" ifadəsi ilə göstərilib. Nəsiminin məşhur

*Heç kimsə Nəsimi sözünü fəhm edə bilməz,*
*Bu quş dilidir, bunu Suleyman bilir ancaq –*
[28, s. 139]

beytində belə simvolikliyə işarə edilmişdir.

*Biçarə Yunusun sözün*
*Aşiq gərək ki, anlaya:*
*O quş dilidir neyləsin*
*Bilmək olmaz ötməyincə.* [29, s. 132]

– deyən Yunus İmrə də gülün həsrətindən öz ilahi nəğmələrini bir bülbül olaraq quş dilində oxuduğunu qeyd edir.

Poeziya sufi ideyanın ifadəsi statusunda ikipilləli məzmun kəsb edir:

- **Zahiri poetik struktur;**
- **daxili metafizik struktur.**

Məhz buna görə də bu şeirlərdə obrazlar eyni vaxtda sanki iki müxtəlif məzmun strukturda mövcud ola bilirlər:

- **Ümumanlaşıqlı səviyyəyə məxsus poetik məzmun strukturu;**
- **Mistik yaşantını əks etdirən fəlsəfi məzmun strukturu.**

Bu strukturlar arasında əlaqələndirici həlqə rolunda isə simvol çıxış edir. **Sufi şeirində simvolun qüdrəti mistik yaşantıdan alınan təəssürat barədə maksimum təsəvvür oyatmaq səciyyəsində ifadə olunur.**

Mənanın simvollar vasitəsilə daxili planda gizlədilməsi ilə sufi şeirinin özü kainatın simvolik modelinə çevrilir. Təsəvvüfün təqdim etdiyi antoloji modelə görə, Allah gizli universumu bu dünyada şəkillər və surətlər vasitəsilə insanların gözündən gizlətmişdir. Bu aləmdə surətlər mənalara qalib gəlmiş, məna surətlərin içərisində qeyb olmuşdur. Sufi şeirinə bu kontekstdən yanaşdıqda şeir öz arxitektonikası

etibarilə makroaləmi əks etdirən rəmzə çevrilir. Buradaca sözün yaradıcı funksiyası yada düşür. Makroaləmin özünün "kun" sözündən yaranması haqqındakı kreatsionist nəzəriyyə ilə poetik sözün "fəna"nın rəmzi olan ağzın möcüzəsi kimi meydana çıxması fikri arasındakı analogiya da, şübhəsiz, təsadüfün nəticəsi deyil. Əlbəttə, Şərq poeziyasında bədii sözə ilahi münasibət ümumən poetik təfəkkürün dini səciyyəsindən qaynaqlanırdı [30, s. 126].

Təsəvvüflə poeziyanın qarşılıqlı münasibəti növbəti üçüncü mərhələdə sufi ideyanın özünü sənətdə estetik dərki kimi meydana çıxır. Poeziyanın sufi ideyanın ifadəsi olmaqdan tədricən uzaqlaşması dini məzmundan tamamilə imtina demək deyildi. Bəlkə, əksinə, sənətin dinlə yeni formada bərabərhüquqlu əlaqəsi idi. Əsrdən-əsrə sufi ideya poeziyada estetikliyə doğru inkişaf edir. Artıq XII-XIII əsrlərdən etibarən təsəvvüfün nəzəri əsasları da daha çox simvolik istiqamətdə şərh edilməyə başlayır. "Sufilər dünyanı bir kölgə, etibarsız, dəyişkən sayırlarsa, irfançı mütəfəkkirlər onu həyat və bilik məktəbi, elm xəzinəsi, böyük sirrlər aləmi bilirlər" [31, s. 36]. Təsəvvüfün nəzəri əsaslarının müəllifin qeyd etdiyi istiqamətdə inkişafı sufi ideyanı poeziyaya estetik özünüdərk aktı kimi müraciət etməyə gətirib çıxaran əsas səbəblərdən biridir.

**Estetik baxımdan büllurlaşmış təsəvvüfi poeziyada dünyanın estetik qavramı ilə sufi düşüncə tərzi hər ikisi əvvəllər onların birləşməsinə mane olan amildən (təsəvvüf ehkamçılıqdan, poeziya isə məişət zəmininə enməkdən) imtina edir. Nəticədə bunaqədərki sufi şeirinin poetik və sufi məzmunu arasındakı sərhədlər aradan qalxır, fəlsəfi poeziyadan fərqli olaraq estetik baxımdan büllurlaşmış təsəvvüfi poeziya məzmunca yekcins xarakter kəsb edir. Ərəb poeziyasında İbn əl-Fəridin, fars poeziyasında Hafizin, türk poeziyasında Füzulinin təmsil etdiyi poetik zirvə məhz bu cəhətləri**

**ilə özünəməxsusluq təşkil edir. Bu tipli əsərlərdə bədii formanın mükəmməlliyi dini məzmunu inkar etmir və ya əksinə. Bu poeziyada dini-fəlsəfi məzmun və poetik mükəmməllik bir-birinin tamamlayıcısına çevrilir.**

# II FƏSİL

# TÜRK-İSLAM MƏDƏNİYYƏTİNİN TƏŞƏKKÜLÜ VƏ TƏSƏVVÜF

# II FƏSİL

# TÜRK-İSLAM MƏDƏNİYYƏTİNİN TƏŞƏKKÜLÜ VƏ TƏSƏVVÜF

## Türk-islam mədəniyyətinin təşəkkülü prosesində şamançılıq və təsəvvüf münasibətləri

İslamın türklər arasında yayılması ilə əlaqədar olaraq türk-islam mədəniyyətinin təşəkkülü prosesi, bu prosesə təsir edən amillər, qədim türk mədəniyyətindən türk-islam mədəniyyətinə keçidin daxili mexanizmi və s. son dövr Azərbaycan filoloji fikrinin diqqət mərkəzinə çəkdiyi problemlərdəndir.

Qədim türk sivilizasiyasının müsəlman mədəni regionunun aparıcı tərkib hissələrindən birinə çevrilməsi mürəkkəb proses olmuşdur. Bu mürəkkəbliyi xarakterizə edən başlıca cəhət şamançılıq-magiya-əfsun, tanrıçılıq-ibtidai monoteizm görüşləri bazası əsasında inkişaf edən qədim türk mədəniyyətinin şaxələnmə prosesi ilə İslam mədəniyyətinin türk sivilizasiyasına kənardan "müdaxilə"sinin eyni dövrə düşməsində idi.

IX-XII əsrlər türk etnik-mədəni regionunda yuxarıda haqqında söz açdığımız qlobal prosesləri izləmək XIII-XVI əsrlər Azərbaycan təsəvvüf ədəbiyyatının türklük miqyasında genetik kontekstini müəyyənləşdirməklə yanaşı, Azərbaycan sovet ədəbiyyatşünaslığında tədqiqatdan kənarda qalmış, ən yaxşı halda ögey, yad areallarda tədqi-

qinə cəhd göstərilmiş milli ədəbi fikrimizin genezisini aydınlaşdırmaq baxımından da əhəmiyyətlidir. Azərbaycan ədəbiyyatı tarixini "orta əsrlərin ortalarından" fars dilində yazıb-yaradan şairlərlə başlamaq kimi yanlışlıqdan yaxa qurtarmağın vaxtı da çoxdan gəlib çatıbdır.

Türkologiyada sabitləşmiş qənaətə görə, IX-XI əsrlərdə üç mühüm türk etnik-mədəni regionu formalaşır: Mərkəzi Asiya, Qafqaz - Kiçik Asiya, Ural-Volqaboyu regionları [32, s. 284]. İslamın türklər arasında genişləndiyi əsrlərdə formalaşmaqda olan bu etnik-mədəni regionların hər biri VI əsrdən IX əsrəqədərki dövrü əhatə edən müştərək mədəniyyətin bətnindən doğulmuşdu [3, s. 8]. Türk mədəniyyətində ilkin inteqrasiya əlamətlərinin üzə çıxdığı IX-XI əsrlərə qədər türklük bütün varlığını - ibtidai fəlsəfi görüşlərini, ictimai həyata baxışını, etnik keyfiyyətlərini, estetik duyumunu eposlarda əyaniləşdirmişdi.

"Alp Ər Tonqa", "Oğuz xaqan", "Boz qurd", "Köç" və s. qədim türk dastanları islamaqədərki türk təfəkkürünü özündə əks etdirən əsas ədəbi abidələrdir. Qədim türk dastanlarının yarandığı dövrdə, dünyanın bir çox xalqlarında olduğu kimi, türklük miqyasında da bədii təfəkkür xüsusi avtonomluq kəsb etməmişdir. Başqa sözlə, islamaqədərki türkün dünyaya poetik baxışı onun (dünyanın) magik qavranışının adekvat əksi idi. Magiya və mistikanın mif, mifin isə dünyanın illüzyonist dərki hesab olunan materialist sovet dinşünaslığında qədim dünya xalqlarının dünyagörüşündəki magiya, mistika, din, mif elementləri arasındakı fərq materialist meyarlar əsasında müəyyənləşdirilir [34, s. 226]. Əslində isə bu anlayışlar arasında çox əsaslı keyfiyyət fərqi olduğundan terminlərdə dəqiqləşmə aparılmalıdır.

Qədim türk dünyaduyumunun özülündə dayanan şamançılıq görüşlərinin magik xarakteri bu baza əsasında yaranan ədəbiyyatın da xarakterini şərtləndirirdi. İslamaqədərki türk

ədəbiyyatının əsas yaradıcıları olan ozanlar da sənətkar olmaqdan daha çox şamançılıq görüşlərinin əsas yayıcıları və daşıyıcıları idi. Türk ictimai mühitində ozanın toxunulmazlıq statusu da sənətkar olmaqdan deyil, ruhlar aləmi ilə əlaqəyə girməkdən dolayı formalaşmışdır [35, s. 109].

Əgər ozanlar bir tərəfdən xalqın bədii tələbatının əsas təminediciləri idisə (qədim qəhrəmanlar haqqında əfsanələr danışmaq, milli dastanlar yaratmaq, türk həyatı üçün önəmli hadisələr barədə türkülər qoşmaq və s.), digər tərəfdən də ruhi-mənəvi müşküllərin əsas həllediciləri idi [6, s. 11]. Ozanların qədim türk həyatındakı bu ikili missiyası magik və bədii düşüncə tərzlərinin bir-birindən ayrıldığı dövrlərə qədər davam edir. Türk mədəni mühitində bu ayrılma prosesi yeni dinin yaratdığı mənəvi atmosferdə daha da sürətlənməyə başlayır.

Türk sivilizasiyasının müsəlmanlaşması prosesi ilk əvvəl Qaraxanlı mədəniyyəti daxilində baş verir. Eramızın VIII əsrində Əmir Küteybənin rəhbərliyi altında İslam orduları türk ellərinə daxil olur. İslam orduları türklərə ilk dəfə Qafqazda xəzərlərlə, Xorasan üzərində göy türklərlə üz-üzə gəlirlər. İslam tarixində dünyəvi dəyərlərə üstünlük verməsi, ədalətsizlikləri ilə məşhur Əməvilərin türk ellərinə hücumlarının əsasında hərbi-siyasi maraqlar dayanırdı. Ərəblərin gəlişi türklər üçün hər şeydən əvvəl "yağı düşmən" gəlişi idi. Məhz bunun da nəticəsində türklər ərəb ordularına qarşı güclü müqavimət göstərdilər.

X əsrdə Qaraxanlı Hökmdarı Satuk Buğra xanın İslam dinini qəbul etməsi, yeni dini dövlətin rəsmi ideologiyasına çevirməsi türk xalqları tarixində dönüş nöqtəsi yaratdı. "İlk böyük Türk - İslam dövlətini quran qaraxanlılar islami Türk mədəniyyət, sənət və ədəbiyyatının da ilk nümunələrini yaratdılar" [36, s. 10].

İslam əxlaqı və təsəvvüf fəlsəfəsi ilə türkün islamaqədərki inanc və əxlaqındakı ümumi cəhətlər İslamın türk-

lük tərəfindən mənimsənilməsində böyük rol oynamışdır. Qədim türk epos təfəkkürünün müxtəlif abidələrdəki təzahürləri göstərir ki, tanrıçılıq kimi səciyyələndirilən türklərin qədim dini monoteist xarakterli olmuşdur. Orxon abidələri üzərində bu aspektdən müşahidələr qədim türklərin fövqəltəbii qüvvənin – Tanrının xarakteri barədə təsəvvürlərinin müsəlmanın Allah barədəki təsəvvürlərindən prinsip etibarilə bir o qədər də fərqlənmədiyini sübut edir. Orxon abidələrindən Gültəkinin şərəfinə yazılmış kiçik mətndə "Tanrının hökmü ilə özümün bəxtim olduğuna görə xaqan (lıq taxtına) oturdum", yaxud böyük mətndə "türk xalqı yox olmasın deyə, (azad) xalq olsun deyə babam İltəriş xaqanı, anam İlbikə Xatunu Tanrı yuxarıdan idarə edərək yüksəltmişdir" kimi fövqəladə qüvvəyə sonsuz inamdan xəbər verən cümlələrin nəzərə çarpacaq aktivliyi tanrıçılığın monoteist din kimi qiymətləndirilməsi üçün kifayət qədər əsas verir.

İslam inancı ilə türklərin islamaqədərki inanc sistemi arasında ümumi cəhətlər nə qədər çox olsa da, hər iki inanc və əxlaq sistemi arasındakı ziddiyyətli cəhətlər də istisna deyil. Türklük və İslam arasında ziddiyyət istər həyat tərzi, istərsə də inanc sistemində özünü büruzə verirdi [37, s. 231]. Türkün həyat tərzi ilə islami həyat tərzi arasındakı ziddiyyət özünü oturaqlıq və köçərilikdə, inanc sistemindəki ziddiyyət isə tanrıçılıqla bərabər türklər arasında geniş yayılmış şamançılıq görüşlərinin magik xarakteri ilə son dinin monoteist səciyyəsi arasında idi. Bütün bu ziddiyyətlərin bir-birinə qarşılıqlı güzəştə getmə hesabına vahid məxrəcə gəlişi türklük miqyasında ilk əvvəl Qaraxanlı mədəniyyəti daxilində İslam adından təsəvvüfün fəal iştirakı ilə baş verir.

İslamaqədərki türk etnik-mədəni sisteminin arasında dayanmış, qədim türk ədəbiyyatının yaranmasında tanrıçılıqla bərabər mifik-mənəvi potensiya funksiyasını yerinə

yetirmiş şamançılıqla erkən türk-islam mədəniyyətinin ideya bazası olan təsəvvüf arasında nə kimi oxşarlıq və fərqlilik mövcud idi? İbn Ərəbinin təbirincə desək, ilahi manifestasiyanın şamançılıqdakı təzahürü təsəvvüfdən nə ilə fərqlənirdi? Əhməd Yəsəvi yaradıcılığı timsalında qədim türk ədəbiyyatından türk-islam mədəniyyətinə keçidi bütün aydınlığı ilə başa düşmək bu suallara verilən cavablardan asılıdır.

Son dövrlərdə şamançılıq barədə belə bir qənaət daha yəqinliklə hasil olmağa başlayır ki, dünyanın ən qədim və geniş yayılmış bu ibtidai təlimi magik təsəvvürlərin məcmusu, eyni zamanda magik təsirgöstərmənin praktikası olmuşdur [40, s. 161]. Bu o deməkdir ki, şamançılıq ibtidai insanın ətraf aləmlə təmasının yaratdığı qorxu təxəyyülündən deyil, əksinə, fövqəladə bir aləmlə (ruhlar aləmi) əlaqəyə girib ətraf aləmə təsir etmək istəyindən və haradasa ehtiyacından meydana gəlmişdir. Şamançılıq sisteminin magik xarakteri, onun ibtidai monoteist din hesab etməyə daha çox əsasımız olan tanrıçılıqla ziddiyyətlərində də üzə çıxır. Ötən əsrin əvvəllərində Yakutiya, Altay, Türküstan şamanlarından toplanmış əhvalatlarda bu ziddiyyətlərin bəzi izlərinə rast gəlmək mümkündür [41, s. 17].

Şamanizmdən fərqli olaraq, təsəvvüf mistik təlimdir. Onun son qayəsi varlığın əzəli mahiyyəti ilə vasitəsiz kontakta girməkdir (fənafillah) [4, s. 89].

Məzmun etibarilə şamançılıq və təsəvvüf arasında oxşarlıq hər iki təlimin əsasında insanın öz şəxsi cəhdi hesabına fövqəladə aləmlə əlaqəyə girməsindədir. Hər iki sistem arasında zahiri atributlar, rituallar baxımından da yaxınlıq çoxdur. Səma məclisində sürətli templə qeyri-adi hərəkətlər edərək bayılan sufi az qala cübbəsini dəyişmiş şamanın özüdür. Lakin ritualların zahiri oxşarlığı onların məzmun etibarilə tam eyniliyi demək deyil. Şaman rituallları ruhlar aləminə təsir edərək onları qamlamağa (tutma)

xidmət edir [42, s. 105]. Təsəvvüf ritualları isə insanın öz daxili psixikasına təsir etməyə doğru yönəldilir.

Şaman da, sufi də parapsixoloji qabiliyyət və təzahürlər sahibidirlər. Sufilər öz mənəvi saflaşmaları ilə əzəli mahiyyətlə birbaşa kontakta girdiklərindən onlarda ən müxtəlif formalarda kəramətlər zahir olur. Bu kəramətlər sufinin son məqsədə yetişməsinin sönük, zahiri təzahürüdür. Ona görə də, sufi bu qeyri-adi qabiliyyətlərini həyatın heç bir sahəsində gündəlik peşəyə, vərdişə çevirmir. Necə deyərlər, bu, ona heç yaraşmazdı da. Şamançılıqda isə parapsixoloji qabiliyyətlərin özü şamanın nail olmağa çalışdığı son məqsəddir. Şaman praktiki baxımdan falçılıqla məşğul olur, xalqın mənəvi müşküllərinə əlac edir. Buna görə də "şaman - qam soyun, qəbilənin, qəbilə birləşməsinin görən gözünə, düşünən beyninə" (M. Seyidov) çevrilir [43, s. 29]. Təsəvvüf Türküstanda şamançılıqla ilkin görüşündəcə bu qədim sistemin ayin və mərasim rituallarından öz məqsədi naminə faydalana biləcəyini anlayır. Çünki "...tarixi şəraitin ortaya qoyduğu qarşılıqlı güzəşt və faydagötürmə kontekstində sufilər yaşamaq və dirçəlmək imkanı axtaran qam - şaman kompleksinə, o cümlədən də ozan sənətinə, buna qarşılıq olaraq, şamançılıq sisteminin ənənə və təcrübəsi də təriqət, ayin və mərasimlərin təşkil vasitəsi, eləcə də ideya yayıcısı və daşıyıcısı kimi sufiliyə təkan verə bilmək imkanında idi" [35, s. 86].

Magik (şamançılıq) və mistik (təsəvvüf) dünyagörüşləri arasında psixoloji aspektdən digər başlıca bir ümumilik hər ikisinin təhtəlşüurun fəaliyyəti nəticəsində yaranmasıdır. Fövqəladə qüvvələrlə təmasa girmək qabiliyyətində öz təzahürünü tapan təhtəlşüurun ixrac etdiyi müxtəlif təlimlərin xarakterini onun dünyəvi şüurla münasibətləri şərtləndirir. "İnsan güc alır və onu hara sərf etmək lazım olduğunu bilmir. Şüur isə təhtəlşüura öz iradəsini diktə edir. Bununla da magiya başlayır" [44, s. 325].

Mistik təhtəlşüuri fəaliyyətdə isə təhtəlşüur şüurun üzərində tam hakim olur, onun heç bir diqtəsini qəbul etmir. Necə deyərlər, bədən ruha tabe etdirilir.

Haqqında danışdığımız prosesi izləmək üçün "Kitabi-Dədə Qorqud" dastanında Dədə Qorqud obrazının deformativ xarakteri maraqlı müşahidələr üçün əvəzsiz imkan yaradır. Dastanda "Oğuzun ol kişi tamam bilicisiydi. Nə dersə olardı, qayibdən dürlü xəbər söylərdi", – kimi cümlələr magik, "Həq-təala onun könlünə ilham edərdi" [45, s. 36] ifadəsi isə sırf irfani məzmun daşıyıb mistik təhtəlşüuri fəaliyyətin göstəricisidir. Bütün dastan boyu Dədə Qorqud obrazında ali qam keyfiyyətləri ilə dini mistik səciyyənin paralelliyini izləmək mümkündür.

İslama qədər türk təhtəlşüuru ictimai həyatın bütün sahələrinə təsir edə biləcək səviyyədə açıq idi. Ozanın türk ictimai həyatındakı yüksək nüfuzu bunun bariz göstəricisidir.

## Təsəvvüfün türk-islam mədəniyyətinin təşəkkülündə rolu: Seyid Əhməd Yəsəvi və Yunis İmrə

Qaraxanlı dövrünə aid ən məşhur ədəbi abidələr kimi, əsasən,Yusif Xas Hacibin "Qutadqu bilik", Mahmud Kaşğarlının "Divani-lüğət-it-türk", Ədib Əhməd Yüqnəkinin "Ətəbət ül-həqayiq", Əhməd Yəsəvinin "Divani-hikmət" əsərlərinin adı çəkilir.

İslamdan sonrakı Türk ədəbiyyatının bu abidələri türk-islam mədəniyyətinin təşəkkül mərhələsinin müəyyən səciyyəvi cəhətlərini özündə əks etdirir. XI əsrin ikinci yarısında Yusif Xas Hacib tərəfindən qələmə alınmış "Qutadqu bilik" əsəri islami dəyərlərin türklük tərəfindən mənimsənilməsində fars mədəniyyətinin katalizator təsirini göstərmək baxımından maraqlıdır.

Türklər ta qədim dövrdən fars mədəniyyəti ilə sıx əlaqədə olmuşlar. Bu əlaqə İslamın qəbuluna qədər, əsasən, coğrafi amillərlə şərtlənmişdir. Coğrafi baxımdan qonşuluq şəraitində yaşamalarına baxmayaraq, farsın və türkün ayrı-ayrı mənəvi məkanlarda yaşaması İslama qədər hər iki mədəniyyətin bir-birinə təsirini minimum səviyyəyə endirirdi. Artıq İslamın qəbulundan sonra bu qarşılıqlı təsir xeyli sürətlənməyə başlayır. Vahid müsəlman mədəni regionunun formalaşmağa başladığı ilk anlardaca qədim dil və mədəniyyət ənənələri potensiyasına əsaslanan fars mədəniyyəti yeni tarixi şəraitdə də üstünlüyü öz əlinə almağa başlayır. Elə bunun da nəticəsində türkün yeni tarixi şəraitdə ilk böyük abidəsi olan "Qutadqu bilik" əsəri "Şahnamə"nin vəznində qələmə alınır ("Qutadqu bilik"dəki 173

türk xalq mətnləri istisna olmaq şərtilə). "Qutadqu bilik" əsərində fars təsiri əsərin yalnız vəznində - formasında deyil, mövzusunda da özünü bariz şəkildə göstərir. Türk-islam mədəniyyətinin təşəkkülü mərhələsində formalaşmaqda olan islami türk mədəniyyətinə fars təsirini yalnız farsların mədəni potensial imkanları ilə əlaqələndirmək də doğru deyil. Yeni dinin ictimai-siyasi hadisələrdən dolayı marşrut xəttinin özü fars mədəniyyətini İslam və türklük arasında körpü funksiyası yerinə yetirməyə məcbur etmişdir. "Türklər İslamiyyətin bir çox ünsürlərini birbaşa ərəblərdən deyil, əcəmlərdən aldılar. İslam mədəniyyəti türklərə İran kültürünün mərkəzi olan Xorasan yolu ilə Mavəraünnəhrdən keçərək gəlirdi" [6, s. 21].

"Qutadqu bilik" əsəri məzmun etibarilə dünyaya, ictimai həyata müsəlman əxlaqı kontekstindən münasibət göstərməsi baxımından İslam mədəniyyəti nümunəsi kimi ucalır. Orta Asiya etnik-mədəni regionu hadisəsi olan "Qutadqu bilik" əsərinin türk-islam mədəniyyətinin təşəkkülündəki rolu islamın dəyərlərinin yuxarı təbəqə arasında yayılmasına xidmət etməsində idi.

Eyni missiyanın həyata keçirilməsinə Əhməd Yüqnəki də "Ətəbət ül-həqayiq" əsəri ilə xeyli kömək edir. Lakin istər "Qutadqu bilik", istərsə də "Ətəbət ül-həqayiq" əsərləri islami dəyərlərin xalqın aşağı təbəqələri tərəfindən mənimsənilməsi kimi vacib bir missiyanı yerinə yetirə bilmirdi. Bu missiyanı türkün başqa bir seçilmişi, "piri-Türküstan" Əhməd Yəsəvi yerinə yetirdi.

Hər bir xalqın, etnosun tarixində elə şəxsiyyətlər olur ki, müəyyən tarixi şəraitin həmin xalq, etnos qarşısında həyata keçirilməsi vacib bir missiya kimi qoyduğu nəhəng proqramı o şəxsiyyət öz üzərinə götürür, bir xalqın istər ictimai-siyasi, istərsə də mədəniyyət tarixində evolyusiyanı böyük bir sıçrayışla irəliyə doğru aparır. Türk mədəniyyəti tarixində belə bir missiyanı Əhməd Yəsəvi yerinə ye-

tirmişdir. "Yəsəvi - vahid türklüyəqədərki dövrün son və vahid türk-islam mədəniyyətinin ilk böyük şair-ideoloqu oldu və məhz bu mənada böyük türk (İslam!) Renessansının hazırlanmasında "Dante işi" görmək onun qismətinə düşdü" [11, s. 139].

Yəsəvinin yaratdığı təriqət ilə İslam mənəviyyatı və əxlaqı təsəvvüfi çalarda türkün canına-qanına hopub ondan ayrılmaz hala gəlir. Eyni zamanda "Divani-hikmət" əsəri ilə təsəvvüfi türk ədəbiyyatının təməli qoyulur. Sonralar Yunus İmrənin, Nəsiminin və ən nəhayət, Füzulinin simasında yüksək poetiklik və dərin irfanilik kəsb edərək müsəlman mədəniyyətinin, sənətinin aparıcı təmayülünə çevrilən təsəvvüfi türk ədəbiyyatı ilk əvvəl bu təməl üzərində ucalır. Əgər Türküstanda İslamın rəsmi dövlət dininə çevrilməsi Satuk Buğra xanın adı ilə bağlıdırsa, son dinin türk mənəviyyatında rəsmiləşməsi isə Əhməd Yəsəvinin adı ilə bağlıdır.

Geniş mənada təsəvvüf Türküstanda iki böyük missiya yerinə yetirmişdi: bir tərəfdən rəsmi İslam təmsilçiliyini öz üzərinə götürərək türklərin İslamı qəbulunda misilsiz rol oynamış [38, s. 45], digər tərəfdən türk-islam mədəniyyətinin təşəkkülü mərhələsində şeirin, sənətin, musiqinin ideya bazasını təşkil etmişdir.

Türklərin İslamı qəbulunda təsəvvüfün rolu rəsmi İslamın dinlərə münasibəti ilə təsəvvüfün münasibəti arasında fərqlə bağlı idi. İslam dini tədricən müxtəlif xalqlar arasında genişləndikcə müsəlman ərəblər dini təcrübənin müxtəlifliyi faktı ilə üz-üzə gəlir, istər-istəməz bu dinlə münasibətlərini müəyyənləşdirmək məcburiyyətində qalırdılar. Heç şübhəsiz, bu müəyyənləşdirmədə meyar və prinsip kimi Quran və Sünnə əsas götürülürdü. Bu prinsiplərə əsaslanan ərəblərin başqa dinlərə münasibəti isə "kitablı və kitabsız" dinlər sxeminə sığışdırılırdı. Bu isə yeni dinin müvəffəqiyyətlə nəşrinə bəzən mane olurdu.

Rəsmi İslam nümayəndələrinin (əsasən, sərkərdələrin) müxtəlif xalqların, o cümlədən də türklərin dini-əxlaqi dünyagörüşünə qarşı radikal münasibəti yerli əhalinin milli təəssüb hissini qabardırdı.

Dini təcrübənin müxtəlifliyinə sufilərin münasibəti isə tamamilə başqa idi. Əgər rəsmi İslam nümayəndələri dini təcrübənin müxtəlifliyinə münasibətdə Quran və Sünnəyə əsaslanırdılarsa, müsəlman mistikləri bu problemi də öz dünyagörüşlərinə uyğun şəkildə vəhdəti-vücud kontekstində şərh edirdilər. Həllac Mənsur dini təcrübə müxtəlifliyinə münasibətini aşağıdakı kimi ifadə edirdi:

*Mən bütün dinlər üzərində dərindən düşünüb anladım ki,*
*Onlar vahid kökün çoxlu sayda budaqlarıdır.*
*İnsandan tələb etmə ki, o, müəyyən bir dinə etiqad etsin.*
*Çünki bu zaman o möhkəm (bağlandığı) kökündən ayrılır.*

Həllac Mənsurun dinlərə bu münasibəti sonralar Söhrəverdi və İbn Ərəbi tərəfindən daha da dərinləşdirilir. İbn Ərəbiyə görə, səcdənin istənilən obyektində ilahi reallığın hansısa bir aspekti mövcuddur. Buna görə də istənilən inam səcdə obyektinin ilahi mahiyyətinə ünvanlanır. İbn Ərəbinin bu təlimi sufiliyin sonrakı inkişafına böyük təsir göstərir və sufi mütəfəkkirləri tərəfindən ən müxtəlif formalarda inkişaf etdirilir.

Artıq ilkin ərəb sufilərində dini təcrübənin vahidliyi konsepsiyası təsəvvüfün başqa dinlərə münasibətinin əsas istiqamətini müəyyənləşdirirdi. Sufi dünyagörüşünün bu aspekti müsəlman mistisizminə ümumdünya mənəvi prosesləri kontekstində xüsusi əhəmiyyət kəsb etdirmiş, eyni zamanda müxtəlif xalqlar tərəfindən rəğbətlə qarşılanmasına səbəb olmuşdur [39, s. 34]. Ərəb mistisizminin, eləcə

də İslamın ümumtürk məkanında genişlənməsində və möhkəmlənməsində dini təcrübələrin vahidliyi konsepsiyasının az rolu olmamışdır. Artıq X əsrdən etibarən qədim İran ənənələrini köksündə yaşadan Xorasan təsəvvüf cərəyanının əsas mərkəzlərindən birinə çevrilir [6, s. 18]. Əhməd Yəsəviyə qədər Buxara, Fərqanə kimi şəhərlərə gələn sufi dərvişləri öz dünyagörüşlərində dini təcrübənin vahidliyi konsepsiyasını da özləri ilə bərabər buraya gətirir və rəsmi dindarlardan fərqli olaraq yerli əhalinin dini dünyagörüşlərinə də həmin konsepsiyadan çıxış edərək yanaşırlar. Bu isə İslamın təsəvvüfi çalarda türklər arasında yayılmasında əhəmiyyətli rol oynayır.

Yəsəviliyin - türk təsəvvüfünün şamançılıq görüşləri bazası üzərində yüksəlişi mövcud düşüncə strukturunun magik təhtəlşüurun əlindən alınıb dini doqmalara tabe etdirilməsi idi.

Artıq buradaca türk təriqəti Yəsəviliyin özünəməxsus xarakterini müəyyənləşdirmək lazımdır. Yəsəvilik əksər sufi təriqətlərindən dini tendensiyanın üstünlüyü ilə fərqlənir.

Bu xüsusiyyəti "Divani-hikmət" əsərində də açıqca sezmək olur. Əhməd Yəsəvi İslam qurucusu Həzrəti Məhəmmədin şəriətinə dərindən bağlı bir mömindir:

*Təriqətə şəriətsiz girənlərin*
*Şeytan gəlib imanını alır imiş.* [46, s. 217]

Şair adi bir mömin kimi qiyamət qorxusundan titrədiyini bildirir:

*Qiyamətin şiddətindən ağlım heyran,*
*Könlüm qorxar, canım əsir, evim viran.*
*Sirat adlı körpüsündən könlüm lərzan*
*Ağlım gedib, şaşqın olub qaldım, dostlar.* [46, s. 81]

Ənənəvi müsəlman mömininə məxsus hisslərin, düşüncələrin təqdimi "Divani-hikmət"in əsas ideya istiqamətlərini təşkil edir:

*Bəndə neçə yaş yaşasa, ölməsi var,*
*Görən gözə bir gün topraq dolması var,*
*Bu dünyaya səfər qılanın gəlməsi var,*
*Axirətə səfər qılan gəlməz imiş.* [46, s. 231]

Yəsəvinin yuxarıdakı hikmətləri həyat və ölüm, bu iki qütb arasındakı insan və onun məqsədi haqqında ən sadə, eyni zamanda ən böyük və əbədi həqiqətlərdir.

Bütün zamanların fövqündə dayanan ali həqiqəti isə həmişə dini dünyagörüş deyir.

Dini ehkamların üstünlüyünü Yəsəviliyin ana sütunları da sübut edir.

Müxtəlif mənbələrə əsaslansaq, ("Divani-hikmət", müəlifi Əhməd Yəsəvi olduğu güman edilən "Fəqrnamə", Yəsəvi dərvişi Hazininin "Cəvahirül-əbrar min əmvacil bihar") Yəsəviyyə təriqətinin əsas sütunları aşağıdakılardır:

**1. Tövhidi əsas götürən təsəvvüf anlayışı;**

**2. Şəriətə və həz. Peyğəmbərin sünnətinə mütləq bağlılıq;**

**3. Şəriətə əsaslanan təriqət;**

**4. Riyazət və mücahidə;**

**5. Xəlvət və zikr.**

Əhməd Yəsəvi haradasa ilahi bir fəhmlə özünün türklük miqyasında böyük tarixi missiyasını dərk edirdi: bəşər miqyasında peyğəmbərin gördüyü işi türklük miqyasında davam etdirmək və həyata keçirmək... Bu böyük missiyanın həyata keçirilməsində isə ən doğru yolu, əlbəttə ki, dinin diqtəsi müəyyənləşdirirdi. Lazarevin qeyd etdiyi kimi: "Əgər mistik cərəyanda dini tendensiya qalib gəlirsə, bu, ona sonrakı inkişafda da yaşamaq şansı verir. Əgər elmilik

qalib gəlirsə, qəlbi fiziki məhvə qədər tənəzzülə aparıb çıxarır" [44, s. 302].

Bu müddəa Əhməd Yəsəvi yaradıcılığı timsalında öz doğruluğunun təsdiqini tapır. Səkkiz yüz ildir ki, Yəsəvi hikmətləri ən sadə, ali həqiqətləri ilə türk-islam mənəvi məkanının təşəkkülündə, inkişafında, möhkəmlənməsində intensiv iştirak etmiş və bu gün də iştirak etməkdədir.

**Təsəvvüf mistik bir təlim kimi dini doqmatizmlə elmi praqmatizmi özündə birləşdirən fikir cərəyanıdır. Onun çeşid-çeşid qolları dini doqmaları elmi cəhətdən şərh etmək cəhdindən meydana gəlmişdir. Yəsəviliyi dini doqmatizmdən fərqləndirən cəhət tövhidi eşq ilə dərk etməyə çağırış, elmi praqmatizmdən ayıran xüsusiyyət isə aşiqliyi şəriət çərçivəsində məhdudlaşdırmaqdır** (Aşiqliyin şəriət çərçivəsi hüdudlarını aşıb keçməsi təsəvvüfün sonrakı inkişafına aiddir). "İdrakın yəsəviyyə yolu müqəddəslik yoludur və mistik "yol" olmaqdan daha çox türklərin qədim dinini sıxışdırıb aradan çıxarmış dini praktikadır"- deyən Triminqem də Yəsəviyyə təriqətinin bu cəhətini ayırıb fərqləndirir [47, s. 58].

"Divani-hikmət" əsəri eşqin divanıdır. Yəsəvidə mistik-təsəvvüfi tendensiya divanın ilahi-aşiqanə şeirlərində əyaniləşir. Ona görə də bu şeirlərin şərhi elə şair Yəsəvini vaiz, təriqət piri Yəsəvidən ayırmağa xidmət edir. Əhməd Yəsəvinin şərhində eşq Allahla vəhdət hissidir. Onun "aşiqanə" şeirlərində belə bir fikir süzülüb çıxır ki, insan qəlbində məhəbbət nə qədər çoxdursa, o, Allaha bir o qədər yaxındır. Eşq insanın Allaha yaxınlıq dərəcəsinin etalonu və göstəricisidir. Bu hissdən tamamilə məhrumluq isə insanda insanlığın sonu kimi dərk və təqdim olunur:

*Dərdsiz insan insan deyil, bunu anla,*
*Eşqsiz insan heyvan cinsi, bunu dinlə,*
*Könlünüzdə eşq olmasa, bana ağla,*
*Ağlayanlara xas eşqimi bağışladım.* [46, s. 127]

Eşq Yəsəvidə ilahi ekstazın mənbəyi, eyni zamanda Allaha qovuşmaq naminə ekstaza çatmağın vasitəsidir:

*Eşqin qıldı şeyda məni, cümlə aləm bildi məni,*
*Qayğım sənsən dünü günü, bana sən gərəksən, sən.*
[46, s. 321]

Şairin ilahi dərgaha ünvanlanmış ən müqəddəs duası da eşq istəyi ilə bağlıdır:

*Eşq yolunda yox olayım, bir və Varım:*
*Hər nə qılsan aşiq qıl sən, pərvərdigar.*
*Əl açaraq dua qılayım, rəbbim cabbar.*
*Hər nə qılsan aşiq qıl sən, pərvərdigar.* [46, s. 155]

Məhz alimdən, sufidən, cahildən, aqildən, vaizdən fərqlənən Yəsəvi pərvərdigarın aşiq qıldığı aşiqi-kamildir:

*Alimlərə kitab gərək, sufilərə məscid gərək,*
*Məcnunlara Leyla gərək, mənə sən gərəksən, sən.*
*Qafillərə dünya gərək, aqillərə üqba gərək,*
*Vaizlərə minbər gərək, mənə sən gərəksən, sən.*
[46, s. 321]

Aşiqlik Yəsəvi şeirində ilahiyə və dünyəviyə bölünməmiş mərhələsindədir. Onun mənbəyi də, ünvanlandığı, istiqamətləndiyi son məqsəd də Allahdır. Şair nə məhəbbət hissinin onda doğurduğu emosional ovqatı, nə də simvolik məşuq obrazını təsvir edir. Eşqin ilahi bir nemət kimi sufiyanə planda təsviri, dəyərləndirilməsi, bu yöndəcə təbliği Əhməd Yəsəvidə daha qabarıqdır. Bu, təriqət pirinin müridlərinə verdiyi eşq dərsləridir:

*Zahid olma, abid olma, aşiq ol sən,*
*Möhnət çəkib eşq yolunda sadiq ol sən,*
*Nəfsi yenib dərgahına layiq ol sən*
*Eşqsizlərin həm canı yox, imanı yox.* [46, s. 115]

Beləliklə, "Divani-hikmət"də aşiqlik, bir tərəfdən mis-

tik aşiqin daxili yaşantıları, digər tərəfdən təriqət pirinin bu hiss barədə şərhi kimi əyaniləşir. Lakin birinci istiqamət həmişə təriqətin ümumi prinsipləri ilə şərtlənərək dini doqmaların diqtəsi ilə məhdudlaşdırılır:

*Eşq sirrini hər namərdə demək olmaz,*
*Necə yaxsan, rüzgarlı yerdə çıraq yanmaz.* [46, s. 251]

Əhməd Yəsəvi təsəvvüfü əcəm vasitəsilə Türküstana gətirirdi. Əcəmdə isə Firdovsidən sonrakı bədii fikir təsəvvüfün cazibə dairəsində inkişaf etməyə başlayır. Şeyx Əbu Səid ibn Əbu Xeyr ilk təsəvvüfi rübailər yazır... XII əsrdə isə Hakim Sənai və Fəridəddin Əttar İran ədəbiyyatında böyük mütəsəvviflər dövrünü açır. Professional səviyyədə təsəvvüfi mənzumələr yazmaq ənənəsi Yəsəvinin dərindən bağlı olduğu əcəm ədəbiyyatında olduğu halda, o, yeni dini-fəlsəfi ideyaların ifadə edilməsi baxımından cilalı, çevik olmayan türk dilinə müraciət edir, bilərəkdən professional səviyyədən kütləvi zövqə enir. Çünki "rüzgarlı yerdə çıraq yandırmaq" missiyasının həyata keçirilməsinə yalnız bu yolla nail olmaq olardı. "Beləliklə, bir ideoloq, mütəfəkkir və şair kimi Seyid Əhməd Yəsəvinin ağıl və könül gücü onda oldu ki, o, təsəvvüflə təsəvvüfəqədərki türkün ruhu, dünyagörüşü, məişəti, həyat tərzi arasında fitri, təbii ahəngi də tuta bildi: ona yalnız milli (qövmi) təfəkkür yox, həm milli dil, milli üslub, forma, vəzn biçimi verdi" [11, s. 131].

"Divani-hikmət" əsəri özündən sonrakı bütün təsəvvüfi türk ədəbiyyatının genetik proqramıdır. Yəsəvi ən ümumi şəkildə bütün türklük miqyasında gələcək ədəbiyyatın, sənətin eskizini cızır. Və sonrakı bütün türk təsəvvüf ədəbiyyatı onun proqnozlaşdırdığı istiqamətlər əsasından inkişaf edir. Əhməd Yəsəvinin dini, ədəbi təsiri Qıpçaq, Türkmən, Azəri, Qərb türkləri (Anadolu) olmaq etibarilə dörd böyük bölgədə yayılmışdır.

XIII əsrdə Yəsəviyyə ideyaları səyyah dərvişlər vasitə-

silə Anadolu ərazisində yayılmağa başlayır. Hacı Bəktaş Vəli və Sarı Saltuq kimi ünlü mütəsəvviflər Yəsəviyyə ideyalarının Anadoluda genişlənib möhkəmlənməsində böyük könül və ağıl şücaətləri göstərirdilər. Qərb türkləri arasında Əhməd Yəsəvinin ən böyük varisi isə heç şübhəsiz, bütün poeziyasının mayası səmimiyyətdən yoğrulan Yunus İmrədir.

Əhməd Yəsəvi ilə Yunus İmrə arasında irs-varis əlaqələri "Divan"ın o hikmətlərində əyaniləşir ki, həmin hikmətlər Əhməd Yəsəvinin ümumi yaradıcılığı kontekstində ən dərin səmimiyyət və bundan dolayı yüksək poetiklik kəsb edir. Yəsəvi bütün təbliği missiyanı bir tərəfə atıb, poeziyanı qəlbinin ən munis hisslərini özündə ifadə edən duaya çevirdiyi anlarda

*Fəda olsa sənə canım,*
*Tökər olsan mənim qanım,*
*Mən qulunam, sən sultanım,*
*Mənə sən gərəksən, sən –* [46, s. 321]

kimi axıcı, poetik baxımdan mükəmməl nümunə verir. Yunus İmrə də eyni məqamda deyir:

*Əgər məni qovuralar,*
*Külüm göyə sovuralar,*
*Məzarımdan çağıralar*
*Mənə səni gərək, səni.* [29, s. 28]

Yəsəvi ilə Yunus İmrə poeziyası arasındakı irs-varis əlaqələrini çox şeydə izləmək olar: ilk növbədə, hər iki şairin eyni ilahi idealın ifadəsinə xidmət etməsində. Lakin belə oxşarlıq daha çox onların mənsub olduqları təsəvvüfün nəzəri-fəlsəfi əsaslarından da qaynaqlana bilərdi. Türküstan piri ilə Anadolu nəğməkarını fərdi özünəməxsusluq baxımından birləşdirən başlıca xüsusiyyət hər iki şairin vüsalın tərənnümçüsü olmalarıdır.

Əhməd Yəsəvi:

*Miskin Xacə Əhməd canı,*
*Həm cövhərdir, həm kanı.*
*Həpsi onun məkanı,*
*O laməkan içində.* [46, s. 305]

Yunus İmrə:

*Mən burda seyrə dalmışkən*
*Əcəb sirrə irdim axı!*
*Gəlin siz də sizdə görün,*
*Dostu məndə gördüm axı!*
*Mən də baxdım, mən də görüm*
*Mənim ilə mən olanı.*
*Varlığıma can verənin*
*Kimliyini bildim axı!* [29, s. 99]

Yəsəvidə ilahi vüsaldan dolayı sevinc hissinin tərənnümü yalnız müəyyən ekstatik məqamlarda nəzərə çarpır və dindən gələn ehkamın diqtəsi yaranmaqda olan coşğunluğun qarşısını alır, çılğın qəlb həyəcanları soyuq məntiqə tabe etdirilir. Yunus İmrənin isə bütün poeziyası bu hissin tərənnümündən ibarətdir. Coşğunluq onun yaradıcılığının səciyyəvi cəhəti kimi faktlaşır.

Peyğəmbər həyatına dair əhvalatlar, dörd xəlifənin tərifi, qiyamətin yaxınlaşmasını göstərmək məqsədi ilə yazılmış zahidanə şeirlər, dərvişlərin və dərvişliyin fəzilətləri haqqında mədhiyyələr, İslam əfsanələri, huri və qılmanlar, cənnət və cəhənnəm haqqında rəvayətlər – bütün bunlar "Divani-hikmət"in əsas mövzularını təşkil edib Yəsəvidə dini dünyagörüşün hakim mövqeyindən irəli gəlir.

Yunus İmrə də İslam inancının, şəriət hökmlərinin mütləqliyini qəbul edir. O da Məhəmməd peyğəmbər, onun meracı haqqında ilahilər söyləyir. Lakin məhz bu məqamlarda da onun yaradıcılığına məxsus ekstaz tonu itmir. O, bu mövzulardan da eyni böyük ilham və sevinclə

söz açır. Buna görə də Yunus İmrədə din özü poetikləşir. Poeziya Əhməd Yəsəvi üçün ideyaların təbliği vasitəsi, Yunus üçün isə mistik yaşantıların ifadə vasitəsi idi.

"Fateh bir millətin ruh memarı" olan Yunus İmrə Anadolu türkcəsinin hakim ədəbi dil kimi formalaşmasında əvəzsiz xidmət göstərir. Ayrı-ayrı vaxtlarda Əhməd Fəqih, Səyyad Həmzə, Xoca Dehqani, Gülşəhri, Aşıq Paşa kimi şairlər Anadolu türkcəsini yüksək ədəbi dil səviyyəsinə qaldırmağa cəhd etsələr də, buna bütün gücü ilə də nail ola bilmirdilər. "Yunusun dilində türkcə ən gözəl şəklini almış, ölümsüz bir zəfərə çatmışdır. Dilimizin milli səsini, milli simasını və dühasını o dövrdə ən yaxşı əks etdirən sənətkar odur" (F.K. Teymurdaş).

Əhməd Yəsəvinin Türküstanda başladığı işi (İslam inancını, təsəvvüf ideyalarını xalqın bütün təbəqələrinin ruhuna, beyninə hopdurmaq) Yunus İmrə Anadoluda davam etdirir. Bunun üçün Əhməd Yəsəvi təşkilati qurumun –təriqətin, ona daxil olan müridlərin köməyinə arxalanırdısa, Yunus İmrə ilahi eşqdən bulaq kimi çağlayan könül gücünə, poetik istedadına güvənirdi.

Anadolu Orta Asiyadan fərqli olaraq antik yunan, Roma mədəniyyət ənənələri, erkən xristianlıq görüşləri ilə zəngin idi. Təsəvvüf kimi fəlsəfi təmayyüllü fikir cərəyanının burada genişlənməsi üçün kifayət qədər münbit zəmin mövcud idi. Elə bəlkə də buna görə təsəvvüfün asketlik, zahidlik mərhələsindən vəhdəti-vücudçuluğa keçidi türkün miqyasında Anadolu mütəsəvviflərinin fəaliyyəti nəticəsində baş verir. Türk təsəvvüfündə asketlikdən fəlsəfi yönə doğru inkişaf bu fikir cərəyanının sənətlə, poeziya ilə İslam arasında əlaqələrini daha da möhkəmləndirir.

# III FƏSİL

## XIII-XIV ƏSRLƏR AZƏRBAYCAN BƏDİİ DÜŞÜNCƏ SİSTEMİNİN TƏSƏVVÜF KODU: POETIK FƏLSƏFƏDƏN FƏLSƏFİ POEZİYAYA

# III FƏSİL

## XIII-XIV ƏSRLƏR AZƏRBAYCAN BƏDİİ DÜŞÜNCƏ SİSTEMİNDƏ TƏSƏVVÜF KODU: POETIK FƏLSƏFƏDƏN FƏLSƏFİ POEZİYAYA

XII əsrə qədərki müsəlman mədəniyyəti ərəb, fars və türk xalqlarının mədəni potensiyasının birləşməsi, dini axarda sintezi hesabına yarandığından vahid tipoloji xarakterə malik bu sivilizasiya daxilində həmin milli mədəniyyətlərin avtonomiyası o qədər də nəzərə çarpmırdı. XIII əsrin ortalarından etibarən isə Abbasilər sülaləsinin süqutu ilə əlaqədar olaraq klassik İslam mədəniyyətində ümummüsəlman standartları öz normativliyini tədricən itirir. Məhz bunun da nəticəsində əvvəllər müsəlman mədəniyyəti daxilində milli xarakteri ilə reallaşa bilməyən türk mədəniyyətində avtonomluğa meyl güclənir. Bu dövr Azərbaycan mədəniyyətini də içinə alan oğuz-səlcuq mədəniyyəti təşəkkül tapır [48, s. 6-8], XVI əsrin sonlarına qədər özünün təkamül mərhələsindən keçir. Məhz bu dövr ümumtürk ədəbi dilinin - türkinin Cənub-Qərb təzahürü olan oğuz türkcəsi fars dili ilə yanaşı ədəbi-bədii təfəkkürün əsas ifadə vasitələrindən birinə çevrilir. İzzəddin Həsənoğludan Füzuliyə qədərki türkcə mətnlərdə əyaniləşən poetik təfəkkürün inkişafı fars dilində bu dövr hələ də yaranmaqda davam edən (Mahmud Şəbüstəri, Marağalı Əvhədi, Qasım Ənvər və s.) ədəbiyyatla paralel və qarşılıqlı zənginləşmə şəraitində gedir.

XIII-XVI əsrlərdə istər türkcə, istərsə də farsca yaranan ədəbiyyat qövmi baxımdan bir-birindən nə qədər fərqlənsə də (türkcənin ön plana çıxması və inkişafı oğuzların müsəlman ictimai-siyasi həyatında artan nüfuzunun, Orta Asiya etnik-mədəni regionu ilə əlaqələrin artmasının nəticəsi idisə, farsca şeir ənənəsinin davam etdirilməsi haradasa fərdi sənətkarlıq və ənənə məsələsi idi), ideya-estetik baxımdan eyni bir tipoloji ümumiliyə malik idi. Məhz buna görə də həmin dövrdə türk təfəkkürlü şairin farsca yazdığı əsərlər də türkdilli ədəbiyyatla eyni dərəcədə tədqiqata cəlb edilməli, bədii fikrimizin bu mərhələsində təsəvvüf probleminin qoyuluşu və həlli yalnız oğuz-səlcuq mədəniyyəti çərçivəsi ilə məhdudlaşdırılmamalıdır.

XIII-XVI yüzillər Azərbaycan ədəbiyyatı təsəvvüfün cazibə və təsir dairəsində inkişaf baxımından özünün bütün əvvəlki və sonrakı inkişaf mərhələlərindən fərqlənir. Məhz bu dövrdən "Türküstanda bilavasitə Əhməd Yəsəvi ilə başlayan təsəvvüf cərəyanı Azərbaycanda və dolayısıyla bütün Anadoluda yayılırdı" [49, s. 147].

Hələ Azərbaycan sovet ədəbiyyatşünaslığının formalaşdığı ilk illərdə orta əsrlər Azərbaycan ədəbiyyatının təsəvvüflə sıx bağlılığı nəzəri mülahizə kimi irəli sürülürsə də, sonralar ədəbiyyatşünaslığımızın əsas müddəalarına çevriləcək klassik poeziyamızın fəlsəfi məzmununu qeyri-obyektiv, yanlış şərh edən fikirlərin rüşeymlərinə də elə bu dövr ədəbiyyatşünaslığında rast gəlirik. İ. Hikmətin aşağıdakı mülahizələri bunun bariz nümunəsidir: "Şeirdə bir ilham mənbəyi olmaqla bərabər təsəvvüfün ədəbiyyata, bilxassə türk ədəbiyyatına girməsi faidədən ziyadə zərər vermişdir. Türk hiss və fikrindəki, türk zövq və xəyalındakı saflıq, sadəlik, sağlamlıq, orijinallığı öldürdüyü kimi, yaradıcılıq, canlılıq və həyəcanlılığı da boğmuşdur. Bütün bu fikir, hiss, xəyal və fəlsəfə dar bir çərçivənin içinə sıxılıb qalmışdır" [49, s. 134].

Təsəvvüfün poeziya ilə, ümumən sənətlə əlaqəsinin və bu əlaqənin nəticəsində yaranan fəlsəfi məzmunlu ədəbiyyatın İ.Hikmətin şərhindəki xarakterini qəbul etsək, gərək bədii fikrimizin böyük bir mərhələsində müəllifin sadaladığı keyfiyyətlərin (saflıq, sadəlik, sağlamlıq və orijinallıq milli baxımdan, canlılıq isə poetik baxımdan) mövcudluğundan vaz keçilsin. Alternativ yol isə ondan ibarətdir ki, bu əlaqənin xarakterini şərtiləşdirib poeziyada dünyəvi məzmun qabardılsın. Sonrakı Azərbaycan ədəbiyyatşünaslığı məhz ikinci yolu tutdu. Lakin bununla yanaşı, bu dövr təsəvvüfün geniş intişarı tamamilə inkar edilmədi, yalnız bu intişarın səbəbləri ifrat sosioloji mövqedən şərh edildi: "XIII-XIV əsrlərdə Azərbaycan şeirində sufizm ideyaları daha çox yayılır. Bu hadisəni daxili və xarici təzyiq və istismarın artması ilə izah etmək olar. Həyatda müsibət və fəlakətin şiddətlənməsi, ölkənin maddi sərvətlərinin qarət edilməsi, aclıq və yoxsulluq xalq kütlələri içərisində etiraz doğurduğu kimi, müəyyən ziyalı təbəqələrin və sənətkarların içərisində də həyatdan narazılıq, məyusluq, ümidsizlik meyillərini gücləndirirdi. Bu vəziyyət bəzi şair və alimlərin sufizm ideyalarına meyl etməsinə şərait yaradırdı" [50, s. 210].

Əlbəttə, Azərbaycan ədəbiyyatşünaslığında stereotipləşmiş təsəvvüfün ədəbiyyatla əlaqələrinin şərhində ötən əsrin 90-cı illərinə qədər əsas mülahizə kimi tədqiqatlarda bu və ya digər dərəcədə dəyişikliklə mövcud olmuş bu fikrin hansı səbəblərdən formalaşdığını izah etməyə bir o qədər də ehtiyac yoxdur. İzah olunması vacib olan isə odur ki, XIII-XIV əsrlərdə təsəvvüflə poeziyanın qarşılıqlı münasibəti "həyatdan narazılıq, məyusluq, ümidsizlik meyllərinin" sənətdə, poeziyada əksi olmayıb, təsəvvüfün timsalında fəlsəfə ilə poeziyanın qarşılıqlı rəğbət və zənginləşməsinin göstəricisi idi [51, s. 48]. Heç də təsadüfi deyildi ki, bu dövr şairlərin yaradıcılığında təsəvvüfün fəlsəfi təfəkkür süzgəcindən keçib bitkin nəzəri sistem xarakteri

kəsb edən əsas ana müddəası – vəhdəti-vücud və onun müxtəlif istiqamətləri öz əksini tapmışdır.

Bu mənada "Bizim klassik şeir tarixi bədii və fəlsəfi fikrin klassik vəhdəti tarixidir. Həm də bizdə poetik fəlsəfə çox vaxt ümumiyyətlə fəlsəfənin zirvəsidir" [52, s. 21] – mülahizəsi tamamilə doğrudur.

**Əgər fəlsəfə insanın müdrikliyə məhəbbətidirsə, poeziya müdrikin insana və dünyaya məhəbbətidir. Filosoflar varlığı öyrənirlər, şairlər isə onu hiss edirlər. Filosoflar şairlərlə müqayisədə varlıq haqqında nə qədər çox bilsələr də, varlıqla özləri arasındakı mənəvi məsafəni heç vaxt qısalda bilmirlər. Çünki onların hələ çox qədimdən start götürdüyü ümumi hərəkət istiqaməti varlığı öyrənmək yolu ilə müdrikliyə doğrudur. Dünyaya müdrik gələn şairlər isə varlığı duya-duya ona yaxınlaşırlar. Bəşər mədəniyyəti tarixində varlığı öyrənə-öyrənə müdrikləşən filosofların poeziyaya, eyni zamanda varlığı illüziyonistcəsinə dərk və təsvir edəedə ona yaxınlaşan şairlərin fəlsəfəyə qarşılıqlı rəğbət maraqlarının kökü çox qədimlərə gedir. Orta əsrlər müsəlman Şərqində isə fəlsəfi və poetik fikrin qarşılıqlı münasibətləri rəğbət və maraq səviyyəsindən uzaqlaşaraq qarşılıqlı sintezləşmə xarakteri almışdır. Məhz buna görə də Şərqdə sırası, nizamı heç zaman pozulmayan filosof-şairlər silsiləsi mövcuddur.**

XIII-XVI əsrlər Azərbaycan təsəvvüf ədəbiyyatında fəlsəfə və poeziyanın qarşılıqlı münasibəti Mahmud Şəbüstəridən Füzuliyə qədər çox mürəkkəb bir inkişaf yolu keçmişdir. Bu inkişaf özünün ilk iki əsərini **poetik fəlsəfədən fəlsəfi poeziyaya** doğru (Mahmud Şəbüstəri, Marağalı Əvhədi, İzzəddin Həsənoğlu, İmadəddin Nəsimi), sonrakı dövrlər inkişafını isə istər çılpaq şəkildə, istərsə də simvollara əyaniləşən fəlsəfi məzmunun daxili qata (şeirin nüvəsinə) sıxlaşdırılıb poetik büllurluğa, estetikliyə canat-

ma istiqamətində keçirmişdir. Bu inkişaf istiqaməti isə **fəlsəfi poeziyadan estetik poetikliyə** doğru yönəlmişdir. Belə bir inkişaf Füzulinin timsalında özünün zirvə məqamına yetişmişdir.

Sufi şairlərin yaradıcılıqları arasında əsaslı keyfiyyət fərqinin mövcudluğunu (Bu fərq əsasən poetikliyin fəlsəfəyə nisbəti ilə şərtlənir. Məsələn, Nəsimi də məşuqəni tərənnüm edir, Füzuli də. Lakin Nəsimidə Füzuli ilə müqayisədə intellektualizm emosionallıqdan daha qabarıqdır) nəzərə alaraq son dövr ədəbiyyatşünaslığımız onun təsnif edilməsində "təsəvvüf poeziyası" və "irfani poeziya" ifadələri üzərində daha çox dayanır. "Təsəvvüf poeziyası" öz genişliyi və fəlsəfi məfkurəli poetik mətnin mənasını sərrast ifadə etməsi baxımından uğurludur. "İrfani poeziya" qəlibi isə büllurlaşmış, estetik mükəmməllik kəsb etmiş, lakin tamamilə təsəvvüf poeziyasının simvol və məcazlarından arınmamış şeiri ifadə etməsi baxımından o qədər də dürüst deyil. Hər şeydən əvvəl ona görə ki, "irfan" anlayışı təsəvvüf təlimində tamın hissəsini ifadə edir. Ərəb dilində "bilmək" fel kökündən yaranan "irfan" müstəqim mənada bilik, dərketmə anlamındadır. Təsəvvüfdə isə bu anlayış yalnız mərifətullahı, mistik biliyin, ilahi elmin mənimsənilməsindən bəhs edən qneseologiyanı ifadə edir. "Bilən" sözü də ilahi sirdən agah kamil sufi anlamındadır. Elm isə biliyin mənimsənilməsidir. Lakin elmlə irfanın, alimlə arifin fərqi ondan ibarətdir ki, alim istənilən sahədəki biliyə, arif isə Allah bilgisinə sahib olan kimsədir. Elm öyrənməklə, irfan isə mənəvi kamilləşmə ilə əldə olunur. Alim kamil olmaya bilər, kamil olmayan isə arif ola bilməz. İbrahim Həqqi Ərzurumi bu barədə yazır: "Zahid yeriyən, arif isə uçandır. Alim söylədiklərindən aşağıda, arif isə söylədiklərindən yuxarıdadır" [54, s. 509].

"İrfani ədəbiyyat" ifadəsinin ədəbiyyatşünaslığımızda normativləşdirilməsinə edilən cəhdlər isə uzun illər "təsəv-

vüf ədəbiyyatı"nın əsl sənət və poeziyadan kənar məhdud təriqət ədəbiyyatı kimi qəbul edilməsi ilə əlaqədardır. Sovet ideologiyasının və deməli, dialektik materializmin iflasından sonra hələ də şüurlarda belə bir stereotip mövcudluğunu davam etdirməkdədir ki, mistik olan məhduddur. Əgər təsəvvüf mistik fəlsəfədirsə, onun təsiri altında yaranan ədəbiyyat da mistik və deməli, məhdud olmalıdır. Halbuki Şərqin klassikləri öz poetik təfəkkürlərinin vüsətinə, fəlsəfi dünyagörüşlərinin genişliyinə görə heç bir məhdudluğa sığmayan fikir nəhəngləridir. Onların mistik hesab edilməsi məhdud çərçivəyə salınmaq təhlükəsi doğurduğundan təsəvvüfün qneseologiyasını ifadə edən "irfan" anlayışı müasir ədəbiyyatşünaslığımızda daha münasib hesab edilir. Əgər irfan təsəvvüfün öz inkişafının müəyyən bir mərhələsində meydana çıxmış olsaydı, bunun ədəbiyyatda əksi kimi bu ifadəni fikrin müəyyən bir inkişaf mərhələsini ifadə edən anlayış kimi qəbul etmək olardı. Lakin irfan təsəvvüfün nəzəri-fəlsəfi sistemə çevrilib inkişaf etdiyi bütün tarixi mərhələlərdə onun daxilində idrak elmi kimi mövcud olduğundan, bədii ədəbiyyatımızın böyük bir mərhələsinin (əksər mülahizələrə görə XIII-XVI əsrlər) bu ad altında ifadə edilməsi elmi baxımdan o qədər də özünü doğrultmur.

**Yuxarıdakı mülahizələri ümumiləşdirərək belə bir qənaətə gəlmək olar ki, XIII-XVI əsrlər Azərbaycan bədii fikrinin inkişafı sufizmdən irfaniliyə doğru deyil, təsəvvüfün timsalında poetik fəlsəfədən fəlsəfəi poeziyaya, fəlsəfi poeziyadan isə estetik poetikliyə doğru inkişaf etmişdir.**

## Poetik fəlsəfənin fəlsəfi traktat kodu: Mahmud Şəbüstəri

XIII-XIV əsrlər Azərbaycan təsəvvüf ədəbiyyatının görkəmli nümayəndələrindən olan Mahmud Şəbüstərinin yaradıcılığında fəlsəfə və poeziya münasibətləri məzmun və formanın nisbəti statusundadır. Mövcud ədəbiyyat tarixi kitablarında Mahmud Şəbüstərinin "XIII-XIV əsrlər inkişaf edən sufi poeziyasının görkəmli nümayəndələrindən biri" [50, s. 213] hesab edilməsinə baxmayaraq, o, şair olmaqdan daha çox filosof kimi məşhurdur. Sovet ədəbiyyatşünaslığında isə Şəbüstərinin sufi poeziyasının nümayəndəsi kimi qabardılmasının ayrıca səbəbi mövcuddur. Belə ki, ədəbiyyatşünaslığımızda sufi poeziya adı altında çılpaq şəkildə əyaniləşən fəlsəfi mətn nəzərdə tutulmaqla ("Gülşəni-raz" və "Səadətnamə" əsərləri) simvollarla əyaniləşən sufi poeziyasının dünyəvi planda dəyərləndirilməsi üçün əlverişli zəmin hazırlanırdı.

Mahmud Şəbüstəri, şübhəsiz, filosofdur. Həm də öz fəlsəfi düşüncəsinin miqyasına görə ümumşərq fəlsəfi fikrini təcəssüm etdirən filosofdur. O, istər sırf fəlsəfi, istərsə də poetik fəlsəfi əsərlərində fəlsəfi-sufi problemlər üzərində mühakimələr irəli sürür. Hətta poeziya, daha dəqiqi, sufi poeziyasının simvolları barədə mühakimələri də fəlsəfi məzmun daşıyır. Məhz buna görə də onun yaradıcılığının, xüsusən də "Gülşəni-raz" əsərinin başqa elm sahələri kimi ədəbiyyatşünaslıq kontekstində də öyrənilməsi vacibdir.

**Şəbüstəri yüksək təsəvvüfi poetik mətn təqdim etmir, belə mətnə daxil olmaq üçün açar təqdim edir.**

**Bundan əlavə, XIII-XVI əsrlər Azərbaycan şairlərinin yaradıcılığında poetik düşüncənin zərbələri altında deformasiyaya uğrayan mistik ideyanın sufi-fəlsəfi təqdiminə də deformasiyasız, sırf fəlsəfi planda ən lakonik şəkildə Şəbüstərinin "Gülşəni-raz" əsərində rast gəlmək mümkündür [55, s. 5].**

Məhəmmədəli Tərbiyətin filosofun həyatı haqqındakı aşağıdakı məlumatı çox dəyərlidir: "Mövlana Şəbüstəri ömrünün çoxunu səyahətdə keçirmiş, bir çox alimlər və ariflərlə görüşmüş, onlarla məktublaşmışdır. Şirvanlı səyyahın dediyinə görə, Şəbüstəri Kirmanda da olmuş, orada evlənmiş və ondan orada uşaqları və nəvələri qalmışdır" [56, s. 193].

Şəbüstəri bütün ömrünü elmlərin öyrənilməsinə həsr etmiş, özündən sonra zəngin ədəbi irs qoyub getmişdir. Onun əsərləri içərisində "Həqqəl-yəqin fi mərifəti rəbbil-aləmin" ("Alimləri yaradanı tanıtdırmaq üçün gerçək həqiqət"), "Miratul-muhəqqiqin" ("Həqiqət arayanların güzgüsü") kimi fəlsəfi, "Səadətnamə" və "Gülşəni-raz" kimi bədii-fəlsəfi əsərləri daha çox məşhurdur. "Gülşəni-raz" əsəri Şəbstərinin fəlsəfi və ədəbi irsi içərisində xüsusi yer tutur. Müəllifin bu əsəri digər əsərləri ilə müqayisədə daha geniş auditoriyada yayılaraq ona böyük şöhrət qazandırmışdır. M.Tərbiyət bu əsərə şərh yazan iyirmiyə yaxın şəxs haqqında məlumat verir [56, s. 194]. Əsərin belə geniş şöhrət qazanmasında "olduqca səlis və rəvan bir dildə" (M.Tərbiyət) yazılmasının xüsusi rolu vardır. Əsərin dilinin belə səlistliyini isə məsnəvi janrının uzun əsrlər boyu formalaşmış fəlsəfi fikri ifadə imkanları təmin etmişdir.

Müəllif kitabın yazılma səbəbindən bəhs edərkən poeziyaya münasibətini və əsərin məsnəvidə yazılma səbəbini belə izah edir:

*İlhamımın kifayət qədər olmasına baxmayaraq,*
*Təsadüflər nəzərə alınmazsa, mən şeir yazmamışam.*
*Nəsrlə çoxlu kitab yazmışamsa da,*

*Nəzm və məsnəvi ilə heç vaxt məşğul olmamışam.*
[57, s. 90]

Daha sonra filosof İran sufi şairi Əttarı xatırlayaraq yazır:

*Mənə öz şairliyimdən ar gəlmir,*
*Çünki yüz əsr keçsə də, Əttar kimi şair yetişməz.*
[57, s. 9]

Yuxarıdakı fikirlərdən bir daha aydın olur ki, Şəbüstərinin poeziyaya müraciəti fəlsəfi fikirlərini ifadə etmək üçün vasitə olmuşdur.

"Gülşəni-raz" əsərinin mahiyyətində dünyanın panteistcəsinə qavranılması dayanır. Şəbüstəri sufi filosof kimi varlığın birliyi inancını nəzəri cəhətdən şərh etməklə kifayətlənməyib, eyni zamanda praktiki baxımdan onu dərk etməyin yollarını da açıb göstərir. Məhz buna görə də "Gülşəni-raz" əsəri təsəvvüfün həm nəzəri, həm də əməli qismlərini özündə ehtiva edir.

Şəbüstərinin fəlsəfi-didaktik (bəlkə də didaktiklik əsərin sual-cavab formasında yazılmasından irəli gəlir) mühakimələrinin əsasında ilk baxışdan kəsrət kimi nəzərə çarpan varlığın mahiyyət etibarilə vəhdət olması fikri dayanır:

*Kafir mömindən, mömin kafirdəndir.*
*Toxum və bəhrə bir yerdə olduğu kimi, hamı birlikdədir.*
*Bütün dövr, zaman, gün, ay və il də xalın nöqtəsi kimi bir yerə yığılıb.* [57, s. 20]

Bəs insan bu dairədə hansı mövqeyi tutur? - suallarına verdiyi cavab insanın Allah, dünya, kosmos və s. ilə münasibətlərini və bu mürəkkəb münasibətlər kontekstində mövqeyini aydınlaşdırır:

*Mən və sən vücudun zatının sifatlarıyıq,*

*Varlıq çırağının ətrafa səpələnmiş zərrələriyik.*
[57, s.36]

Daha sonra insanı tamın ayrılmaz bir hissəsi kimi xarakterizə edən filosof yazır:

*Sən o cəmsən ki, vahidin özü (kimi) gəldi,*
*Sən o vahidsən ki, çoxluğun özü (kimi) gəldi.*
[57, s. 38]

Digər sufi mütəfəkkirləri kimi Şəbüstəri də insanı Allahla eyniləşdirir, onu empirik varlıqdan arındıraraq substansional mahiyyətlə eyni səviyyəyə qaldırır. "Ənəlhəq" ideyasına tərəfdar çıxaraq yazır:

*Mütləq "ənəlhəq" sirlərin kəşfidir,*
*Haqqın (özündən) başqa kim deyə bilər ki, mən həqqəm.* [57, s. 52]

Şairin fəlsəfi dünyagörüşündən bəhs edən tədqiqatçılar onda dialektikanın bariz izlərinə rast gəlir və bunu Şəbüstəri fəlsəfəsinin yüksək xüsusiyyəti kimi şərh edirlər [58, s. 96-108]. Şəbüstəridə, doğrudan da, dialektikanın bəzi izləri mövcuddur. Lakin bu, bizim anladığımız material dünyanın dəyişkənliyi deyil, material dünya da daxil olmaqla bütün varlığın dəyişkənliyini ehtiva edən dialektikadır:

*Gör ki, dünyada hər şey bir-birinə qarışıb,*
*Mələk divdədir, şeytan mələkdədir.* [57, s. 20]

"Gülşəni-raz" əsərinin on üçüncü sualından etibarən poetik sufi istilahların şərhi verilir. Bu şərhlər "Mahiyyəti bilən insan göz və dodağı biləndir" ifadələri nəyə görə işlədilir?", "Kamilləşən və ekstaza düşən zülfdə, sifət cizgilərində, xalda nə axtarır?"- suallarına cavab olaraq verilir. Ayrı-ayrı simvolların şərhinə keçməmişdən əvvəl Şəbüstərinin şərhində simvollardan istifadənin səbəbləri ilə tanış olaq.

Filosof bu barədə yazır:

*Aləmdə görünən hər bir əşya günəşdən əks kimidir,*
*Cahan zülf, xətt, xal və qaş kimidir,*
*Onların hərəsi öz yerində gözəldir,*
*Təcəlla gah camal, gah cəlaldır,*
*Onun (burada: zat) sifəti və zülfü bu ikiliyə görə bölünüb.* [57, s. 84]

Ekstazda (fəna məqamında) agah olan məna heç bir sözlə ifadə olunmur. "İnsan mənanı izah edərkən onu oxşarları vasitəsilə şərh edir" - deyən filosof mistik yaşantının müxtəlif mərhələlərində agah olan həqiqətləri ifadə edən simvolları aşağıdakı kimi qruplaşdırır:

**1. Göz və dodaq**

Şəbüstəriyə görə, göz və dodaq gözəlin atributları kimi bir-birindən fərqli iki anlayışı özündə ehtiva edir:

*Onun gözlərindən xəstəlik və məstlik istədi,*
*Onun dodaqlarından varlığın özü aşkar oldu.*
[57, s. 87]

**2. Zülf**

Zülf Şəbüstərinin şərhində ilahi manifestasiyaya əngəl olan dünyanın simvoludur. O yazır ki, əgər zülf öz qıvrımlarını oynatsa (deməli, arxasındakı mahiyyət görünsə), bir nəfər də olsun kafir qalmaz.

Yox əgər o, əbədi olaraq donuq qalsa, bir nəfər də olsun mömin qalmaz. Daha sonra yazır:

*Onun zülfü bir an sakitlik tapmır,*
*Gah gündüz gətirir, gah gecə.* [57, s. 90]

Yuxarıdakı misralardan aydın olur ki, zülf və sifət kimi gecə və gündüz daha ilahi mahiyyətə mane olan dünyapərəstlik və ilahi nurlanmanın simvollarıdır.

**3. Sifət və xətt**

*Üzün burada ilahi gözəlliyin təzahürüdür.*
*Xətdən arzu olunan isə ilahi böyüklükdür.* [57, s. 91]

**4. Xal**

Xal vəhdətin təcəssümüdür:

*O sifətdəki xalının nöqtəsi sadədir.*
*Çünki o, mühit dairəsi və əslin mərkəzidir.* [57, s. 92]

İnsanda vəhdəti özündə əks etdirməyə qabil yeganə "orqan" qəlb olduğundan filosof xalla qəlbi qarşılaşdırır. Hətta ona aydın olmur ki, gözəlin sifətindəki əks (xal) onun qəlbidir, yoxsa onun qəlbi gözəlin xalının əksidir.

Nöqteyi-xal mistik yaşantının elə yüksək səviyyəsini əks etdirir ki, bu səviyyədə salik kəsrətdən tamamilə ayrılır:

*Vəhdətdə heç kəsrət olmaz.*
*Vəhdətin əsasında iki nöqtə olmaz.* [57, s. 93]

**5. Şərab, şam və şahid**

Klassik poeziyamızın dominant obrazlarından olan "şərab", "şam" və "gözəl" barədə mistik şərhlərinin yaxınlığı baxımından Şəbüstəridə eyni kontekstdə bəhs edilir. Müəllifin şərhinə görə, haqqında bəhs edilən anlayışlar fəna məqamına aparan vasitələrin, ən başlıcası isə daxili nurlanmanın və ilahi eşqin simvoludur:

*Şərab, şam və şahid eyni mənadadır.*
*Çünki hər surətdə onun təcəllasıdır.*
*Şərab, şam, şəkər və ariflərin zövqünü şahid (olaraq) gör ki, heç kəsdə gizli deyildi.* [57, s. 94]

**6. Xərabat**

Daha çox İran təsəvvüf ədəbiyyatında rast gəlinən "xərabat" Şəbüstərinin simvolik şərhini verdiyi növbəti anlayışdır:

*Xərabat can quşunun yuvasıdır.*

*Xərabat məkansızlığın astanasıdır.* [57, s.97]

Şəbüstəriyə görə, xərabat yalnız sufilərin yığılıb zikrlə məşğul olduğu yer deyil. O, xərabatı kainatın özü ilə eyniləşdirərək vəhdət məqamına yüksəldir. Xərabat bu maddi material dünyanın əlamətlərini daşımayan xüsusi bir məkandır:

*Xərabatda əvvəl və son yoxdur.*
*Heç kəs onun əvvəlini və sonunu görməyib.* [57, s. 98]

**7. Büt, zünnar və tərsa**

Məlum olduğu kimi, təsəvvüf poeziyasında ortodoksal İslamın qəbul etmədiyi ədəbiyyatda olduqca fəal işlənən bir çox anlayışlar mövcuddur. Bu anlayışlar ilk baxışdan rəsmi İslamla təsəvvüf arasında orrozisiya təəssüratı yaratsa da, simvolik şərhi məlum olduqdan sonra yaşantının ifadəsinə xidmət etdiyi aydınlaşır. Şəbüstəri bu tip anlayışlardan "büt", "zünnar" və "tərsa" üzərində xüsusi dayanır:

*Büt burada eşqin təzahürüdür və vəhdətidir.*
*Zünnar bağlamaq isə xidmət əlamətidir.* [57, s. 100]

Təsəvvüfdə dini təcrübənin müxtəlifliyinə vəhdəti-vücud kontekstində Şəbüstəridən əvvəl böyük mütəsəvviflərdən olan Həllac Mənsur, Bəyazid Bistami, İbn Ərəbi kimi mütəfəkkirlər öz münasibətlərini bildirmişdilər.

Məsələn, İbn Ərəbinin "səcdənin istənilən obyektində ilahi reallığın hansısa bir aspekti mövcuddur" kimi məşhur müddəası bütün dinlərə eyni dərəcədə haqq qazandırırdı. Şəbüstəri də bütə münasibətdə bu mövqedə dayanır:

*Bunu mən demirəm, Qurandan eşit ki,*
*Rəhmanın xilqəti arasında fərq yoxdur.* [57, s. 102]

Əgər Allahın yaratdığı varlıqlar arasında heç bir fərq yoxdursa, onda bütdə də ilahi reallığın hansısa aspekti mövcuddur. Məhz buna görə də filosof bu sadə həqiqəti

dərk etməyənlərə üz tutaraq deyir:

*Əgər müsəlman bilsə ki, büt nədir,*
*Onda anlar ki, din bütpərəstlikdədir.* [57, s. 100]

Əlbəttə, bütpərəstlik orta əsr müsəlmanının anladığı mənada din deyil. Beytdən süzülüb çıxan məna ondan ibarətdir ki, dinlə oppozisiyanın ən kəskin nöqtəsi hesab edilən bütpərəstlik belə geniş mənada götürülən dindən (təsəvvüfdə ilahi eşqdən) kənarda bir şey deyil. Kəsrət aləmində bir-birinə zidd görünən anlayışlar vəhdət məqamında bir-birinin oxşarıdır.

Əgər "büt" ifadəsi altında vəhdəti-vücudun nəzəri aspektləri şərh olunursa, "zünnar" ifadəsi altında isə təsəvvüfün praktiki tərəfi, dərvişlik nəzərdə tutulur. Yuxarıda göstərildiyi kimi, zünnar bağlamaq xidmət əlamətidir. Xidmət isə həqiqəti və deməli, dinlə bütpərəstlik arasında fərqin olmamasını dərk etməyin yeganə yoludur.

Xristianlığa gəldikdə isə, Şəbüstərinin bu dinə olan rəğbəti, xristian, tərsabeçə və s. kimi ifadələri simvollaşdırması onun öz fərdi dünyagörüşünə məxsus olmayıb, təsəvvüfün xristianlığa olan müsbət münasibətindən qaynaqlanırdı. Bunun da başlıca səbəbi İsa peyğəmbərin asketik həyat tərzinin sufilərin zahidliyi ilə üst-üstə düşməsində idi:

*Xristianlıqdan məqsəd təcrid (olduğunu) gördüm.*
*Bundan xilas təqliddədir.* [57, s. 107]

"Tərsabeçə" ifadəsi də xristianlıqla bağlı olub işığın təzahürünü simvollaşdırır:

*Tərsabeçənin bütü nurun təzahürüdür.*
*Çünki bütlərin üzündə təzahür edir.* [57, s. 111]

Təsəvvüf poeziyası, xüsusən fars və fars təsiri altında

formalaşan türk təsəvvüf poeziyası üçün xarakterik olan poetik istilahların Şəbüstəri tərəfindən verilən izahları çox böyük əhəmiyyətə malik olub, XIII-XIV əsrlər təsəvvüf poeziyasına simvolik aspektdən yanaşmaq üçün düzgün metod verir. Bu da təsadüfü deyil ki, bir neçə əsrlər intensiv olaraq Şəbüstərinin yaradıcılığı Azərbaycan və İran təsəvvüf ədəbiyyatının inkişafında nəzəri-fəlsəfi baza kimi xüsusi rol oynamışdır.

## Poetik fəlsəfənin didaktik məsnəvi kodu: Marağalı Əvhədi

XII əsr Nizaminin "Xəmsə"si timsalında öz yüksək zirvəsinə çatan Azərbaycan epik şeiri XIII-XIV əsrlərdə də öz inkişafını davam etdirir. Əvhədinin "Cami-Cəm", "Dəhnamə", Arif Ərdəbilinin "Fərhadnamə", Əsrar Təbrizinin "Mehr və Müştəri" əsərləri haqqında söhbət gedən dövrdə epik şeirimizin gözəl nümunələridir. Epik şeirimizin XIII-XIV əsrlərdəki nümunələrində bu və ya digər dərəcədə təsəvvüfün təsirini sezmək mümkündür. Lakin Əvhədinin "Cami-Cəm" əsəri istisna olmaq şərtilə bu əsərlərdən heç birini tam şəkildə sufi eposu hesab etmək mümkün deyil. Sufi eposu üçün xarakterik tələblərə yalnız "Cami-Cəm" əsəri cavab verir. Sufi eposunun epik şeirin digər növlərindən fərqini A.Rüstəmovanın aşağıdakı mülahizəsi dəqiq ifadə edir: "Qeyd etmək lazımdır ki, orta əsrlər Şərqində epik şeirin fəlsəfi-didaktik növünə geniş lirik vüsət hakimdir. Burada hərəkət, dinamika az olur, epik obraz kimi ya əsasən naseh - şair və onun müxatib qəbul etdiyi oxucu iştirak edir, yaxud da münazirə - sual-cavab forması qəbul olunur. Bu və ya digər fəlsəfi-əxlaqi fikri təsbit üçün şair kiçik hekayələrə, məsəl və təmsillərə müraciət edə də bilər, etməyə də" [59, s. 128].

Müəllifin ümumi xarakteristikasını çox dürüst müəyyənləşdirdiyi və epik şeirin əxlaqi-didaktik növü kimi təqdim etdiyi janr elə əslində əsası XI əsrdə fars şairi Sənainin "Hədiqətül-həqayiq" əsəri ilə qoyulan sufi eposudur. Nizaminin "Məxzənül-əsrar", Əttarın "Məntiqüt-teyr", Ruminin "Məsnəvi" əsərləri sufi eposunun Şərqdə geniş

yayılmış nümunələridir. Əlbəttə, Nizaminin ilk irihəcmli əsərinin sufi eposu hesab edilməsi nisbətən mübahisəlidir və xüsusi izah tələb edir.

"Sirlər xəzinəsi" Sənainin "Hədiqətül-həqayiq" əsərinin təsiri və ümumiyyətlə, sufi eposu ənənələrinə sadiqlik əsasında yaranmışdır. Hər iki əsər arasındakı müqayisəli təhlil bunu bir daha sübut edir [60, s. 73-78]. Lakin artıq ikinci irihəcmli əsəri olan "Leyli və Məcnun"da Nizami sufi eposçuluğu çərçivəsini aşıb keçir. Və Nizaminin bütün sonrakı əsərləri heç bir konkret təlimin poetik əksi kimi meydana çıxmayıb, şairin müxtəlif təlimlər, fəlsəfi cərəyanlar əsasında formalaşan müstəqil dünyagörüşünün təbii diqtəsi ilə yaranır.

Bu da böyük intibah şairi kimi Nizaminin qlobal mətləblər üzərində düşüncələrindən irəli gəlirdi. Əslində, "Sirlər xəzinəsi"nin özündə belə sufi epos janrının tələblərindən irəli gələn prinsiplər pozulmağa başlayır. Dini-təsəvvüfi problemlərlə yanaşı, ictimai problemlərin qabarıqlığı "Sirlər xəzinəsi"ndə bu meylin göstəricisidir. **Qədim Ellada mədəniyyətindən tutmuş İslam mədəniyyətinə qədər müxtəlif universal fəlsəfi təlimlərin sintezindən təşkil olunmuş vahid Nizami universumu "Sirlər xəzinəsi"ndə özünün təşəkkül mərhələsini keçirir. Buna görə də "Sirlər xəzinəsi" öz strukturu etibarilə tam, məzmunca isə qismən sufi eposu ənənələrini əks etdirir. Nizamidə təsəvvüfdən poetik dünyagörüşü tamamilə içinə alan konsepsiya kimi deyil, bu təfəkkürün formalaşmasında rol oynayan istiqamətlərdən biri kimi söz açmaq mümkündür.** Nizami ədəbi məktəbi özündən sonrakı Şərq bədii fikrini, xüsusən epik şeirin inkişafını öz təsiri orbitində uzun əsrlər boyu saxlasa da, sufi epos ənənəsi də tamamilə tənəzzülə uğramır, XIII əsr Mövlana Cəlaləddin Ruminin "Mənsəvi"si timsalında yeni inkişaf mərhələsinə qədəm qoyur [61].

Şərq təsəvvüfünün nəhəng fiqurlarından olan Mövlananın ən böyük xidmətlərindən biri təsəvvüfə canlılıq, coşqun bir ruh gətirməsi olmuşdur. Mənbələrin verdiyi məlumata görə, Şəms Təbrizi adlı səyyar bir dərvişlə Mövlananın təsadüfi görüşü möhkəm əqidə birliyinə çevrilmiş, xüsusən Şəmsin Mövlana üzərində dərin bir təsiri olmuşdur. Şəxsiyyəti haqqında mənbələrdə çox az məlumat verilən Şəms Təbrizi haqqında Fuad Köprülü yazır: "Hər halda bu böyük mütəsəvvif hər kimin və ya hər kimlərin müridi olursa-olsun, çox qüvvətli sufiyanə cəzbə malik rind və qələndərməşrəb bir adam, ən geniş təsəvvüfi anlayışları ruhunun səmimi ehtiyacları nəticəsində duymuş qüvvətli bir şəxsiyyət olduğu şəksizdir" [6, s. 221].

Konya mədrəsələrinin birində Şəmslə altı ay qarşılıqlı fikir mübadiləsi edən Mövlananın dünyagörüşündə əsaslı təbəddülat baş verir. Onun üçün təsəvvüf "**bəlli qaydalar və əqidələr məcmusu olmaqdan uzaqlaşıb, duyulan, əqli və hissi mühakimə ilə deyil, kəşf ilə, yəni ilham ilə, eşq ilə anlaşılan (kursiv bizimdir -S.X.)"** [6, s. 223] bir təlim xarakteri alır. Beləliklə, **"Məsnəvi"ni digər sufi eposlarından fərqləndirən başlıca xüsusiyyət yaşanılan təsəvvüfi duyğunu, səmimi hiss və həyəcanları özündə əks etdirməsi olur.**

XIV əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Marağalı Əvhədinin yaradıcılığında da təsəvvüf ideyası, irfan estetikası əsası qədim fars mədəniyyətindən qaynaqlanan [62, s. 10-11], sonralar Sənai, Əttar, Rumi kimi mütəsəvvif şairlər tərəfindən inkişaf etdirilən didaktik-əxlaqi məsnəvi janrında əyaniləşmişdir.

Onun lirik şeirlərindən ibarət "Divan"ı, "Dəhnamə" və "Cami-Cəm" əsərləri xeyli məşhurdur.

**Elmi-fəlsəfi, əxlaqi-estetik fikrin ifadəsi üçün geniş meydan yaradan didaktik məsnəviçilik poetik təfəkkürün universal ifadəsi üçün əvəzsiz imkan yaradırdı.**

**Əvhədi də özünün digər müasirləri kimi universal zəka sahibi olmuşdur. Belə universallıqla yanaşı, orta əsrlərə məxsus dini-ideoloji təsisatlar şairin dünyagörüşünün bazası kimi çıxış etsə də, bütövlükdə yalnız təsəvvüf fəlsəfəsi, irfan estetikası bu dünyagörüşü tam ehtiva edir.** Əvhədi yaradıcılığı haqqında Azərbaycan ədəbiyyatşünaslığında yazılmış tədqiqatlarda bu cəhətin üzərindən sükutla keçilsə də, müşahidələr onun bütün yaradıcılığının, xüsusilə də "Cami-Cəm" məsnəvisinin başdan-başa təsəvvüf estetikasının və vəhdəti-vücud fəlsəfəsinin təbliğinə həsr olunması qənaətinə gətirib çıxarır.

Şairin yaradıcılığında xüsusi əhəmiyyətə malik olan "Cami-Cəm" məsnəvisinin poetik strukturuna - didaktik-əxlaqi mövzuda hekayə-nəsihət ardıcıllığına Şərq ədəbiyyatında ilk dəfə Sənainin "Hədiqətül-həqayiq" əsərində rast gəlinir. Lakin "Cami-Cəm" təsəvvüfi kontekstdə sosial-ictimai problemlərin qoyuluşu və həlli, dini problematikanın fəallığı baxımından Nizaminin "Sirlər xəzinəsi" məsnəvisinə daha yaxındır. Hətta onu Nizami ədəbi məktəbinin davamçısı kimi dəyərləndirənlər də var [63]. Şairin yaradıcılığı ilə tanışlıq özünəqədərki zəngin sufi ədəbiyyatını (elmi və poetik) mütaliə etməsini, sufi ideyalarını təfəkkür süzgəcindən keçirərək varlığın sonsuz mürəkkəbliyini dərk etmək üçün zəkasını bu ideyalarla itiləşdirdiyini sübut edir.

"Cami-Cəm"də insanın başlıca həyat məqsədi Mütləqi dərk etmək hesab olunur. Əsər başdan-başa bəşəriyyəti bu ali məqsədə çağırışdan ibarətdir. Mütləqin dərki yollarına münasibətdə isə ənənəvi təsəvvüf təlimi ilə Əvhədinin dünyagörüşü bir-birindən əsaslı şəkildə fərqlənir. Məlum olduğu kimi, ənənəvi təsəvvüfdə xüsusən, ifrat panteistlərdə intuitiv sezim həqiqəti dərk etməyin yeganə vasitəsi hesab olunur. Əvhədi isə bu məsələyə münasibətdə rasionalizm mövqeyində dayanır. "Cami-Cəm"də insan zəkası bü-

tün fikir düyünlərini açmağa qadir ən ali nemət kimi tərənnüm olunur:

*Bilikdən başqa abi-həyat yoxdur,*
*Bilikdən başqa nicat qapısı yoxdur.*
*Kim bu sudan içibsə, əbədi qalıb,*
*Gözü də saqinin camalında qalıb.*
*Bilik və din ilə ruhuna arxa ol ki,*
*Ruhil-Əminlə (Cəbrayıl) həmnişin olasan.*
*Dinin adı biliklə yüksələr,*
*Din elm ilə heç tükənərmi?* [64, s. 34]

Əvhədiyə görə, Mütləq həqiqətin dərki insanın özünün-özünü tanımasından, özünə layiq olduğu dəyəri verə bilməsindən başlayır. Təsəvvüf təlimində insan ruhi, əqli, bioloji tam kimi mikroaləmin analoji paraleli hesab olunur. Substansional (ruh) və empirikin (cism) vəhdətindən ibarət olan insan aləmi-mələkutla aləmi-şəhadəti özündə birləşdirir. Əvhədi də insanın ilahi mahiyyətinə işarə edərək yazır:

*Ey açıq kitab, özünü tanı!*
*Bir də mindən yüzünü öyrən!*
*Heyif ki, öz qədrini bilmirsən,*
*Axı, ey sədr, sən möhtəşəm kəssən,*
*Həm xələf adlı, həm xəlifə nəslindənsən.*
*Xəlifə ləqəbi sənə nahaq verilməyib.*
*Sənin adın haqqın zatıdır.*
*Qüdsün xəzinəsi üzünün cizgiləridir...*
*Dünyanın sirləri Simurğ kimi*
*Bədənin Qafında pünhandır.* [64, s. 56]

Şairə görə, insanın özünü dərk etməsi yaradılış iyerarxiyasında ən şərəfli mövqeyin ona məxsus olduğunu anlamasıdır. "Cami-Cəm"də orta əsrlərin elmi-fəlsəfi fikirləri əsasında bu iyerarxiya (mədənin, bitkilərin, heyvanların və

insanın yaradılması) geniş şəkildə şərh olunur, insan və onun mövqeyi də bu iyerarxiya kontekstində müəyyənləşdirilir.

Əvhədinin kamil insan konsepsiyası Mütləqlə vəhdətdə bulunmaq kimi məşhur təsəvvüf fəlsəfəsinə əsaslanır. Onun şərhində tövhidi dərk Mütləqin qavranılması üçün başlıca şərtdir. Sufi ədəbiyyatlarında Allahı dərk etmək dərəcələri "elm-əl yəqin", "eyn-əl yəqin" "Həqq-əl yəqin" adlandırılan üç mərhələyə ayrılır. Birinci "yəqin bilmək", ikinci "tam yəqin bilmək", üçüncü "həqiqətən tam yəqin bilmək" anlayışlarına uyğun gəlir. Əvhədi bu qneseoloji səviyyələr içərisində üçüncünü son kamillik zirvəsi kimi qəbul edir:

*Eşq sözünün xiridarı azdır,*
*Yoxsa ki, məşuqə çox aşikardır.*
*Yaxşı diqqət eylə, dünyadakılar*
*Bir zərrə də ondan kənarda deyil,*
*Özün də, gözün də ondan xəbərsizdir.*
*Kainatda isə ondan aşikar bir şey yoxdur.* [64, s. 3]

"Cami-Cəm"də Allahın panteistcəsinə qavranılması ideyası da çox güclüdür. Şairə görə, kainatın fiziki harmoniyasını, onu doğuran qanunauyğunluğu dərk etmək kifayətdir ki, bu harmoniyanın əzəli başlanğıca əsaslandığını da anlayasan:

*Camalı bir yandan gizlindən-gizlindir,*
*Bir yandan da gül kimi açılmış və əyandır.* [64, s. 2]

Əvhədinin "Cami-Cəm" məsnəvisində dünyanın mahiyyəti haqqında poetik-fəlsəfi mühakimələr də birbaşa təsəvvüf təlimindən qaynaqlanır, irfan estetikasını əks etdirir. Şair bu dünyanı hər şeyin əks mənasında qavranıldığı bir məkan kimi dəyərləndirir:

*Cahanın işləri xəyalatdır,*
*Nəzər sal ki, bu nə halətdir.*
*Bu viran dünyada hər nə var,*
*Onların əksini suda tərsinə görürsən.* [64, s. 146]

Dünya öz materiallığı ilə xalis mənanın dərk edilməsi qarşısında maneə olduğu halda, mənanın özü kimi görünür. Məhz buna görə də şair dünyanı hər şeyi baş-ayaq göstərən suya, yaxud da tərsinə yozulan yuxuya bənzədir. Niyazi Mehdiyevin şərhində isə bu misralarda «zidd tərəflərin bir-birinə keçidi» fikri aşkar edilir [66, s. 49].

Əvhədinin təsəvvüf təlimi əsasında formalaşan nəzəri-fəlsəfi fikirləri məsnəvinin sonunda ölümdən sonrakı axirət həyatının təsviri, ruhun təmizlik dərəcəsindən asılı olaraq yüksələcəyi mövqeyin şərhi ilə tamamlanır. Bu hissədə şairin mülahizələri daha çox təsviri xarakter daşıyır. O, ölümdən sonra ruhun öz əslinə qovuşmaq istəyini, lakin dünyəvi həyatdakı günahlarının bu istək qarşısında maneə olduğunu təsvir edərək, bir növ dini əxlaqın vacibliyini vurğulayır.

Əvhədinin "Cami-Cəm" məsnəvisində insan və onun Allah, dünya ilə münasibətləri barəsində irəli sürdüyü fikirlər, göründüyü kimi, normativ təsəvvüf fəlsəfəsindən bir o qədər də fərqlənmir.

"Cami-Cəm" məsnəvisini özünəqədərki sufi eposlarından (Sənainin "Həqiqətül-həqaiq", Əttarın "Məntiqut-teyr", Ruminin "Məsnəvi"si) fərqləndirən başlıca xüsusiyyət şairin təsəvvüfi, nəzəri-fəlsəfi fikirlərlə yanaşı, sosial həyat, onun problemləri, insan məişətinin ayrı-ayrı sahələri haqqında da geniş mülahizələrə yer verməsidir. Biz əsərdə belə sosial problemlər və məişət xırdalıqları ilə ikinci fəslin birinci hissəsindən rastlaşırıq. Əvhədini daim düşündürən məsələlərdən biri dünyada sosial harmoniyanın bərpası olmuşdur. O, dövlət məmurları tərəfindən insan hüquqlarının tapdalanmasını, kasıb kəndlilərin əməyi ilə məmur harınlığını böyük nigarançılıqla təsvir edir. Nizaminin "Sirlər xəzinə-

si"ndə olduğu kimi, Əvhədi də hüquqları tapdalanan qoca qarının ahından şahları çəkinməyə çağırır:

*Dul qadın öz bağından gül dərməmiş,*
*Meyvəni, odunu sərhəng daşıyır.*
*O, qaranlıq gecələrdə ip əyirir,*
*Gündüz çörəyi qanı ilə yoğrulur.*
*Sonra da belə bir zülmə düçar olur.*
*Pisləri sən özün qılıncla, Allah!*
*Gecə yarı qarının çəkdiyi ahdan*
*Asimanın yeddi üzü də qaralar.* [64, s. 70]

Bəs cəmiyyəti nizama salmaığın yolu nədədir? Şairə görə, heç bir qayda, qanun, tabu kimsəsiz bir qarının hüquqlarını belə tapdalamağa yol verməyən harmonik cəmiyyət qurmağa qadir deyil. Şair belə hesab edir ki, harmonik cəmiyyət bəşəriyyətin əqli və mənəvi təkamülü nəticəsində qurula bilər. **Sufi mütəfəkkir olan Əvhədinin şərhində bütün qeyri-insani aktları insan nəfsi törətdiyi kimi, onu aradan qaldırmağa da ali zəka və mənəviyyat qadirdir. Başqa sözlə, Əvhədinin humanizmi, ictimai ədalət idealı mənsub olduğu təsəvvüf təlimindən kənar olmayıb, əksinə, onun nəzəri-fəlsəfi fikirlərinin məntiqi davamıdır.**

Məhz bu cəhəti nəzərə alaraq Azadə Rüstəmova yazır: "Xalqın, xüsusən zəhmətkeş kütlələrin ruhunu oxşayan, onun hüquqlarını müdafiə edən mütərəqqi sufi-panteistlərin dünyagörüşü ilə Əvhədi hümanizmi arasında bir uyarlıq, yaxınlıq var idi" [67, № 8, 1975]. Əlbəttə, "Əvhədi humanizmi" ifadəsi altında onun ictimai ədalət idealı, cəmiyyəti harmonik görmək istəyi nəzərdə tutulur və bu ideyalarla sufilərin ictimai fikirləri arasında çox böyük uyğunluq var. Təəssüflə qeyd etməliyik ki, mövcud tədqiqatlarda Əvhədinin dünyagörüşünün birtərəfli, ifrat sosioloji yöndən yanlış şərhi ilə də rastlaşırıq. Biz belə bir meylə mərhum M. İbra-

himovun "Cami-Cəm"və sufizmin bəzi məsələləri barədə" məqaləsində rast gəlirik. Müəllif "Cami-Cəm" məsnəvisi üzərində mülahizələrini irəli sürərkən poemada bir-birindən kəskin şəkildə fərqlənən, bir-birinə zidd iki istiqamətin – həyati, dünyəvi və dini-mistik meyllərin mövcudluğu qənaətini irəli sürür. Bütün əsərin təhlili bu iki istiqamətdən birincinin üstünlüyünün sübutuna həsr olunur. Məqalədə "Cami-Cəm" əsəri Cəlaləddin Ruminin "Məsnəvi"si ilə müqayisə edilərək həyatiliyin birincidə daha qabarıq olması amilinə əsasən üstünlük birinciyə verilir: "Təbiidir ki, "Cami-Cəm"də də belə rəmzlər (Cəlaləddin Ruminin "Məsnəvi"-sindəki sufi rəmzlər nəzərdə tutulur - S.X.) az deyil. Lakin Əvhədi həyat hissinin, humanist görüşlərin təsiri ilə onları çox vədə insanın real duyğularını, təbii həvəs və ehtiraslarını ifadə edən poetik obraz və metaforalara çevirir ki, bu da onların sufi mənasını bir növ dumanlandırır, ikinci plana çəkir" [68, № 2, 1975].

«Cami-Cəm» əsərindəki istər ictimai problematika, istərsə də adi məişətin xırdalıqları barədəki mülahizələr şairin sufi fəlsəfə əsasında formalaşan nəzəri mülahizələri ilə heç bir ziddiyyət təşkil etmir. Bu barədə yuxarıda kifayət qədər söhbət açdıq. Belə yanlış tendensiya tədqiqatçının bədii mətnə hazır konsepsiya ilə (dünyəviliyi dindən ayırıb xüsusi konsepsiya səviyyəsinə qaldırma) yanaşmasından irəli gəlir. Çünki tədqiqatçı hələ mətnə yanaşmadan öncə "təriqət şairi humanist ola bilməz" stereotipini qəbul edir. Bunu müəllifin aşağıdakı müddəası da təsdiq edir: "Biz Əvhədini təriqət şairi, sufi şair kimi deyil, humanist şair kimi qiymətləndiririk" [68, № 2, 1975].

Tədqiqatın ifrat sosioloji qatılığı ən sonda müəllifi belə bir qənaətə gətirib çıxarır ki, sufizm və humanizm bir-birinə zidd anlayışlardır. Guya "onun əsərlərində dini, mistik anlayışlar dünyəvi hisslərlə toqquşur, əsasən, dünyəvi hisslər qalib gəlir", [68, № 2, 1975] – qənaəti əsərdə

ictimai problemlərlə təsəvvüfi-nəzəri məsələlərin toqquşmasına əsaslanır.

"Cami-Cəm" məsnəvisində birinci fəslin ikinci hissəsindən başlayaraq müəllif təsəvvüfün əməli, praktiki məsələləri haqqında söhbət açır, həqiqətə qovuşmaq üçün sufinin yaşamalı olduğu həyat tərzini incə təfsilatına qədər təsvir edir. Əsərin birinci hissəsində şəriətə əsaslanan kütlənin yaşayışının ("Qabusnamə"də olduğu kimi praktiki aspektdən), ikinci hissədə isə sufinin həyat tərzinin ardıcıllıqla izahı müəllifin hər iki həyat tərzini məqbul hesab etməsini, lakin onların növbələşməsində ikincisini fövqəladə ali məqam kimi dəyərləndirilməsini sübut edir.

Şair bu çətin yola qədəm qoyanlara:

*Bu fani danışıqlara son qoy,*
*Üzünü məna aləminə tut!* -[64, s. 151]

deyə müraciət edir. Şair sufi mütəfəkkir kimi həqiqətə qovuşmaq yolunda mürşidin vacibliyini vurğulayır, mürşidliyin əxlaqi keyfiyyətləri haqqında geniş məlumat verir. Bundan sonra "tövbə", "xəlvət", təcrid", "üzlət", "zöhd", "ixlas", "təvəkkül", "təslim" və s. kimi təsəvvüfün əməli qisminə aid istilahlar haqqında ardıcıl məlumat verir, gedilən yolda bu mərhələlərin izahından sonra şair salikdə hasil olan eşqin tərənnümünə və şərhinə başlayır. Əvhədinin şərhində eşq yalnız təsəvvüfi-fəlsəfi anlamdadır:

*Asimanları ancaq eşq ilə dolanırlar,*
*Ulduzlar da həmin dərddədirlər.*
*Eşq, sənin camın və şərabın (elə bunlar) bəsdir,*
*Möhnət aşiqliyi və sənin əzabın (elə bunlar) bəsdir.*
[64, s. 203]

Şairin eşq haqqında fəlsəfi mühakimələri, onu ali bir nemət kimi dəyərləndirməsi Nizaminin eşqə münasibətini xatırladır və bu ali dəyərin qlobal, kosmik kontekstində

şərhi bizcə, birbaşa Nizami varisliyinin nəticəsidir. Nizamidə olduğu kimi, Əvhədidə də eşq və kamillik anlayışları bir-birinin tamamlayıcısı kimi təqdim edilir:

*Hər kim aşiq deyilsə, tamamlanmayıb,*
*Kim eşqə düşübsə, xam qalmayıb.* [64, s. 202]

Və yaxud:

*Ürək camala nəzər salarsa,*
*Bu halı eşq adlandırarlar.* [64, s. 201]

Əvhədi sufi məclislərində texniki vasitələrlə vəcdə gələnlərə qarşı mənfi münasibətdə olmuşdur. Əsərin "Səma haqqında" bölməsindən o, belə bir müddəa irəli sürür ki, səma - musiqi sədaları altında rəqs etmək qeyri-kamillər üçündür:

*Kim ki, vüsal camından məst olar*
*O, hərəkət etməyə meyl etməz.* [64, s. 207]

Əvhədi sufilərin keçib ilahi vüsala qovuşmalı olduğu yolun bütün dolanbaclarını təsvir etdikdən sonra bütün dediklərini ümumiləşdirir, irfanın əvvəli və sonu haqqında bitkin qənaətini irəli sürür:

*Onun görməsi irfanın sonudur,*
*Onun bilməsi irfanın başlanğıcıdır.* [64, s. 212]

Bütün deyilənləri ümumiləşdirib qeyd etmək lazımdır ki, Əvhədi sufi epos ənənələri zəminində yetişən şair kimi fəlsəfi-nəzəri fikirlərində təsəvvüfə əsaslanır, əsərlərindəki sosial motivlər də bu kontekstdədir. Mənəvi gözəlliklə yanaşı ictimai gözəllik də onun arzusu olmuşdur. Lakin bu, xüsusi konsepsiya olmayıb, ümumiyyətlə, şairin estetik

## Türkdilli ədəbiyyatda poetik fəlsəfədən fəlsəfi poeziyaya keçid: İzzəddin Həsənoğlu və Qazi Bürhanəddin

Farsca şeir ənənəsinin zəifləməsi və oğuz-səlcuq mədəniyyətinin yaranması XIII-XIV əsrlər bədii fikrimizdə baş verən dəyişikliklərdəndir. Azərbaycan mədəniyyətini də içinə alan oğuz-səlcuq mədəniyyəti bu dövrdən etibarən tədricən müsəlman mədəniyyəti daxilində avtonomluğa can atir. Bu proses ümummüsəlman mədəniyyəti standartları ilə türk təfəkkür tərzi normativlərinin qarşılıqlı güzəşti və sintezi ilə nəticələnir.

Əgər təsəvvüf ümummüsəlman mədəniyyətinin ideoloji bazası kimi IX-XII əsrlərdə ərəb və fars təfəkkür tərzinin məhsulu kimi iştirak edirsə, XIII əsrdən etibarən türkdilli şairlərin yaradıcılığında daha çox milli, qövmi xarakter kəsb edir.

**XIII-XIV əsrlərdə Azərbaycan ədəbiyyatında klassik poetik təfəkkürdə farsdilli poeziyadan türkdilli poeziyaya keçid baş verməklə yanaşı, ümumşərq standartlı təsəvvüf ədəbiyyatından milli təsəvvüf ədəbiyyatına da keçid baş verir. Ümumən, çox mürəkkəb olan bu prosesin ağırlığını Həsənoğlu, Qazi Bürhanəddin, Nəsimi poeziyası əks etdirir.**

Azəri ləhcəsində ilk şeir yazan, təsəvvüflə sıx bağlı Həsənoğlunun yaradıcılığından günümüzə cəmi bir neçə şeir nümunəsinin gəlib çıxması formalaşmaqda olan türkdilli Azərbaycan təsəvvüf ədəbiyyatında bu prosesləri izləmək imkanımızı nisbətən məhdudlaşdırır. Lakin əldə olan şeir nümunələri də türkdilli Azərbaycan poeziyasının ya-

randığı ilk anlardaca təsəvvüfün poeziyada geniş vüsət aldığını izləməyə imkan verir.

Qafqaz - Kiçik Asiya etnik kulturoloji regionunda türkdilli ədəbiyyatın yaranması, türkologiyada sabitləşmiş qənaətə görə, Mərkəzi (Orta) Asiya regionu ilə mədəni əlaqələrin nəticəsidir [69, s. 40]. İndiyə qədərki tədqiqatlarda Azərbaycanda türkdilli ədəbiyyatının yaranmasında ətraf türk kulturoloji regionlarının təsiri göstərilmirdi. Bu da azəri türkcəsində ilk "Divan" müəllifi olan Həsənoğlunun yaradıcılığının ideya baxımından haradan qidalandığını, genezis etibarilə nəyə dayandığını aydınlaşdırmağa imkan vermirdi. İzzəddin Həsənoğlunun XIII əsrdə azəri türkcəsində təsəvvüfi şeirlər yazması Orta Asiya etnik kulturoloji regionu ilə artan əlaqələrin nəticəsi idi. Tədqiqatçılardan İ.Hikmət Həsənoğlunun Əhməd Yəsəvi "Divan"ı ilə tanışlığını bəyan edir. Hətta onun mürşidinin də Əhməd Yəsəvi müridlərindən olması ehtimalını irəli sürür [49, s. 147].

Mənbələrin verdiyi məlumata görə, İzzəddin Həsənoğlu dövrünün məşhur sufilərindən olan Şeyx Camal Zakirin müridlərindən olmuşdur [70, s. 13]. Çox təəssüf ki, Şeyx Camal Zakirin başçılıq etdiyi təriqət haqqında da mənbələrdə heç bir məlumat yoxdur. Hasibə Mazıoğlu "Füzuli və Hafiz" kitabında isə İzzəddin Həsənoğlunun "Divan"ının olduğunu qeyd etmişdir [71, s. 13].

Şairin "Apardı könlümü" qəzəli onun istedadlı bir şair olub, Azəri türkcəsində kamil əsərlər yaratdığına dəlalət edir. İlahi eşqin simvollarla əyaniləşdirilməsi kimi dildən uzun əsrlər ərzində formalaşa biləcək ifadə imkanı tələb edən mürəkkəb bir formada (fəlsəfi-didaktik deyil!) kamil qəzəl nümunəsi olan Həsənoğlunun bu şeiri qəzəl janrının tələbləri baxımından mükəmməldir [72, s. 42]. Qəzəl aşiqin hicran əzabları və bu əzablara səbəb gözəlin tərənnümü ilə başlayır:

*Apardı könlümü bir xoş qəməryüz, canfəza dilbər,*

*Nə dilbər? Dilbəri-şahid. Nə şahid? Şahidi-sərvər.*
[73, s. 24]

Bu beytdə aşiq ayüzlü bir gözəllər gözəli tərəfindən könlünün aparıldığını, fəth olunduğunu qeyd edir. Beytdə gözəlin atributlarının yüksələn xətt üzrə təsviri (əvvəlcə sadəcə ayüzlü, sonra isə zövq verən olması sadalanır. Lap sonda isə bu dilbərin gözəlliyi və gözəlliyi ilə gözəllərə sərvərliyi diqqət mərkəzinə çəkilir) aşiqin psixoloji ovqatının təsviri üçün zəmin hazırlayır:

*Mən ölsəm sən büti-şəngül, sürahi, eyləmə qül-qül,*
*Nə qül-qül? Qül-qüli-badə. Nə badə? Badeyi-əhmər.*
[73, s. 24]

Birinci misranın normativ oxunuşu: Ey gözəl büt, əgər mən ölsəm, sən qırmızı badəni qül-qül etdirmə. Şair öz sevgilisinə "mənsiz şərab içmə" fikrini poetik şəkildə çatdırır. Nə vaxtsa, gözəllə birlikdə içilən şərabın təsirini ifadə etmək üçün şair badədən şərab tökülərkən çıxardığı səsdən məharətlə istifadə edir.

Məlum olduğu kimi, "şərab" sufi istilahı kimi ilahi eşqin simvoludur. "Şərab" ifadəsindən beytə daxil olmaq üçün açar kimi istifadə etsək, onda məlum olur ki, şairin həsrətini çəkdiyi gözəllə vüsal dəmi "qalu bəladan" əvvəlki ruhun ilahi mahiyyətlə vüsalına işarədir. Növbəti beytdə fikrin bu yöndən inkişafı da bunu bir daha sübut edir:

*Başımdan getmədi hərgiz səninlə içdigim badə,*
*Nə badə? Badeyi-məsti. Nə məsti? Məstiyi-sağər.*
[73, s. 24]

Qəzəlin üçüncü beytində isə artıq öz ilahi mahiyyətindən ayrılan ruhun kəsrət aləmində vəhdətin həsrətini çəkməsi fikri əyaniləşmişdir. Qəzəlin geniş təhlilini verən Ə.Səfərli çox doğru olaraq üçüncü beytdən etibarən sufi məzmunun üzə çıxdığını qeyd edir: "Üçüncü beytdən isə

aşiq elə bil ki, sevdiyi şəngül badədən ayrılır, qülqülü sevinclər haradasa, uzaqlarda qalmışdır. Ancaq sevgilisi ilə içdiyi badə onun başından getməmişdir. Yəni hələ sərxoşdur. Bu ideal, məslək, əqidə, məhəbbət badəsidir. Həm də bu şərabı lirik qəhrəman ən iri içki qabı olan sağərlə içmişdir. Bundan sonra gələn beytlərdə qəzəldəki məhəbbətin vəhdəti-vücud fəlsəfəsi ilə bağlılığı daha da qabardılır" [74, s. 142].

Sitat müəllifinin sağəri xüsusi olaraq vurğulaması aşiqin içdiyi şərabın adi şərab olmadığını bir daha təsdiqləyir:

*Şəha, şirin sözün qılır Misirdə bir zaman kasid,*
*Nə kasid? Kasidi-qiymət. Nə qiymət? Qiyməti-şəkkər.*
*Tutuşmayınca dər ataş bəlirməz xisləti-ənbər,*
*Nə ənbər? Ənbəri-suziş? Nə suziş? Suzişi-məcmər.*
[73, s. 27]

Şəkər satan və müştərisi olmayan bir nəfər misirli öz şirin sözlərindən istifadə edir. Şəkər şirindir. Lakin onun şirinliyi müştəriləri cəlb etmək üçün kifayət deyil. Sözün şirinliyi daha əhəmiyyətlidir.

Növbəti beytdə isə şair öz təsəvvüfi fikirlərini adi bir məişət hadisəsi üzərində qurur: əgər ənbər oda tutulmazsa, xisləti (ətri) bəlli olmaz. İnsanın da mahiyyətindəki ilahi gözəlliyin üzə çıxması üçün o, eşq odunda yanıb qovrulmalıdır.

*Əzəldən canım içində yazıldı surəti-məni,*
*Nə məni? Məniyi-surət. Nə surət? Surəti-dəftər.*
*[73, s. 25]*

Qəzəlin bu beytində təsəvvüfdə geniş yayılmış mikrokosmos (insan) və makrokosmos (varlıq) arasındakı eyniyyətdən söz açılaraq bunaqədərki beytlərdə təsvir olunan lirik qəhrəmanın hicran iztirablarının fəlsəfi izahı verilmiş-

dir. Beytdə ifadə edilən fikri nisbətən sadələşdirək: dəftərin surətinin mənası əzəldən canımın içində yazılıbdır. "Dəftər" deyərkən çox güman ki, şair İslam teologiyasında, xüsusən təsəvvüfdə xüsusi anlayış olan "lövhi-məhfuz"u nəzərdə tutur. "Lövhi-məhfuz" mövcudluğun potensial mərhələsidir. Başqa sözlə, varlığın yaranmamışdan əvvəlki əslidir, orijinaldır [54, s. 27]. Surət isə artıq yaradılmış, aktivizasiya edilmiş mövcudluqdur. Beləliklə, maddi dünyanın "lövhi-məhfuz"un özünü də ehtiva edən mənası insanın canının içində yazılmışdır. Lirik aşiqin hicran əzablarının səbəbi də öz əslindəki mənaya qovuşmaq istəyindən doğur. Eyni zamanda, buradan belə bir fikir də süzülüb çıxır ki, şairin surətə (dilbərə) məftunluğu da surətin arxasındakı mənaya olan vurğunluğundandır.

*Həsənoğlu sənə gərçi duaçıdır, vəli sadiq,*
*Nə sadiq? Sadiqi-bəndə. Nə bəndə? Bəndeyi-çakər.*
*[73, s. 25]*

Sonuncu beytdə bütün qəzəl boyu əvvəl lirik-aşiqanə, sonra isə fəlsəfi şəkildə ifadə edilmiş məramın yekunu kimi şair özünü bütün duaçılardan fərqləndirir: sənə dua edənlər çoxdur, lakin Həsənoğlu qul bəndə kimi sadiq duaçıdır. Onun duası başqalarınınkı kimi ötəri və keçici deyil. Allah qarşısında qulluğunu dərk edən insanın bundan dolayı sevinc hissinin tərənnümü sonuncu beytdə öz əksini tapmışdır.

**Həsənoğlunun bu qəzəli Azərbaycan ədəbiyyatında ərəb və fars poeziyasında geniş şəkildə yayılmış sufi qəzəl ənənələrini özündə əks etdirən ilk türkdilli sufi məzmunlu qəzəl kimi xüsusi mövqeyə malikdir.**

Türkdilli Azərbaycan ədəbiyyatının formalaşdığı dövrlərdə çox kamil şəkildə artıq fars dilində formalaşmış klassik bədii ədəbiyyatın normativ qəlibləri ilə türk təfəkkürünün və deməli, türk poeziya dilinin (hecanın) müxalif

xarakteri Qazi Bürhanəddində çox qabarıqdır. Həsənoğludan fərqli olaraq, təsəvvüf ideyaları Qazi Bürhanəddində zəif hiss olunur. Fuad Köprülü Qazi Bürhanəddinin İran mütəsəvvif şairlərinin təsirinə məruz qaldığını qeyd edirsə də [70, s. 16], bu təsir formal xarakter daşıyıb şeirin canına-qanına hopub fəlsəfi vüsət ala bilmir. Bunun bir səbəbi Qazi Bürhanəddinin tarixi şəxsiyyət kimi siyasi missiyasından qaynaqlanırdı. Qeysəriyyə hökmdarı kimi Qazi Bürhanəddin dövlət idarəçiliyi, hərbi siyasət və s. ilə daha çox məşğul olurdu.

İkinci səbəb isə elə hökmdarlıqdan qaynaqlanaraq Qazinin şair kimi dünyəvi nikbinliyi idi. Onun poeziyasında az-çox nəzərə çarpan təsəvvüf əlamətləri isə mövcud ənənələrdən irəli gəlir. Farsdilli poeziyada müəyyən mistik anlayışlarla yüklənmiş ifadə və təşbehlər mövcud idi ki, onların dünyəvi planda işlədilməsi belə həmin təəssüratı doğururdu.

Qazi Bürhanəddin lirikası haradasa qədim türk alpçılığını əks etdirirdi. Fars poeziyasından gələn təsəvvüfi anlayışları zəifldən digər bir səbəb də bu idi. Heç də təsadüfi deyil ki, Qazi Bürhanəddin təsəvvüf konsepsiyasına müraciət edərkən belə mənəvi kamilləşmədə qəhrəmanlığı daha çox qabardır:

*Ərənlər bu dünyaya qılmaz nəzər,*
*Bunda əqli var kişi qılmaz qərar.*
*Bu dünya kölgədürür, qovar qaçsan,*
*Bir kişi ki qaçar ondan, ol qovar.* [75, s. 680]

Və yaxud sevənlə sevilənin, yarla yarın vəhdəti kimi təsəvvüfdən qaynaqlanan ideyanı əks etdirən aşağıdakı tuyuğ ancaq Qazi Bürhənəddində bu şəkildə təqdim edilə bilər:

*Yar gərək yarı ilə həmrəng ola,*
*Gər nişatü eyşü sülhü cəng ola.*
*Ol iki yarın ki, uyuşmaz bilə,*
*İşləri ortada şişə - səng ola.* [76, s. 18]

Azərbaycan ədəbiyyatşünaslığında Qazi Bürhanəddin "ədəbiyyatda dünyəvi, real duyğuların təsvirinin geniş vüsət almasında xüsusi xidmətləri olan ustad sənətkar" [74, s. 187] kimi qiymətləndirilir.

Dövrünün tanınmış siyasi xadimi olan Qazi Bürhanəddinin poeziyaya intensiv müraciəti onun nikbin arzularının tərənnümünə xidmət edirdi. Bu, bir tərəfdən məşuq obrazının real cizgilərində, digər tərəfdən aşiqin hicran iztirablarının təsvirindəki səthilikdə özünü göstərir:

*Ol türki gözəl aldı canımı,*
*Cadu göz ilə dökti qanumı.* [75, s. 258]

Yaxud:

*Səni sevirəm, əsirgə bəni,*
*Aldun qoymadun bəndən bənimi.*
*Sonum budur ki, belinə irəm*
*Tiz verə qələb nazik saçımı.* [75, s. 274]

İ.Hikmətin aşağıdakı mülahizəsi Qazi Bürhanəddin yaradıcılığında təsəvvüfün xarakteri haqqında dolğun təsəvvür yaradır: "Heç bir zaman təsəvvüf Qazü Bürhanəddində bir qayə görülməmişdir. Bütün həyatı və ictihadı etibarilə bir həyat adamı olan bu canlı şair fikirlərinin, hisslərinin, həyəcanlarının tərcümanı olan şeirlərində tamamilə həyati olmuşdur" [49, s. 162].

## Sənət və təriqət bütövlüyünün fəlsəfi poeziya kodu: İmadəddin Nəsimi

Yaradıcılığında təsəvvüfi ideyaların bütöv bir konsepsiya təşkil etdiyi XIV əsr türkdilli Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi İmadəddin Nəsimidir. Varlığa poetik və fəlsəfi baxışlar tipini yaradıcılığında bir ortaq məxrəcə gətirən İmadəddin Nəsimi fəlsəfə və poeziya məhrəmliyinin, sənət və təriqət büyövlüyünün ən parlaq nümayəndəsidir.

Digər klassik şairlərimizdən fərqli olaraq, Nəsimi bilavasitə fəlsəfi təlim zəminində yetişmiş şairdir.

"Nəsimi həqiqəti dərk etməyin yeganə düzgün yolunu dövrünün mütərəqqi fəlsəfi-fikri cərəyanı olan hürufilikdə tapmışdır. Onun şeirlərində güclü lirizmlə qovuşuq verilən fəlsəfi ideyaların əsası hürufilikdir" [77, s. 78].

Hürufilik təliminin əsasını Fəzlullah Nəimi qoymuşdur. Xoşbəxtlikdən, Fəzlullah Nəiminin hürufiliyin nəzəri əsaslarını şərh edən elmi risalələri ("Cavidannamə", "Məhəbbətnamə", "Yuxunamə", "Vəsiyyətnamə") tarixin sınaqlarından çıxaraq günümüzə qədər gəlib çatmışdır. Həmin əsərlər bizə Hürufiliyin nəzəri-fəlsəfi əsaslarını öyrənməkdə, onun digər universal dini-fəlsəfi təlimlərlə oxşar və fərqli cəhətlərini üzə çıxarmaqda kömək edir.

Antoloji baxışlar sisteminə görə, təsəvvüfdən bir o qədər də fərqlənməyən hürufilik hərflərə ilahi münasibətə görə Şərqin digər fəlsəfi təlimlərindən seçilir. Hürufilərin qənaətinə görə, varlıq səslər vasitəsilə zühur edir. Səs qeyb aləmindən eyn aləminə gələrək maddi varlığı bürüyən hər

şeydə vardır. Səsin ən kamil forması sözdür ki, bu da insan nitqində təzahür edir. Sözlər hərflərdən meydana gəldiyi üçün hürufilər hərfi sözün əsası hesab edirdilər. Müqəddəs Qurani-Kərim iyirmi səkkiz ərəb, Fəzlullah Nəiminin "Cavidannamə" əsəri isə otuz iki fars hərfi vasitəsilə yazılmışdır. Fars əlifbasında mövcud olub ərəb əlifbasında olmayan dörd hərf Quranda "Ləm əlif" vasitəsilə işarə edilmişdir.

Hürufilər insanı müqəddəsləşdirərkən onun sifət cizgilərini mistik yöndən mənalandırırdılar. İnsanın üzündə yeddi qara xətt mövcuddur: iki qaş, dörd kirpik, bir saç. İnsan bu xətlərlə birgə doğulduğu üçün bu xətlər "ana xətlər" adlanır.

Kişilərdə həddi-buluğ çağından sonra yeddi xətt meydana gəlir. Bu xətlər hamısı birlikdə, yerləri də nəzərə alınmaqla, iyirmi səkkiz edir. Bu da ərəb əlifbasının hərflərinin sayına bərabərdir.

Hürufilərin nəzərincə, insan timsalında inkişaf üç mərhələyə ayrılırdı: nübüvvət, imamət və üluhiyyət. Hübüvvət Adəm peyğəmbərlə başlayıb Həzrəti Məhəmmədlə sona yetmişdir. İmamət İmamət Əli ilə başlayıb on birinci imam Həsənül-Əsgəri ilə sona yetmişdir. On ikinci imamla eyniləşdirilən Fəzullahla isə üluhiyyət mərhələsi başlamışdır. Fəzlin zühuru son zühurdur. Ondan sonra gələn kamillər ancaq ona itaət etməlidirlər.

Hürufilik üzərində tədqiqat aparan əksər tədqiqatçılar çox doğru olaraq belə bir qənaətə gəlmişdilər ki, bu təlim özünə qədər mövcud olmuş oxşar təlimlərin sistemləşdirilməsi nəticəsində yaranmışdır. Hələ antik dövrlərdə Pifaqor hərflərin mistikasına dair fikirlər söyləmişdir. Analoji fikir axınlarına Kabbalizm nəzəriyyəsində də rast gəlinir. Təsəvvüf meydana gəldikdən sonra böyük mütəsəvviflərdən Həllac Mənsur və İbn Ərəbi də hərflərə mistik məna verməyə cəhd göstərmişdilər [78, s. 148]. Nəhayət, bütün

bu fikirlər Fəzlullah tərəfindən nəzəri sistem halına salınmışdır. Təsəvvüflə hürufilik arasındakı oxşarlıqları diqqət mərkəzinə çəkən Gölpınarlı yazır: "Fəzlullah bu uydurma dini qurarkən təsəvvüfdən də çox bəhrələnmişdir. Vəhdəti-vücud inancında kainat Mütləq varlığın zühurudur. Bütün aləm Mütləq Varlığın bilgisindən sabit olmuş, bu sübut kainatı izhar etmişdir. Göylərin dönüşündən ünsürlər meydana gəlir; göylərlə ünsürlərin birləşməsindən cansızlar, bitkilər və canlılar zühur edir.

Canlıların kamalı insanda zahir olur. Qüvvət aləmində göylərə, göylərdən ünsürlərə gələn həyat göylərlə ünsürlərin birləşməsindən cansızları, bitkiləri və canlıları meydana gətirir. İnsan son ən kamil varlıqdır; onunla bu dövr sona çatır. Kainatın göz bəbəyi, özü və canı insandır. İnsanların içində buluşan tək insan da (insani-kamil) bütün insanların göz bəbəyi və canıdır" [78, s. 150]. Göründüyü kimi, hürufilikdə insanın ümumkainat miqyasında ən dəyərli varlıq kimi qabardılması da təsəvvüfün antoloji baxışlar sisteminə əsaslanır.

Hürufiliyin fəlsəfi əsasında panteizm dayanır. Avropamənşəli bu termin hürufiliyə şamil edilərkən Qərb fəlsəfəsində ifadə etdiyi mənasını müəyyən qədər dəyişir. Belə ki, Qərb fələfəsində, əsasən, Allahla təbiətin eyniləşdirilməsi kimi təfsir edilən panteizm orta əsrlər Şərq dini-fəlsəfi təlimlərinə, o cümlədən hürufiliyə şamil edildikdə təbiətin, kainatın Allahda əridilməsi anlamında işlədilir. Şərq panteistləri yeganə substansional müstəqilliyə malik varlıq kimi Allahı qəbul edir, yerdə qalan bütün mövcudatı isə törəmələr, empiriklər sırasına daxil edirdilər. Qərb fəlsəfəsində panteizm idealizmdən materializmə doğru fikri inkişafın xüsusi bir mərhələsi kimi meydana çıxır. Şərqdə isə panteizm şəriət ehkamlarından uzaqlaşma istiqamətində ifrat idealizmə yaxınlaşmanın xüsusi bir mərhələsidir. Başqa sözlə, İbn-Ərəbi təbiəti Allahda, Spinoza isə Allahı tə-

biətdə əritmələri ilə bir-birindən fərqlənirlər. Şərq panteistlərinin nəzərincə, yeganə mövcud olan Allahdır, yerdə qalan hər şey: kosmos da, təbiət də yoxdur. İnsana gəldikdə isə, sufilər də, hürufilər də məsələyə bir az başqa cür yanaşırdılar.

İnsan vəhdəti-vücudçuların əqidəsincə, böyük aləmin analoji paralelidir; makroaləmi özündə əks etdirən mikroaləmdir. Nəiminin şərhində isə mikroaləm (insan) makroaləmin eyni kimi təqdim edilir. Məlumdur ki, ad, deyə Nəimi yazırdı, adlandırılanın eynidir. İnsan isə Allahın ən böyük adıdır. Nəzəri-fəlsəfi əsasları bir-birinə çox yaxın olan, hətta demək olar ki, eyni olan sufilik və hürufilik ad və adlandırılanın eyniyyəti konsepsiyasında bir-birindən fərqlənirdi. Məhz buna görə də hürufilik adın, sözün, hürufun təlimi kimi meydana gəlmişdir.

Sözün təlimini - hürufiliyi yaradan Nəimi ilə təlimin sözünü, poetikasını yaradan Nəsimi arasında aşiq-məşuq sevgisini belə kölgədə buraxan mürşid-mürid mərhəmliyi olmuşdur. Nəsiminin sufi terminologiya, hürufi simvolika, məcazlaşdırılmış dini obrazlarla zəngin poeziyasında mürşidə və məşuqa qarşı olan sevgi bir-birindən fərqlənmir. Şairin məşuqa müraciətlə dediyi istənilən bir qəzəli mürşidə və ya əksinə aid etmək olar. Nəsimi üçün hürufilik həqiqətə aparan yol, Nəimi isə bu yolun bütün dolanbaclarına, enişinə-yoxuşuna bələd yol bələdçisi idi.

Nəsimi poeziyası orta əsrlərin məfkurə məhdudiyyətinə qarşı yönəlmiş fikrin üsyanıdır. İstər ayrılıqda Azərbaycan, istərsə də bütövlükdə ümumtürk bədii fikri tarixində şair və ictimai mühit konflikti az-az hallarda bu qədər kəskin xarakter alır. Şərqdə, o cümlədən Azərbaycanda Nəsimidən əvvəl və sonra yaşayıb yaratmış bütün şairlər "gərdun", "fələk", "dövr", "dünya" və s. ifadələr altında ictimai mühitə qarşı etiraz edirdilər. Əslində, poeziya bu etirazsız mümkün də deyil. Çünki əsl poeziya harmoniyaya – gö-

zəlliyə heyrətdən, xaosa – naqisliyə etirazdan doğulur. Nəsimidən iki yüz əvvəl Nizaminin, təxminən bir o qədər sonra Füzulinin ictimai mühitlə qarşıdurmaları fonunda Nəsimi və mühit konfliktinin özünəməxsusluğu daha aydın görünür. Sosial həyatın strukturu, cəmiyyətin sosial təbəqələri, onlar arasında münasibətlər, ədalətli hökmdar və s. ictimai problemlər üzərində ciddi düşünən Nizami də mövcud cəmiyyətlə gizli müxalifət vəziyyətində yaşamışdır. Bununla yanaşı, Nizami mühitlə münasibətlərində əqli mühakimə yürütmək üçün müəyyən ara məsafə saxlayırdı. Sosial ədalətsizliklər Nizamini dəhşətə gətirmir, ciddi düşündürürdü. Və onun yaratdıqları bu düşüncələrin nəticəsi kimi meydana çıxırdı. Nəsimidən yüz əlli il sonra isə Füzuli şair və mühit konfliktini, ümumiyyətlə, insan və zaman təzadını məlum "məcnunluq" fəlsəfəsi ilə həll edir. Bütün ictimai normalara, ənənəvi əxlaq stereotiplərinə, normativ baxışlar sisteminə etiraz əlaməti olaraq cəmiyyəti tərk etmək! Əslində isə "məcnunluq" fəlsəfəsi insan və zaman konfliktinin nizama tabe etdirilməsinin, həll edilməsinin qeyri-mümkünlüyü qənaətinin nəticəsi idi. O yerdə ki, aşiq zamana kompromisə getmir (Füzulidə belə bir kompromis qeyri-mümkün idi), oradan məcnunluq başlayır.

Hər iki şairdən fərqli olaraq, Nəsimi mühitlə üzbəüz döyüş məqamındadır. Nəsimi nə sələfi kimi nəsihət, nə də xələfi kimi şikayət edir... O, üsyan edir. Bu üsyan cəmiyyətin ayrı-ayrı sferalarını əhatə edən qüsurlara qarşı deyildir. Ayrılıqda şairi nə müharibələr, nə sosial ədalətsizlik, nə riyakarlıq, nə də zahidlik narahat edir. Şairin üsyanı cəmiyyətin bütün sosial bəlalarının kökündə dayanan mənəvi naqisliyə qarşı yönəldilmişdir. Cəmiyyətin alt qatında, kökündə dayanan və onun (cəmiyyətin) bütün qüsurlarının yeganə səbəbi olan mənəvi naqisliyi Nəsimi ona görə bu qədər dəqiqliklə görə bilir ki, özü cəmiyyətin fövqünə -

mənəvi kamillik məqamına yüksəlir. Şair çıxış yolunu da bütün bəşəriyyətin bu məqama yüksəlməsində görür:

*Naqis vücudə çün kim, nöqsan gəlir həmişə,*
*Cəhd eylə kamil ol kim, gəlməz kəmalə nöqsan.*
[79, s. 76]

Nəsimidə cəmiyyətin sosial təbəqələri təsnifatı da iki qatdan ibarətdir: kamil və naqis təbəqə. Şair Nizamidən də, Füzulidən də fərqli olaraq, sanki cəmiyyətdə idarəetmədə mövqe, mülkə sahiblik prinsiplərinə əsaslanan təbəqələri görmür. Bütün bu təbəqələr Nəsimi poeziyasında bir obrazda ümumiləşir: qafil obrazında. Şair-zaman konflikti bu poeziyada birbaşa qafilin şah üzünə tuşlanan üsyankar monoloqlarda əyaniləşir:

*Ey özündən bixəbər qafil, oyan,*
*Haqqa gəl kim həq deyil batil, oyan,*
*Olma fani aləmə mail, oyan,*
*Mərifətdən nəsnə qıl hasil, oyan.* [80, s. 576]

Nəsimi poeziyasının fəlsəfi təlimlə sıx bağlılığını nəzərə alaraq, onun zamanla münasibətlərini üsyan səviyyəsinə qaldıran səbəblər də Şərqdə fəlsəfi fikrin ümumi inkişafı fonunda aşkarlanmalıdır. Orta əsrlər Şərqdə fəlsəfi fikrin şəriət ehkamlarından uzaqlaşma istiqamətində hərəkəti mütəmadi olaraq zahidin ehkam qalası ilə rastlaşıb, müftinin, şeyxin "kafir", "bidətçi" damğaları ilə möhürlənib. VIII əsr İslamın öz bətnindən doğulan təsəvvüf XI əsr sərhədlərinə qədər hər addımda zahidin ehkam çəpəri ilə toqquşa-toqquşa, müftinin, şeyxin "kafir", "bidətçi" tənələrinə dözə-dözə gəlib çıxıb. Elə ilk start anlarından poetik fikir geniş nüfuz qazanmaqda, xalqın beyninə, qəlbinə nüfuz etməkdə fəlsəfi fikrin ən yaxın silahdaşı olub.

Şəriətdən uzaqlaşma istiqamətində hərəkətin həqiqətə doğru yön aldığını ortodoksal İslam XI əsrdə qəbul etdi.

XIV əsr türk təfəkkürü isə sufiliyin bətnindən hürufiliyi doğdu. Hürufilik fəlsəfi fikrin şəriətdən uzaqlaşma ilə yanaşı, sufilikdən də uzaqlaşması istiqamətində həqiqətə doğru növbəti bir yaxınlaşma mərhələsi idi. Bir vaxtlar sufi və zahid arasında baş verən konflikt indi hürufi və zahid, eyni zamanda o qədər kəskin xarakterdə olmasa da, hürufi və sufi arasında baş verirdi. Bu dəfə də poetik fikir Nəsiminin timsalında türk təfəkkürlü, farsdilli hürufilik təliminə türk təfəkkürlü, türkdilli poeziya ilə kömək əlini uzatdı.

*Məni mən etmə, ey zahid, güvənmə zikrə, ey sufi,*
*Ki, sən məğrursan zikrə, mənəm müştaq didarə.*
[81, s. 18]

Nəsiminin zahid və sufiyə eyni kontekstdə müraciəti heç də təsadüfi deyil. Sufilərin arasında həmfikir tapmaq istəyən şair onların timsalında özünə barışmaz düşmən görürdü. Mənbələrin verdiyi məlumata görə (Qeybi Sünüllahın "Söhbətnamə" əsəri), ustadının edamından sonra Anadoluya gələn Nəsimi bəktaşilərin şeyxi Hacı Bayram Vəli ilə görüşmək istəmiş, lakin şeyx görüşdən boyun qaçırmışdır.

Bəli, ortodoksallıq növbəti mərhələdə fikrin həqiqətə doğru inkişafına güzəştə getmədi. Bəlkə də ona görə ki, Şərq ikinci Qəzalini yetişdirmədi...

Şəriət ehkamlarından həqiqətə yaxınlaşma istiqamətində məsafə nə qədər çox olarsa, saliklə (həqiqətə doğru gedən) zahid arasında konflikt bir o qədər kəskin olur. Nəzərə alsaq ki, zahid Nəsiminin dövründə mühitin bütün simasını təşkil edirdi, onda Nəsimi ilə mühit arasındakı konfliktin dərinliyi, onun zamana qarşı etirazının üsyan səviyyəsi aydın olar.

Əlbəttə, bu, yeganə səbəb deyildi. Digər bir səbəb isə Nəsiminin özü ilə cəmiyyət arasında diplomatik münasibət qurmaması idi. Baxmayaraq ki, Nəimi "Vəsiyyətnamə"

əsərində cəmiyyətlə münasibətlərdə kompromisin vacibliyini öz müridlərinə, o cümlədən Nəsimiyə dönə-dönə tövsiyə edir [82, s. 196]. Bu tövsiyəyə əməl etmək üçün Nəsimi öz mürşidinin əlindən alıb nuş etdiyi elm və eşq şərabının məstliyindən ayılmalı, öz şəxsi taleyini düşünəcək səviyyəyə enməli idi. Nəsimi canı qədər sevdiyi mürşidinin tövsiyəsinə bircə dəfə əməl etmir və xoşbəxtlikdən edam gününə qədər elm və eşq məstliyinin təsirindən ayılmır.

Əgər XIV əsrdə ehkamçı din xadimləri Nəsiminin dərisini soyublarsa, XX əsrin din əleyhdarları alt qatdan sinfi mübarizə rüşeymləri, realizm ünsürləri, intibah əlamətləri çıxarmaq məqsədilə onun irsini soyublar. Lakin Nəsimi poeziyasında mistik pərdə, dəri hesab edilən cəhətlər bütöv bir fəlsəfi sistemin mahiyyətini təşkil etdiyi üçün şairin dili bu gün də "kəşfedilməz quş dili" olaraq qalmaqdadır. Ötən əsrin 70-80-ci illərə qədərki tədqiqatların əksəriyyəti məlum səbəbdən öz fəlsəfi metodologiyasına görə dialektik materializmə əsaslanmışdır. İnsanı zaman və məkan çərçivəsindən çıxaran, onu kosmik həddən də aşaraq ilahi mahiyyətə - Allaha qovuşduran Nəsimiyə sırf dialektik materializm meyarları ilə yanaşmanın nəticəsi olaraq bəzən Hegelin dialektikası kimi Nəsiminin hürufiliyi də ayaq-baş düşmüşdür. Bu ayaq-başlığın nəticəsi kimi Nəsimi poeziyasında Allah zaman və məkan çərçivəsinə müncər edilmişdir.

Azərbaycan ədəbiyyatşünaslığında H.Araslı, M.Quluzadə, Salman Mümtaz kimi tədqiqatçıların Nəsiminin həyat və yaradıcılığı üzərindəki araşdırmaları, Nəsiminin dövrü, həyatı, yaradıcılığı ilə əlaqədar dəyərli işlər olsa da, bu tədqiqatçılar onun şeirlərinin hürufiliklə əlaqəsini və bu əlaqənin xarakterini nisbətən üzdən şərh etmişlər [83; 84; 85, s. 278-288]. Zümrüd Quluzadənin "Hürufilik və onun Azərbaycanda nümayəndələri" kitabı isə ilkin mənbələrə əsaslanmaq, zəngin informativlik baxımından əhəmiyyətli

olmaqla bərabər, hürufiliyin mahiyyətini ifrat sosioloji aspektdən şərh edir [86].

**Nəsiminin varlığı dərketmə modelinin struktur bütövlüyü yalnız bu bütövlükdə ifrat vəhdəti-vücud məzmunu kəsb edən Haqq(Allah), Cahan, İnsan, Söz anlayışlarından ibarətdir.** Ümumi poetik-fəlsəfi dünyagörüşün mikrostrukturları statusunda olan bu anlayışlardan birini şairin varlığı dərketmə modelinin özü ilə eyniləşdirmək (özü də vəhdəti-vücud məzmunundan məhrum edərək) yanlış nəticələrə gətirib çıxaran səmərəsiz metoddur. Nəsimi poeziyasında bu modelin struktur mürəkkəbliyi ifrat vəhdəti-vücud məzmunu ilə bağlıdır. Nəsimidə varlığın vahidləşdirilməsi Xaliqin məxluqda (cahan, insan, söz mikrostrukturlarında) təcəssümü səviyyəsində deyil, Xaliqlə məxluqun tam eyniləşdirilməsi səviyyəsindədir.

### 1. Haqq (Allah)

Nəsimi təfəkkürünün miqyasını müəyyənləşdirmək üçün heç bir ölçü-mizan yaramır. Adətən, ifrat məfkurə genişliyini kosmik meyarlarla müəyyənləşdirirlər. Nəsiminin təfəkkür genişliyində isə kosmos özü kiçicik bir nöqtədir. Bunun başlıca səbəbi Nəsiminin mənəvi təkamül, daxili kamilləşmə yolu ilə Allahla vəhdətdə bulunması idi. Onun təfəkkürünün fəth etdiyi çevrə o dərəcədə miqyassızdır ki, yalnız zati-mütləq bu qədər miqyassızlıq kəsb edə bilər. Çevrə sözü son, hüdüd, sərhəd anlayışlarını xatırladır. Bizim işlətdiyimiz çevrə anlayışı şərti xarakter daşıyır. Onun hüdudu hüdudsuzluqdur. Necə ki, şair özü rubailərinin birində deyir:

*Dalmışam şol bəhrə kim, payanı yox,*
*Düşmüşəm şol rəncə kim, xüspanı yox,*
*Görmüşəm şol bədri kim, nüqsanı yox,*
*Bulmuşam şol gənci kim, viranı yox.* [80, s. 577]

Şairin daldığı sahilsiz dəniz əvvəli ibtidasız, axırı intə-

hasız, zaman və məkan fövqündə dayanan Tanrının mahiyyətidir. Nəsimi poeziyasında tez-tez rast gəldiyimiz "tilsimi-pünhan", "sirri-əzəli", "gənci-nihan", "ənəlhəq sirri" və s. bu qəbildən olan ifadələr altında ilahi mahiyyət nəzərdə tutulur.

Orta əsrlər Şərqinin müxtəlif teoloji sistemləri Allahın atributlarının dərkini təfəkkür üçün ən yüksək zirvə hesab edirdilər. Allahın zatı haqqında mühakimə yürütmək bir yana, düşünmək belə günah hesab edilirdi. Nəsimi isə zati-mütləq barədə nəinki mühakimə yürütmür, əslində onun bütün mühakimələri müxtəlif adlar altında zati-mütləq barədə idi. Özü də şair zati-mütləqdən kənar bir obyekt kimi söz açmır, nə danışırsa onun adından danışır. Nəsimidə varlığın panteistləşdirilməsi növbəti mikrostrukturların (cahan, insan, söz) zati-mütləqin içində əridilməsi hesabına aparılır.

**2. "Cahan" mikrostrukturu**

Şairin varlığıdərk modelində cahan mikrostrukturu xüsusilə fərqlənir. Cahan anlayışı Nəsimi poeziyasında çox geniş anlamda, bəzi məqamlarda, ümumiyyətlə, varlıq anlayışının sinonimi kimi işlədilir. Özü də yalnız material varlıq deyil, həm ruhi, həm material varlıq anlamında. Məhz buna görə də cahan aləmi-şəhadəti və aləmi-məlakutu özündə birləşdirir. İlk baxışdan bir-birindən kəskin şəkildə fərqlənən, hətta fəlsəfi qütblər kimi görünən iki aləmi şair adətən eyni kontekstdə dərk və təqdim edir.

İstər dünyamız da daxili olmaqla kosmik kainat, istərsə də cənnəti, cəhənnəmi, mələyi, iblisi ilə birlikdə aləmi-məlakut ibtida və intəha hüdudlarında mövcuddur. Onları birləşdirən ümumi cəhət hər ikisinin məxluq (törədilmiş, yaradılmış) olmasıdır.

Nəsimiyə görə cahanın müstəqil mövcudluğu nisbi xarakterə malikdir:

*Var bu cahandan özgə bizim cahanımız,*

*Surət bu aləm oldu bizə, ol məkanımız.*
*Zatinə həyyü baqi demişlər bu cövhərin*
*Şol kim, bizim xəyalımız olmuş bu canımız.* [81, s. 386]

**Məlumdur ki, Şərq panteizmində tərkidünyalıq meylləri çox güclü olmuşdur. Nəsiminin asketizmi isə tərkidünyalıqdan daha çox, tərkicahanlıq miqyasındadır. Nəinki səni əhatə edən dünya və onun qanunları fövqünə qalxmalı, zati-mütləqdə, fəna dəryasında maddi və ruhi sistemlər formasında mövcud olan cahanın fövqünə qalxmalı...**

### 3. "İnsan" mikrostrukturu

Nəsiminin varlığı dərketmə modelinin mərkəzi mikrostrukturu İnsandır. Nəsimi poeziyasında İnsan obrazı orta əsrlər poetik fikir tarixində ən yüksək zirvəyə qalxır. Bu poeziya başdan-başa "Mən İnsanam" həqiqətinin dərkindən doğan qürur, iftixar hissinin təcəssümüdür. Bu mənada Nəsimi, əlbəttə, insanpərvər şairdir. Lakin Nəsiminin tərif etdiyi İnsanı onun öz fəlsəfi sistemi kontekstindən ayırsaq, bu obraz o cəhətlərdən məhrum olar ki, Nəsiminin təfsirində İnsanı cahanın fövqünə qaldıran, yerin-göyün səcdəgahına çevirən məhz həmin cəhətlər idi.

İnsan bütün yaradılmışlar içərisində yeganə məxluqdur ki, onun mahiyyəti Allaha məxsus cövhərdən - ruhdan ibarətdir. Ruh öz təbiəti etibarilə azadlıqsevərdir. Onun azadlığı isə zaman və məkanın buxovladığı cahanın fövqündədir.

*Ey bülbüli-qüdsi, nə giriftari-qəfəssən,*
*Sındır qəfəsi, tazə gülüstan tələb eylə.* [79, s. 178]

İslamın müqəddəs kitabı Quranda ezoterik və eyni zamanda epizodik şəkildə verilmiş Allah-insan analogiyası

Həllac Mənsur, Nəimi, Nəsimi timsalında ruhun dərkindən dolayı "ənəlhəq" səviyyəsinə qalxır. İnsan öz empirik bədənini məhv etdikdən sonra substansionallıq kəsb edir.

Nəsimi poeziyasında İnsan konsepsiyası iki obraz və onların qarşılıqlı münasibətləri timsalında ümumiləşir: kamil aşiq "Mən" və məşuq "Sən".

**1.Kamil aşiq "Mən"**

*Məndə sığar iki cahan, mən bu cahana sığmazam,*
*Gövhəri-laməkan mənəm, kövnü məkana sığmazam* –
[79, s. 552]

misraları şairin həyat kredosunu və fəlsəfi məramını ifadə etmək baxımından onun bütün yaradıcılığına epiqraf seçilə bilər. Bu misralar öz empirik varlığını məhv edib zaman və məkan fövqünə qalxan "Mən"in hayqırtısıdır. İki cahanı özündə birləşdirib cahana sığmayan "Mən" Allahla vəhdətə qovuşan substansional mahiyyətdir. Zəman, məkan, forma, çəki, ölçü və s. kateqoriyalar materiyanın mövcudluq formaları kimi Allah tərəfindən yaradılıb və deməli, zati-mütləq bütün bunları ehtiva edir.

Nəsimişünaslıqda mübahisələrə səbəb olmuş, tədqiqatçılar tərəfindən bir-birinə zidd şərhlər, izahlar verilmiş "iki cahan" ifadəsinin Nəsiminin mənsub olduğu nəzəri-fəlsəfi sistem kontekstində ətraflı izahına aid xeyli tədqiqatlar vardır. [77,s. 89; 88, s. 16-20; 89, № 2, 1999].

Özünü dərk etmiş kamil aşiq "Mən" öz mahiyyətindəki ruhu vasitəsilə Allahla birbaşa (Xaliqi məxluqda görkəmlə yox!) kontakta girir. Məhz bu anda "Mən" iki cahanı ehtiva edir, lakin özü cahana sığmır.

Və yaxud:

*Mənəm ol tilsimi-pünhan ki, bu gün cahanə gəldim,*
*Əzəli nişansız idim, əbədi nişanə gəldim.*
*Bu tilsimi çünki açdım, zülmata nur saçdım,*
*Bu neçə məkanı keçdim ki, bu cismü canə gəldim.*
[90, s. 171]

Bu beytlər isə ruhun ilahi dərgahdan material sistemə endirilməsini təsvir edir. "Mən" cahana endirilmiş "tilsimi-pünhanın" özüdür. Lakin material sistemdə xüsusi forma (nişan) almış "Mən" sirr olmaqdan çıxır, öz-özünü dərk etmiş Allaha çevrilir.

**2. Məşuq "Sən"**

Nəsiminin aşiqanə qəzəllərinin böyük əksəriyyəti məşuq "Sən"in təsvirinə və sənsizlikdən doğan psixoloji ovqatın ifadəsinə həsr olunub.

İstər Azərbaycan, istərsə də Türkiyə ədəbiyyatşünaslığında Nəsimi lirikasında məhəbbətin "çeşidinin", xarakterinin müəyyənləşdirilməsi mübahisəli olmuşdur. Təsəvvüfi türk ədəbiyyatının Əhməd Yəsəvi, Yunus İmrə, Cəlaləddin Rumi kimi yaradıcılıqları poetik fəlsəfə xarakterli şairlərin tədqiqatçıları olan Türkiyə ədəbiyyatşünasları (Fuad Köprülü, Abdulbaqi Gölpınarlı, Vasfi Mahir Kocatürk) Nəsimi yaradıcılığında ilahi və dünyəvi məhəbbətin qarşılıqlı mövcudluğunu ən yaxşı halda bir-birinə zidd ideya istiqamətinin paralelliyi kimi şərh etmişlər.

Azərbaycan ədəbiyyatşünaslığında isə eyni səhv başqa bir cəhətdən təkrar edilmişdir. Əgər Türkiyə ədəbiyyatşünasları mötədil təsəvvüf meyarları ilə yanaşarkən "insan sevgilinin tərif edilməsini" Nəsimi yaradıcılığında təsəvvüfi ideyalara zidd, normativləşmiş təsəvvüfi məkanda kənaraçıxma kimi qiymətləndirirdilərsə, Azərbaycan sovet ədəbiyyatşünaslığında isə məhz həmin cəhət (insan sevgilinin tərif edilməsi) şairin hər cəhətdən çox mürəkkəb dünyagörüşü kontekstindən çıxarılaraq xüsusi konsepsiya

səviyyəsinə qaldırılmışdır.

Nəsimi lirikasında məhəbbətin mübahisələr doğurması, ümumiyyətlə, məhəbbət çeşidlərinin hər ikisinin (ilahi və dünyəvi) bir-birinə zidd qütblər kimi qəbul edilməsi olmuşdur. Şübhəsiz, şairin məşuq "Sən"in təsvirinə aid bütün əsərləri emosiya aktıdır və bundan dolayı yüksək poetiklik nümayiş etdirir:

*Üzün məndən nihan etmək dilərsən, etməgil,*
*Gözlərim yaşın rəvan etmək dilərsən, etməgil.*
*...Bərgi-nəsrin üzrə mişkin zülfünü sən dağıdıb,*
*Aşiqi bixaniman etmək dilərsən, etməgil.* [81, s. 451]

Yaxud:

*Gəl niqabın tərfini gülgün yanağından götür,*
*Ta gülüstan gülməsin ayruq güli-xəndanına.*
[80, s. 19]

Əlbəttə, bu misralar qadın gözəlliyinin aşiqdə doğurduğu emosiyanı, estetik ovqatı əks etdirir və biz bu kimi şeirlərdə ilahi məhəbbət ünsürləri axtarmaq fikrindən uzağıq. Lakin Nəsimidəki dünyəviliyin bu gün bizim anladığımız dünyəviliyin tam adekvatı kimi qəbul etmək də məsələnin birtərəfli qoyuluşu olardı.

İlahi eşq şərabını nuş edən aşiqdə dünyəvi məhəbbətin öz meyar və ölçüləri var və bu məhəbbətə o ölçülərlə yanaşmaq lazımdır. Biz bu meyarların dəqiq müəyyənləşdirilməsi nümunəsi ilə S. Şıxıyevanın namizədlik dissertasiyasında rastlaşırıq. Müəllifin Nəsiminin bir qəzəli üzərindəki mülahizələri şairin yaradıcılığında dünyəvi və ilahi məhəbbətin nisbətini və bir-birinə münasibətini dəqiq əks etdirir: "Lakin poeziyamızın incilərindən sayılacaq qədər obrazlılıq və şeiriyyətə malik, musiqi qədər axıcı olan

*Aləmdə bu gün sənciləyin yar kimin var?*
*Gər var desən, yox deməzəm, var kimin var?*

mətləli qəzəl ilk baxışdan dünyəvi gözəl və ona yetirilən eşqin tərənnümü kimi nəzərə çarpır. Həqiqətdə isə varlığı təbiətlə üst-üstə düşən, insan ağlı üçün qavranılması sadəcə olaraq qeyri-mümkün olan ilahini (mühəddədi) Nəsimi konkret, bəşəriləşmiş Allah kimi duyur və təsvir edirdi" [77, s. 84].

Nəsimidə ayrılıqda götürülən dünyəvi məhəbbət konsepsiyası yoxdur. Onun dünyəvi məhəbbəti eşq fəlsəfəsinin ayrılmaz tərkib hisssəsidir. Əksər aşiqanə şeirlərin ideya əsasını təşkil edən eşq fəlsəfəsinə görə, bəzmi-əzəldən, ilk yaradılış məclisindən ayrılan insanın kəsrət aləmindəki həyatı hicrandır. Lakin bunu yalnız mənəvi təkamül nəticəsində öz əzəli mənşəyini sezən anlayır. Öz əzəli mənşəyinə qovuşmaq həsrəti insanı aşiqə çevirir. Dünya gözəli bəzmi-əzəldən ayrılan ruhun daşıyıcısı olduğu üçün kamil gözəlliyi ilə ilahi hüsnü ifadə edir. Aşiqlər onun timsalında ilahi hüsnün təcəssümünü görürlər. Nəsimi lirikasında qadın gözəlliyi ona görə vəsf edilmir ki, o təbii insan hissinin, emosiyasının, ehtirasının mənbəyidir.

**Qadın gözəlliyi Nəsimi poeziyasında emosional ovqatla yanaşı intellektual heyrət doğurur. Və intellektual heyrət, əksərən, emosiyanı üstələyir.** Əgər şair "Gəl niqabın tərfini gülgün yanağından götür" - deyərək məşuqu öz gözəlliyi ilə gülüstanı utandırmağa çağırırsa, gözəli niqabsız görüncə:

*Üzün müshəfdir, ey hüri, yanağın qaf-vəl Quran,*
*Budur həqdən gələn taha, budur yasinü ər-rəhman*
[79, s. 81]

deyərək niqabsız gözəlin üzündə bütöv Quran surələrini seyr edir. Artıq burada təbii qadın gözəlliyinə heyrət edən şair yox, simvolist hürufi gözlərimiz önündə canlanır.

Xristian rahibindən və mötədil zahiddən fərqli olaraq, hürufi dərvişi ilahi hüsnə qovuşmaq üçün qadın gözəlli-

yindən imtina etmir. Əksinə, hürufi dərvişi üçün həqiqətə aparan ən qısa yol gözəldən keçir:

*Surəti-həqqə, ey qəmər, bədri-rüxündür ayinə*
*Daş ola kim ki, surətin olmaya aşiq ayinə.*

[90, s. 232]

Qadın gözəlliyi yalnız naqislər üçün ilahi həqiqətin dərki yolunda maneədir. Çünki onların qadın gözəlliyində ilahi hüsnü seyr edəcək gözləri yoxdur:

*Surətin nəqşində hər kim görmədi nəqqaşini,*
*Vahidi-surət onun gözsüz yaratmış başini.*

[79, s. 270]

Özünü dərk etmiş kamil aşiq "Mən"in məşuq "Sən"i təsviri isə naxışda nəqqaşı görməkdən də o yana keçir:

*Səni bu hüsnü cəmal ilə, bu lütf ilə görən,*
*Qorxdular həq deməyə, döndülər insan dedilər.*

[81, s. 222]

Bu misralarda artıq naxışlı nəqqaşın oxşarlığından deyil, eyniyyətindən söhbət gedir. Məşuq "Sən" ilahi hüsnün təcəssümü, ifadəsi kimi yox, ilahinin özü kimi təqdim edilir.

Nəsiminin varlığı dərketmə modelində aşiq "Mən" və məşuq "Sən" obrazlarında əyaniləşən İnsan mikrostrukturu zati-mütləqin içində beləcə əriyib onunla vəhdətdə bulunurlar.

### 4. "Söz" mikrostrukturu

Hürufiliyə qədər müsəlman panteizmi Allah, insan və dünya qütblü müstəvidən ibarət idi. Varlığa panteist baxış sonuncu ikisinin birincinin içərisində əridilməsi hesabına təmin edilirdi. İlk dəfə hürufilər bu müstəviyə dördüncü qütbü-sözü daxil edirlər. Hürufilər tərəfindən Sözün fəlsəfi kateqoriya səviyyəsinə qaldırılması Şərqdə dini-fəlsəfi fik-

rin özünəməxsus inkişaf qanunauyğunluğu ilə bağlı idi. İslamda varlıq təliminin əsasında dayanan kreatsionizm nəzəriyyəsi (Allahın dünyanı "Kun" sözü ilə yaratması) hürufiliyə qədər monoteist sufilərin antoloji baxışlarının əsasında dayanmış, Sözün yaradıcı qüvvəsi haqqında müxtəlif səviyyədə fikirlər səslənmişdir. Lakin sözün

*Nazilü münzil anla kim, birdir,*
*Yenə kəndüyə tərcümandır söz –* [81, s. 369]

səviyyəsində mütləqlə eyniliyi fəlsəfi baxımdan öz şərhini Nəiminin, poetik baxımdan isə Nəsiminin əsərlərində tapmışdır. Hürufilərin varlığa panteist münasibəti ilə panteist sufilərin münasibəti arasında əsas köklü fərq bu dördüncü qütblə bağlı idi. Nəsiminin varlığı dərketmə modelində Sözün ayrıca mikrostruktur kimi fərqləndirilməsi də bilavasitə ideoloqu olduğu təlimdən irəli gəlirdi.

Söz Allahın mahiyyəti ilə eyniyyət təşkil etdiyi üçün o da zati-mütləq kimi varlığı - mələklər və ruhlar dünyasını, kosmosu, insanı, faunanı, floranı öz əhatə dairəsinə almış, onları çulğamışdır:

*Əqli-küll, ərşü kürsi, lövhü qələm,*
*Çar ünsür, nöh asimandır söz.* [81, s. 369]

Dünya Allahın "ol" sözündən yarandığı üçün söz varlığın yaradıcısıdır və deməli, Allahdır. Bütün kainat ən uca mənanın - Allahın maddi təzahürü, ifadəsi olmaq baxımından sözdür və yenə də deməli, Allahdır. Cahan və söz mikrostrukturlarının bir-biri ilə və eyni zamanda hər ikisinin zati-mütləqlə eyniyyəti buradan irəli gəlirdi.

*Nitqi-əşya natiqi-həqdir özü,*
*Söyləyən kənduyə kəndudur sözü.*
*Söz olubdur kəndü söz söylər əyan,*

*Kəndu kəndu zatini eylər bəyan.* [81, s. 369]

XIV əsrdə Nəsimini dinsiz kimi edam edən zahid cildlərlə şəriət, təfsir, fiqh kitabları yazan din alimi olmuşdur. Bu gün çox qarışıq dünyamızda dinə, işığa, ruhani atmosferə yenidən dönmək istərkən həmin zahidin üstünü toz basmış kitablarını deyil, Nəsiminin divanını əlimizə alırıq. Və Nəsimi divanının saldığı işıqdan ruhaniliyə, ilahiliyə aparan yol daha aydın görünür.

# IV FƏSİL

## XV-XVI ƏSRLƏR AZƏRBAYCAN BƏDİİ DÜŞÜNCƏ SİSTEMİNDƏ TƏSƏVVÜF KODU: FƏLSƏFİ POEZİYADAN FÖVQƏLESTETİK POEZİYAYA

## IV FƏSİL

## XV-XVI ƏSRLƏR AZƏRBAYCAN BƏDİİ DÜŞÜNCƏ SİSTEMİNDƏ TƏSƏVVÜF KODU: FƏLSƏFİ POEZİYADAN FÖVQƏLESTETİK POEZİYAYA

XIII-XVI əsrlər Azərbaycan bədii fikrinin dəyişməz ideoloji bazasını təşkil edən, eyni zamanda bu mərhələdə ideoloji baza funksiyasından qaynaqlanaraq poeziyamızın vahid obrazını şərtləndirən təsəvvüfün sənətlə əlaqəsinin xarakteri XV əsrdən dəyişməyə başlayır. Heç bir dini, sosial, fəlsəfi, elmi təsisat tərəfindən buxovlanmayan mütləq azadlığa can atan poetik fikrimizdə belə bir suverenliyin ilkin əlamətlərinə məhz bu dövrdə rast gəlirik. Bu dövrdəki dəyişiklik ədəbiyyatşünaslığımızda "XV əsr Hamidinin yaradıcılığında özünü hiss etdirən, XVI əsrin əvvəllərində Sürurі və Şahi yaradıcılığında daha da güclənən, Füzuli poeziyasında kamala çatan yeni poetik üslub" [74, s. 210] kimi xarakterizə olunur. Füzuliyə aparan yolun haradan başlamasının və bu yolun Füzuliyə qədərki yolçularının müəyyənləşdirilməsi olduqca vacibdir.

XV-XVI əsrlər arasında türkdilli Azərbaycan ədəbiyyatı təsəvvüfi ideya bazası əsasında poetik büllurluq kəsb etmək baxımından özünün bütün əvvəlki və sonrakı inkişafında ən yüksək zirvələr fəth edir. Şairin poetik istedadından, daxil olduğu və ya rəğbət bəslədiyi təriqətin fəlsəfi prinsiplərindən, ictimai-siyasi mühitin təsirindən irəli gələrək təsəvvüfi ideya bazası əsasında yaranan bütün ədəbi

nümunələrin eyni bir tipoloji ümumiliyə malik olmadığı şəksizdir.

Hər şeydən əvvəl ona görə ki, bu yöndən müşahidələrə əsas verən metodun özü ədəbi fikrimizi vahid bir proses kimi qavramağa kömək edir. Bu isə, bizcə, ədəbiyyatşünaslığın həllinə nail olmağa çalışdığı strateji məqsədlərdəndir. Hər bir yeni keyfiyyət halına keçid uzun tədrici təkamülün nəticəsi olduğu kimi, ədəbi fikrimizdə də poeziyanın sufi ideyanın ifadə vasitəsi olmaqdan çıxıb sufi ideyanın özünüdərk aktına çevrilməsi prosesi birdən-birə baş vermir. XIV əsr Azərbaycan ədəbi-bədii və ictimai-fəlsəfi fikrində əhəmiyyətli rol oynayan Hürufilik XV əsrdə də öz təsir gücünü qoruyub saxlayır, Xəlili, Sürurі, Tüfeyli kimi şairlər Nəsimi ədəbi məktəbini layiqincə davam etdirirlər.

Bununla yanaşı, digər təsəvvüf təriqətlərinə mənsub şairlər də fəlsəfi poeziya nümunələri ilə şeirimizi zənginləşdirir. Yaradıcılığından günümüzə çox az nümunələr çatan Gülşəni (Rövşəniyyə təriqəti), öz vəhdəti-vücud məfkurəli şeirləri ilə şöhrət qazanmış Həbibi belə şairlərimizdəndir.

## Fəlsəfi poeziyanın dini-mistik təriqət kodu: Şah Qasım Ənvar

Sufi təriqətlərinin yaranışı və inkişafı əksər hallarda ictimai-siyasi hadisələrlə şərtlənir və təriqət ədəbiyyatı da bundan dolayı dövrün ümumi əhvalını özündə əks etdirir. Lakin bəzən də təriqət və təsir sferasının əhatəliliyi baxımından ictimai-siyasi hadisələri şərtləndirir. Səfəviyyə təriqəti məhz belə bir xarakteri ilə fərqlənir.

Ümumiyyətlə, şiəlik İslam tarixində fikir çarpışmalarının deyil, hakimiyyət uğrunda mübarizə çarpışmalarının nəticəsi kimi meydana gəlmişdir [91, s. 23-30]. Sünniliklə şiəlik arasında dini baxımdan teoloji, fəlsəfi baxımdan antoloji baxışların fərqi hər iki məzhəb arasında ümumiliklə nisbətdə yox dərəcəsindədir [92, s. 48-68]. Tarixən rəsmi dövlət dininə qarşı müxalifətdə olan şiəlik siyasi hakimiyyət uğrunda mübarizənin ideologiyası olmuşdur. Şiəliyin təsəvvüflə yaxınlaşması isə XIV əsr Yaxın Şərqdə baş verən ictimai-siyasi hadisələrin nəticəsi idi. XIV əsr Yaxın Şərqin xalq hərəkatları barədə məlumat verən İ.P.Petruşevski yazır: "Bütün bu hərəkatların ideologiyasını müsəlman mistizminin (sufizmin) bir neçə cərəyanı ilə birləşmiş şiəlik təşkil edirdi. Şiəliklə sufizm arasında sıx əlaqə məhz bu dövrdə möhkəmlənmişdir" [93, s. 93].

XIV əsrin əvvəllərində Ərdəbildə öz müstəqil ordenini yaradıb təkyə quran Şeyx Səfiəddin İshaqın fəlsəfi ideyalarında heç bir siyasi, şiə çaları yox idi [94, s. 278]. Şöhrəti bütün Şərqə yayılan bu təkyə istər nəzəri əsaslarına, istərsə də praktiki rituallarına görə sırf mötədil xarakter da-

şıyırdı. XIV əsrin sonu - XV əsrin əvvəllərində Səfəvi Xacə Əli Səfəviyyə təriqətini şiəliklə birləşdirir. Mərkəzləşmiş hakimiyyət konsepsiyası isə Səfəvilərin nəsil şəcərəsində Şeyx Cüneydin adı ilə bağlıdır. Artıq Şeyx Heydərin dövründə isə şiəliklə sufizmin sintezindən yaranan qızılbaşlıq müəyyən bir qrupun siyasi hakimiyyət uğrunda mübarizə ideologiyası kimi mövcud idi. Şeyx Cüneydin və Şeyx Heydərin müridləri Şeyx İshaqın şagirdlərindən fərqli olaraq təkyədə zikrlə deyil, meydanda döyüşlə məşğul idilər. Əslində Səfəviyyə təriqətinin siyasiləşməsi Şeyx Cüneyddən deyil, Şeyx Xacə Əlidən başlayırdı. Çünki şiəliyin qəbulu, onun təsəvvüflə sintezi fənafillah həsrəti ilə yanaşı, tarixən şiələrin tapdanmış haqlarının bərpası naminə hakimiyyət həsrəti ilə də alışıb yanmaq idi. Səfəvi müridlərini təkyələrdən döyüş meydanlarına aparan da bu həsrət idi.

XV-XVI əsrlər Azərbaycan bədii fikrinin inkişafı Səfəviyyə təriqəti ilə bilavasitə əlaqədardı. Artıq bu dövrlər yaradıcılığı vəhdəti-vücud xarakter kəsb edən şairlərdə bu və ya digər dərəcədə Səfəviyyə təriqətinin təsirini sezmək mümkündür. Həm də bu şairlərin yaradıcılığı fəlsəfi poeziyadan estetik büllurluğa tədrici keçidi daha dolğun əks etdirir. Bunların içərisində Şah Qasım Ənvar xüsusi mövqeyə malikdir.

Tədqiqatçılar arasında Qasım Ənvarın Səfəviyyə təriqətinə mənsubluğu haqqında fikir ayrılığı vardır. Elmi ədəbiyyatlarda onun Hürufilik, Nemətullahiyyə, Vücudiyyə təriqətlərinə mənsubluğu haqqında da mülahizələr mövcuddur. Belə mülahizələrin meydana çıxması Qasım Ənvarın dövrünün nüfuzlu təriqət başçıları ilə yaxın münasibətlərdə olması ilə əlaqədardır. Mənbələrdə şairin Xacə Bahaəddin Məhəmməd Nəqşbəndi (1328-1391) və Şah Nemətullah Vəli Nurəddin Kirmani (1331-1431) ilə görüşlərinin olduğu qeyd edilir. Fəzlullah Nəiminin ardıcıl-

larından olan Əhməd Lor da (o, tarixdə Şahruxu qətlə yetirmək istəyən şəxs kimi məşhurdur) Qasım Ənvarla sıx əlaqədə olmuşdur. Məhz belə bir əlaqənin mövcudluğuna əsaslanan Petruşevski onu hürufi hesab edir.

Qasım Ənvarın təriqət mənsubiyyətinin müəyyənləşdirilməsində onun bədii və fəlsəfi irsinə tez-tez müraciət olunur ki, bu da özünü o qədər doğrultmur. Çünki digər təsəvvüf şairlərində olduğu kimi, onun poeziyasında da təbliğ olunan ideyalar əksər təriqətlər üçün müştərək xarakter kəsb edir. Şairin təriqətlərə münasibətindən geniş bəhs açan B. Salehov son nəticədə onun panteist olması qənaətinə gəlir [96, s. 68]. Bu qənaət özü-özlüyündə tamamilə doğru olsa da, şairin hansı təriqətə mənsubluğu problemini həll etmir. Panteizm Şərqdə geniş yayılmış əksər təriqətlərin fəlsəfi əsasını təşkil edir. Hansısa bir təsəvvüf şairi panteist-hürufi, panteist-nəqşbəndi, panteist-səfəvi və s. ola bilər. B. Salehovun sufi təriqəti və onun fəlsəfi əsası arasında fərqi dəqiq müəyyənləşdirməməsinin nəticəsidir ki, o, yanlış bir nəticəyə gəlir.

Qasım Ənvarın Səfəviyyə təriqətinə mənsubluğu isə əksər mənbələrdə təsdiqlənir [97, s. 141]. Onun bütün həyatı bu təriqətin ideyalarının Şərqdə intişarına sərf olunmuşdur. İlk təhsilini Ərdəbildə alan Nəsir oğlu Müinəddin Əli elə oradaca Şeyx Sədrəddinin müridləri sırasına daxil olmuşdur.

Təriqət daxilində öz iman kamilliyi və dərviş əxlaqı ilə seçilən Müinəddin Əli şeyxin xüsusi məhəbbətini qazanmışdır. Bu barədə Hüseyn Abdal Pirzadeyi-Zahidinin "Silsilətül-nəsəbis-səfəviyyə" əsərinə əsaslanan Abdulbaqi Gölpınarlı yazır: "Təbrizli Seyid Qasım Ənvar da Sədrəddinin müridlərindəndir. Sədrəddin onu xanəgahda ərbəinə salmış, namazda təşəhhüd və səcdə aralarından başqa vaxtlarda oturmayacaqsan demişdir. O da namazdan sonra saçını tavandan bir mismara bağlamış, beləcə ayaq üstə

dayanmışdır. Qırxıncı gün Ərdəbil camisinə gəlmiş, əlinə böyük bir şam alıb yandırmışdır. Hər kəs əlindəki şamı onun şamından yandırmışdır. Bunu görən Sədrəddin ona işıqları bölən anlamına uyğun gələn Qasım Ənvar ləqəbini vermişdir" [78, s. 234].

Qasım Ənvar "irşad" məqamına yetişdikdən sonra Şeyx Sədrəddin onu təbliğatçı kimi əvvəlcə Gilana, sonralar isə Xorasan və Türküstana göndərmişdir. 1377-ci ildə Qasım Ənvar tərəfindən Heratda "xanəgahi-cədid" təşkil edilir ki, bu da Orta Asiyada Səfəviyyənin şöbəsi hesab olunur [98, № 4, 1969].

Məhdud məzhəb təəssübkeşliyindən yaxa qurtara bilməyən bəzi tədqiqatçılar Qasım Ənvarın şiəliyini xüsusilə qabardır, bədii irsini də bu aspektdən dəyərləndirməyə cəhd edirlər. Biz belə bir münasibətə Ehsan Yarşaterin mülahizələrində rast gəlirik [99, № 16].

Yaradıcı şəxsə məhdud prizmadan qiymət verməyin yanlış olduğunu bir tərəfə qoyub onu qeyd etməyi vacib bilirik ki, Səfəviyyə təriqəti Şeyx Sədrəddinin dövründə mötədil xarakterli olmuşdur. Səfəviliyin şiələşməsi Qasım Ənvardan sonrakı dövrlərə təsadüf etdiyindən onun şiə olması təriqətə mənsubluq baxımından özünü doğrultmur.

Qasım Ənvarın yaradıcılığı lirik şeirlər "Divan"ından və fəlsəfi traktatlardan ibarətdir. Onun lirik şeirlərində sufi ideya iki formada - çılpaq ideyanın təqdimi və simvolik şəkildə təzahür edir. Şairin təriqətin nəzəri əsaslarından bəhs edən şeirlərində birinci istiqamət daha qabarıqdır. Bu da bilavasitə mövzunun işlənilməsində mövcud ənənədən irəli gəlir. Şairin aşiqanə qəzəllərində isə poetik-sufi məcazların zənginliyi xüsusilə nəzərə çarpır. "Sufi - Allah" münasibətlərini simvollaşdıran hicran əzabları ilə qovrulan aşiq və etinasız məşuq obrazları bu simvollar içərisində xüsusilə fərqlənir. Şairin yaradıcılığında belə bir paralelliyi poetik fikrimizin ümumi inkişaf qanunauyğunluğu şərt-

ləndirirdi. Qasım Ənvar bir tərəfdən mənsub olduğu təriqətin diqtəsi ilə normativ panteizmi təbliğ edir, digər tərəfdən də büllurluğa can atan poeziyanın o dövrkü səviyyəsi ilə şərtlənərək ideyanın çılpaq təqdimini şeirin nüvəsinə ötürürdü. Məhz bu məqamda təriqət nümayəndəsi kimi təqlidçi olan Qasım Ənvar şair kimi təqlidi əfsanə adlandırır:

*Cahanın pərdəsin yırtdım, bütün əsrarə yol açdım,*
*Bəsarətlə baxıb gördüm bütün təqlidi əfsanə.*

[73, s. 238]

İrşad məqamına yetişən sufi üçün Allahla İnsan arasında heç bir vasitəyə, heç bir təriqətə və dinə ehtiyac qalmır. Gizli universumla salik arasında vasitəsiz kontakt məqamında salik təqlidin fövqünə qalxır. Yuxarıdakı fikir məhz belə bir məqamın yaşantısından doğmuşdur. Eyni zamanda belə bir məqama yüksələn, yarı aşkarda görən şair kəsrət aləminə məxsus ikilikdən də qurtulur, Kəbə və bütxanə arasında heç bir fərq görmür:

*Yarın hüsnü cəmalını günəş tək aşikar gördüm,*
*Mənimçün olmadı fərqi bu Kəbə, deyrü bütxanə.*

[73, s. 238]

Qasım Ənvarın poeziyasında rindanə ovqat xüsusilə qabarıqdır. Şair tez-tez saqiyə müraciət edib şərab badəsi ilə ona aləmi unutdurmağı xahiş edir. Sufinin mistik dünyaduyumunun traktatda deyil, poeziyadakı əksində "şərab", "məstlik" bütövlükdə təsəvvüfün ən ali ideyasının, zərrə ilə küllün, yerlə göyün, İnsanla Allahın vəhdətini təmin edən, sədləri aradan qaldırıb vahid ilahi məkan yaradan Eşqin simvollarıdır. Eşq isə Qasım Ənvar poeziyasının ana mövzularındandır. Bütün təsəvvüf poeziyasında dönə-dönə müraciət edilən "bəzmi-əzəl" mövzusundan da şair rindanə ovqatla aşiq kimi söz açır:

*Məst idik, nağmələrinlə belə huşyar olduq,*
*Yatmış idik, səsinə sevgili, bidar olduq.*
[73, s. 237]

Beytdə məstliklə huşyarlıq, yuxu ilə bidarlıq təzad təşkil edən qütblərdir. Məstlik mənəvi başlanğıcı, huşyarlıq isə yaradılışdan sonrakı mərhələni əks etdirir. Şair bu ayrılığın əzabını o qədər də dərindən təsvir etmir, əksinə, əzəli mənşəyini dərk etməkdən dolayı bir sevinc də şeirin ritminə qoşulur:

*Hər zaman ki, səri-kuyindən əsir badi-səba,*
*Tikan olsaq da o dəm ətrili gülzar olduq.*
[73, s. 238]

Şairə görə, bütün mövcudat Allahın ayrılmaz hissələri kimi məstdir və bu məstliyin əsasında sevgi dayanır:

*Dünyanın bütün zərrələri sevgidən məstdir.*
*Sevgi bütün zərrələrdə görünür.* [100, s. 117]

Eşq haqqında Qasım Ənvarın fikirləri bir tərəfdən emosionallığı ilə seçilirsə, digər tərəfdən də bu hiss nəzəri mülahizə kimi faktlaşır. "Ənisül-arifin"də şair yazır:

*Özünü sevgilidən çox sevsən,*
*Kafirliyi seçərsən.*
*Özünlə bərabər tutsan,*
*"Biz" və "Mən" kimi çoxallahlı olarsan.*
*Dostu özündən çox sevsən,*
*Sevgidə alqışlanmış, əbədi olarsan.*[100, s. 386]

Şair Allah sevgisini hər şeydən uca tutur, bu ucalığı görə bilməyənlərə müraciətlə deyir:

*Nə qədər sevginin haram olduğunu deyəcəksən?*
*Mənə bu nağılı danışma, mən divanəyəm.*
[100, s. 213]

Zahidlə polemika məqamında deyilmiş və sufi eşqini əks etdirən aşağıdakı beyt isə bilavasitə Qasım Ənvarın bu yöndən mövqeyini bildirir:

*Mənə cənnətdən və cəhənnəmdən danışma.*
*O (sevgi) olan yer mənə əbədi cənnətdir.* [100, s. 62]

Şairin eşq haqqındakı fikirləri təriqət nümayəndəsi kimi, şübhəsiz, mistik həqiqətin dərkindən qaynaqlanır. O, həqiqətin dərkinəqədərki yolun mərhələlərini simvolik şəkildə təsvir edir.

"Fəna" məqamı bu mərhələlər içərisində xüsusi yer tutur:

*Biz fəna səhrasının heyran və sərgərdanıyıq.*
*Ey bağışlıyan, bizi əfv et.* [101, s.129]
Başqa bir beytdə isə fəna əbədiyyətlə eyniləşdirilir:
*Ey Qasimi Təhqiq,*
*Yolunda fəna əbədiyyətlə eynidir* . [101, s. 68]

Mənanın sözdə bütün dolğunluğu ilə ifadə edilməyəcəyinə əmin olan şair ən ali mənanın-eşqin yalnız simvollarla əyaniləşəcəyi qənaətinə gəlir:

*Eşqin bütün sözü simvol və alleqoriyadır*. [101, s. 273]

Qasım Ənvar yaradıcılığında eşqin poetik-fəlsəfi şərhi verilməklə yanaşı, aşiqin mənəvi-əxlaqi keyfiyyətləri də təsvir olunur. Sufi mütəfəkkir əsl aşiqi öz sevgisi yolunda əzab-əziyyətlərə qatlaşmağa çağırır. Füzulidə olduğu kimi burada da dərd bəzən məhəbbətin ləzzəti kimi faktlaşır:

*Dərdin əsiri olmayan aşiq deyil.*
*Bəla qılıncını seçməyən sadiq deyil.* [101, s. 72]

Qasım Ənvarın yaradıcılıgının müəyyən bir hissəsini onun iri həcmli əsərləri təşkil edir. Bu əsərlər nəzmlə yazılmış fəlsəfi traktat səciyyəsi daşıyır. "Ənisül-arifin",

"Səda məqam dər istilahati sufiyyə", "Risale dər bəyane-elm" əsərləri bunların içərisində xüsusilə seçilir. "Ənisül-arifin" məsnəvisi təsəvvüf nəzəriyyəsindən, bu təlimin ayrı-ayrı köklü anlayışlarından bəhs edir. Poemada mütəfəkkir şairin üzərində xüsusi dayandığı cəhət aşiqin kamilləşməsidir. Şair kamilləşmə üçün mənəvi-əxlaqi təkamül nəzəriyyəsini irəli sürür. Pis ehtiraslardan təmizlənmə belə bir təkamülün əsasını təşkil edir. Əsərdə ideyanın dolğun çatdırılması üçün kiçik hekayələr də verilmişdir. Bu cəhət də ümumən əsası Sənai tərəfindən qoyulmuş sufi eposçuluğu ənənəsindən qaynaqlanır.

## Fəlsəfi poeziyanın mistik-siyasi təriqət kodu: Şah İsmayıl Xətai

Səfəviyyə təriqətinin fəlsəfi bazası əsasında yetişən ikinci böyük şair Şah İsmayıl Xətai olmuşdur. Əgər Qasım Ənvar mənsub olduğu təriqətin görüşlərini öz yaradıcılığında bütün normativliyi ilə qoruyub saxlayırdısa, Şah İsmayıl Xətaidə belə bir cəhətə rast gəlmirik. Bir tərəfdən simvolik əksetdirmənin ön plana çıxması, digər tərəfdən şifahi xalq ədəbiyyatından süzülüb gələn realizm ünsürləri Xətai poeziyasının simasında müəyyən dəyişiklik edir, qeyri-normativ təsəvvüfi poeziya təəssüratı yaradırdı. Bütün bu fərqlərə baxmayaraq, Şah İsmayıl Xətai öz xanədanının varisi idi və bu xanədanın böyük şair-ideoloqu Qasım Ənvarı da hörmətlə yad edirdi. Sam Mirzə "Təzkireyi-Sami"də yazır: "Rəhmətlik Şah İsmayıl Xətai Xorasanı aldıqdan sonra İraqa yola düşür. Həmin qəsəbənin yaxınlığında Şah İsmayıl Ənvarın qəbrini ziyarət etmək üçün dayanır" [102, s. 16].

**İstər Şərq, istərsə də Qərb mədəniyyətləri tarixində sənətlə saray, şairlə şah arasında yaxınlaşma meylləri çox olmuşdur. Bu hal Şərq və Qərb intibah mədəniyyətləri üçün daha çox xarakterikdir. Lakin bədii düşüncə tarixinin elə dövrləri də olmuşdur ki, şairliklə şahlıq eyni bir simada birləşmiş, başqa sözlə, bədii düşüncə karvanının da önündə şah özü dayanmışdır. Mühitə siyasi, bütövlükdə, dünyaya poetik baxışın sintezi vahid dünyagörüşdə birləşəndə yuxarıda haqqında danışdığımız şair-şah qarşıdurması bir insan psixologiyasının təzadları, ziddiyyətləri kimi faktlaşmışdır.**

Azərbaycan bədii düşüncə tarixində qılıncın da, qələmin də bir şəxsiyyətdə birləşməsinə tez-tez təsadüf olunur. Sivas hökmdarı Qazi Bürhanəddin, Qaraqoyunlu hökmdarı Cahanşah Həqiqi, Ağqoyunlu Sultan Yəqub, Səfəvi Şah İsmayıl Xətai. Əgər ümumtürk bədii düşüncə kontekstindən yanaşsaq, hökmdar-şairlər silsiləsini bir neçə dəfə artırmaq da olar.

Şah İsmayıl Xətai orta əsrlər Azərbaycan tarixinin də, ədəbiyyatının da ziddiyyətli, təzadlı şəxsiyyətidir. Onu istər ədəbi, istərsə də siyasi fəaliyyətinə bir-birinə zidd təhlillər verilmiş və verilməkdə davam edir. Şah İsmayıl Xətainin siyasi fəaliyyəti ümumtürk dini-mənəvi parçalanmasına xidmət etmişdirsə də, onun siyasi, ədəbi, xüsusən sənətə və sənətkara qarşı mesenatçılıq fəaliyyəti ümumtürk mədəniyyəti daxilində Azərbaycan mədəniyyətinin müstəqilləşməsində, bir neçə əsr sonra tipoloji avtonomluq kəsb etməsində özünəməxsus rol oynamışdır. Bu mənada Şah İsmayıl Xətai Azərbaycan milli dövlətçiliyinin də, Azərbaycan milli mədəniyyətinin də klassik memarı adlandırılmağa tamamilə layiqdir.

Şah İsmayıl Xətai poeziyasında təsəvvüfi ideyanın xarakteri, funksiyası barədə tədqiqatçılar arasında "vəhdətivücud ideyaları bu qisim şeirlərdə (nəfəslər nəzərdə tutulur - S.X.) sırf simvolik məna daşıyır" [103, № 41, 1987] (R. Hüseynov) fikrindən tutmuş, "vəcdli və sənətkar ruha malik olan bu gənc... türklər üçün də kiçik bir divan təşkil edəcək qədər sufiyanə və aşiqanə mənzumələr vücudə gətirmişdir" (F.Köprülü) fikrinə qədər ən müxtəlif mülahizələr mövcuddur. V.Minorski isə Şah İsmayıl Xətai "Divan"ının başlıca xarakterik xüsusiyyətini "hərəkatın aparıcı qüvvələrinin siyasi platforması" funksiyasını yerinə yetirməkdə görürdü. Təsəvvüfün Xətai şeiri timsalındakı xarakterdə əyaniləşməsi dövrün ümumi mənəvi atmosferində də bədii düşüncənin XVI əsr səviyyəsində də

müəyyən mənada "fakültətiv" hadisə idi. Xətaidə təsəvvüf əvvəl siyasiləşib sonra poeziyanın ideya əsasına çevrilir. Bu isə Səfəviyyə ordeninin şiə xarakteri ilə bağlı idi.

Qızılbaşlıq Xətainin öz fərdi düşüncə axtarışlarının nəticəsi kimi onun poeziyasına hopmamışdır. İki əsrdən bəri Səfəvi şeyxləri tərəfindən formalaşdırılmış bu ideologiyanı Xətai hazır şəkildə qəbul etmişdir. Hətta ilk uşaqlıq illərində İsmayılın böyüyüb hansı missiyanı yerinə yetirməli olduğu müəyyənləşdirilmişdir. Səfəvi şeyxləri xanədanına vərəsəlik etməli olduğunu Xətai özü də çox gözəl hiss edirdi:

*Səfər qıl, dur, oturma, ey Xətai,*
*Ki, şəhri-Ərdəbildə bir xanədan var.* [104, s. 57]

Azərbaycan ədəbiyyatı tarixində klassik şeir üslubu ilə aşıq şeir üslubunun bir poetik dünyagörüşündə birləşməsinin əsası Şah İsmayıl Xətaidən başlayır. Xalq və klassik üslub janrlarının paralelliyinə sonralar M.Əmani, M.V.Vidadi, M.P.Vaqif, S.Ə.Nəbati və s. şairlərimizin yaradıcılıqlarında təsadüf edirik. Öz poetik təfəkkürləri, fikir aləmləri baxımından klassik poetik üsluba qanuni varislik hüququna malik şairlərin xalq şeiri üslubuna, əsasən, folklor üslubunda yazıb-yaradan şairlərin klassik şeir üslubuna qarşılıqlı müraciətləri təbii kulturoloji prosesə yanaşı, ictimai-siyasi hadisələrin təsirindən irəli gəlir [105, s. 45-64].

Şah İsmayıl Xətainin XVI əsrin əvvəllərində (klassik üslubun türkün simasında Füzuli zirvəsinə yüksəldiyi bir vaxtda!) aşıq şeiri səpkisində əsərlər yaratması onun fərdi görüşlərindən, ideoloqu olduğu Qızılbaşlığın tələblərindən irəli gəlirdi. Xətainin milli birlik ideyası xalqın mənəvi potensiyasına müraciət etməyi tələb edirdi. Eyni zamanda Qızılbaşlığın məhdud bir qrupun ideologiyası olmaqdan çıxıb geniş ictimai auditoriya qazanması üçün xalqla xalqın öz dilində danışmaq lazım idi. F. Köprülünün qeyd et-

diyi kimi: "Bəktaşilik, qızılbaşlıq, hürufilik adı altındakı qərib etiqadların xalq arasında bu qədər qüvvətlə yayılmasına, bəlkə də bu bəsit, hər kəsin anlayacağı qədər sadə milli zövqə uyğun gözəl şeirlər hər şeydən çox yardım etmişdir" [6, s. 353].

Xətai aşıq şeiri səpkisində yazdığı nəfəslərində təsəvvüf ideyaları təbliğ edirdi:

*İqrar verdim, dönmən Ələst bəzmindən,*
*Verdiyim iqrarı imandan aldım.*
*Başqa seyran gördüm kəndi özümdə,*
*Bu məhəbbəti mən Mərdandan aldım.*
*...Bildiyim unutdum, eylərəm fəryad,*
*Dərdim budur, dil yox istəyəm imdad.*
*Təkrar yenə təlim etdi bir ustad,*
*Dərsimi məktəbi-ürfandan aldım.* [106, s. 30]

İlahi mənşədən, əzəli başlanğıcdan ayrılığı, həsrəti ifadə edən "bildiyimi unutdum, eylərəm fəryad" nəzəri konsepsiyadan ayrılıb daxilən yaşanmış duyğu, həsrət səviyyəsinə yüksəlməməsindən dolayı bir fəryad şeirin ruhuna, canına hopub bədii-fəlsəfi pafosa çevrilə bilmir. Müqayisə üçün Xətainin müasiri Qurbaninin eyni mövzulu qoşmasına diqqət edək:

*Laməkan şəhrindən gəldim cana mən,*
*Canlar əhli bir canana yetmişdim.*
*Əldən-ələ, qabdan-qaba süzüldüm,*
*Qətrə idim, bir ümmana yetişdim.*

*Bir gözəlin ələyindən ələndim,*
*Bəli dedim, bəlasına büləndim,*
*Yeri, göyü yaradandan diləndim,*
*Gövhəri axtardım, kana yetişdim.* [107, s. 36]

Şifahi türk şeirindəki təsəvvüf ideyasının Xətai şeiri

nümunələrində deformasiyası özünü bu nümunələrin siyasi səciyyəsində göstərir. Bu nümunələr Əhməd Yəsəvi, Yunis İmrə poeziyasından siyasi çalarları ilə fərqlənir. Əgər Xətai bir tərəfdən əsl sufi mürşidi kimi müridə müraciətlə

*Sil-süpür qəlbini, evin pak eylə,*
*Möminin aynası duman gərəkməz* – [106, s. 26]

deyərək normativ təriqət prinsiplərini təbliğ edirsə, digər tərəfdən daha fasiləsiz müridin mürşidə sədaqətindən söz açır, bu sədaqəti ən yüksək mənəvi dəyər səviyyəsinə qaldırır:

*Mürşidsiz, rəhbərsiz yollar açılmaz,*
*Mürşid ətəyində əlin varmıdır?* [106, s. 38]

Yaxud:

*Ər odur etiqad edə pirinə,*
*Nəzər edə əvvəlü axirinə.* [106, s. 24]

Yaxud da:

*Gəl bir pirə xidmət eylə,*
*Əmək zaye olmaz ola.*
*Mürşid ətəyin möhkəm tut,*
*Kimsə əlindən almaz ola.* [106, s. 46]

Əgər Əhməd Yəsəvi poeziyasında müridə verilən əxlaq dərsləri içərisində ilahi dərgaha qovuşmağın yeganə vasitəsi kimi eşqə sadiqlik təbliğ olunursa, Yunis İmrədə ilahi dərgaha qovuşmuş salikin vüsal nəğmələri əsas yer tutursa, Şah İsmayıl Xətai poeziyasında mürşidə sadiqlik təriqətin əsas prinsipi kimi qabardılır. Çünki Qızılbaşlıq Yəsəvilikdən fərqli olaraq həm də siyasi ideologiya idi. Hər hansı bir müridin Əhməd Yəsəvi xəyanəti (əslində belə bir xəyanət təriqətin mövcud prinsiplərini pozmaqdan başqa bir şey ola

bilməzdi) nəticəsində nə itirsə, mürid özü itirərdi. Lakin qızılbaş müridlərindən hər hansı birinin xəyanəti Xətai üçün bəlkə də siyasi, hərbi məğlubiyyətlərlə nəticələnə bilərdi. Bununla belə heç də iddia etmək doğru olmazdı ki, Xətai şeirlərində qeyri-səmimi idi, hər yeni şeiri növbəti diplomatik gediş idi. Bizcə, xətaişünaslıqda Minorski stereotipindən azad olmağın vaxtı çoxdan çatıbdır.

Döyüş Xətainin həyat tərzi, əsas məşğuliyyəti, dövlət idarəçiliyi isə siyasətçi kimi yerinə yetirməli olduğu başlıca missiya idi. Belə bir şəxsiyyətin poetik düşüncəsinə siyasi çalarlar çox güman ki, hökmdarlıq psixologiyasından təhtəlşüuri şəkildə süzülüb gəlirdi. Xətainin qoşmalarında, gəraylılarında haqqında danışdığımız siyasi çalarların təsəvvüfi şifahi türk şeir ənənəsinin ümumi inkişaf modelində sistemdənkənar hadisə olmasını bizim aşıq şeirimizin Xətaidən sonrakı sufi nümayəndələrinin yaradıcılığı bir daha sübut edir. Qurbani ilə start götürən Azərbaycan aşıq şeiri XVI əsrdə Abbas Tufarqanlının, XVII əsrdə Aşıq Valehin yaradıcılıqları timsalında şeirin əsas aparıcı üslubuna çevrilir və bu dövrlər daha çox kütləviliyi ilə səciyyələnir [108, s. 15]. XIX əsri isə Azərbaycan aşıq sənətinin "qızıl dövrü" adlandırmaq olar. Aşıq şeirimizin sufi nümayəndələrinin yaradıcılığında Əhməd Yəsəvi, Yunis İmrə ruhu daha çox hiss olunmaqdadır. Onların şeirlərində ilahi hüsnlə təbii gözəllik bir-birinə çulğalaşmış halda bütün dövrlərdə mövcud olmuş, poetik büllurluq səviyyəsinə isə Aşıq Ələsgər poeziyası timsalında yetişmişdir...

Şah İsmayıl Xətainin poetik təfəkkürü bütün dolğunluğu ilə klassik üslub janrlarında - mürəbbe, tərcibənd, qəsidə, rübai, qitə, xüsusən qəzəllərdə üzə çıxır. Şair Xətainin bədii siması klassik üslub janrlarında daha parlaq görünür. Xətai bədii təfəkkürünün tipologiyası ilə klassik şeir üslubunun varisidir. Təsəvvüfi ideyanın Xətai qəzəllərindəki xarakteri, funksional keyfiyyəti qoşmasında deformasiya-

ya uğramış təsəvvüfdən əsaslı şəkildə fərqlənir. Bu fərq məzmunca da, formaca da qabarıqdır. Xətainin qəzəlində panteist məfkurə qoşmalarından fərqli olaraq çılpaq ideyanın təqdimi formasında deyil, simvolik, tekstaltı, ənənəvi qəzəl obrazları vasitəsilə faktlaşan məfkurədir. Bu qəzəllərin obraz ortüyü ənənəvi ikili sufi terminlərdən (aşiq-məşuq, gül-bülbül, damla-dərya, şam-pərvanə və s.), eyni zamanda vəhdət məqamını əks etdirən tək terminlərdən (od, rəqs, səba və s.) ibarətdir.

Ənənəvi qəzəl poetikasına uyğun olaraq, Xətai qəzəllərinin də mərkəzi obrazları aşiq və məşuqədir. Bu qəzəllərin mütaliəsi zamanı belə bir sual meydana çıxır ki, qəzəldəki məşuq obrazı Allahın simvollaşdırılması, yoxsa real insan gözəlliyinin təcəssümüdür? Bu suala birtərəfli şəkildə qəti cavab vermək mümkün deyil. Çünki bu qəzəllərdə ilahi və dünyəvi məhəbbətlərin hər ikisi mövcuddur və hansının haradan başlayıb, hansının haradan qurtardığını dəqiq müəyyən etmək mümkün deyil. Sufizm tədqiqatçıları arasında mübahisə doğuran qəzəl poetikasında məşuq obrazının real, yaxud irreal səciyyə daşıdığını müəyyənləşdirmək üçün poetik obraz örtüyü altındakı mənanı üzə çıxarmaq lazımdır. Xətainin belə qəzəllərindən birinə diqqət edək:

*Dilbəra, dildə sənin mehri-rüxün can kimidir,*
*Şərbəti-ləli-ləbin dərdimə dərman kimidir.*
*Bağı-hüsnündə boyun sərvi-xuraman dedilər,*
*Zülmət içində ləbin çeşmeyi-heyvan kimidir.*

[104, s. 232]

Məşuq obrazının nisbətən canlı, real təsvir edildiyi bu beytlər məşuqun aşiqdə doğurduğu irreal ovqatı əks etdirir. Sufi obrazlar sistemində "rüx", "ləb" ilahi manifestasiyanın simvollarıdır.

Məşuq obrazının bu irreal səciyyəsini hüsnün aşiqdə

doğurduğu psixoloji ovqatın xarakteri də sübut edir:

*Ta ki səndən düşəli ayrı, əya ruhi-rəvan,*
*Gözümün yaşı mənim qətreyi-baryan kimidir.*

[104, s. 232]

Bu beyt sufiliyin məşhur mövzularından olan "dövr konsepsiyası" barədədir. Ruhi-rəvanın ilahi dərgahdan ayrılıb yenidən ona can atması... Xətai qəzəllərində məşuqənin cəfasından naləvü-əfğan edən aşiqin bəzən səbri o qədər tükənir ki, aşiq ondan küsməyə belə cəsarət edir:

*Ey pərivəş hüsni-gəncim, yar, səndən küsmüşəm,*
*Ləbi şəkkər, dişi incim, yar, səndən küsmüşəm.*
*...Yar yarı böylə sorar, ey vəfasız bivəfa?*
*Həddən ötdü dərdü rəncim, yar, səndən küsmüşəm.*

[104, s. 354]

Bu beytlərdə məşuq obrazı ilə Allah arasında eyniyyətin pozulduğunu sezmək o qədər də çətin deyil. Məşuq-Allah eyniyyətini bu beytlərdə də qorumağa çalışsaq, onda sufi dərvişinin Allaha çox paradoksal bir münasibəti ilə rastlaşırıq. Artıq bu beytlər "canı canan üçün" deyil, "canı can üçün" sevməyin faktıdır. Aşiq yalnız real insana bu ərklə müraciət edə bilərdi. İlahi və dünyəvi məhəbbətin Xətai poeziyasında qoşalıqda mövcudluğu sufizmin məhəbbət konsepsiyasından irəli gəlir. Müasir dövr Amerikada, Qərbi Avropanın bir çox ölkələrində fəaliyyət göstərən Nemətullahiliyyə ordeninin rəhbəri Cavad Nurbəxş sufilik kontekstindən məhəbbəti aşağıdakı kimi təsnif edir: "Məhəbbətin instinktiv səviyyəsində aşiq məşuqəyə yalnız özü üçün can atır. Mənəvi məhəbbət səviyyəsində isə aşiq məşuqəyə özü üçün can atdığı kimi məşuqə üçün də can atır.

İlahi məhəbbət səviyyəsində isə aşiq məşuqəyə özü üçün deyil, yalnız məşuqə üçün can atır" [109, s. 65].

Məhəbbətin bu mərhələləri bir-birini inkar etmir, əksi-

nə, biri digəri üçün zəmin hazırlayır. Onun məqsədi forma axtarmaq idi, - deyə Cəlaləddin Rumi yazırdı, lakin o, bu forma arxasında Allahı tapır. Şah İsmayıl Xətai də gözələ müraciətlə

*Gögdə istərdim səni, mən yerdə gördüm bigüman,*
*Töhfə, qüdrət, mahi-əncüm, yar, səndən küsmüşəm –*
[104, s. 350]

deyərkən yalnız həyatda sevdiyini nəzərdə tutmuşdur.

Tədqiqatlarda Xətai poeziyasının ədəbi fikir tariximizdə yeri, mövqeyi barədə söz açan müəlliflər Xətainin Nəsimiylə Füzuli arasında ədəbi körpü rolunu yerinə yetirdiyini vurğulayırlar: [110, s. 65] "Xətai şeirimizin tarixində iki nəhəngin – Nəsimiylə Füzulinin arasında parlaq ədəbi simadır, həm də bu keçiddə yalnız xronoloji ardıcıllığa, vaxt, zaman qatarına görə yer tutmur. Xətai poetikasına, təfəkkür tərzinə, dünyaduyumuna görə də Nəsimiylə Füzuli arasında bir körpüdür" [111, s. 116].

Xətai şeirinə Nəsiminin təsiri onun ideoloqu olduğu Qızılbaşlıqla Hürufilik təlimi arasındakı fəlsəfi görüşlərin ümumiliyindən irəli gəlirdi. Bidətçi təriqət nümayəndələri kimi hər yerdə təqib olunan Süruri, Tüfeyli kimi hürufi şairlərinin Səfəvi sarayında sığınacaq tapmaları da bunu bir daha sübut edir. Xətai istər hürufilik təliminin yaradıcısı Nəiminin, istərsə də onun poetikasının yaradıcısı Nəsiminin adlarını əsərlərində hörmətlə yad edir:

*Seyyid Nəsimini zahidlər üzdi,*
*İncimədi haqdən gələn cəfayə.* [104, s. 182]

Tədqiqatlarda Hürufilik və Qızılbaşlıq, Nəsimi və Xətai arasındakı əlaqələrin ifrat sosioloji mövqedən şərhi ilə də rastlaşırıq: "Hürufiliyin bidətçi ideyaya inamı, islam əleyhinə döyüşkən ruhu (?) şahlıq uğrunda mübarizə aparan İsmayıla lazım ola bilərdi, lakin şah olub islamla deyil,

sünniliklə mübarizə aparan və xalq hərəkatı ilə bağlı olan hər hansı bir bidətçidən yalnız öz mənafeyini güdən İsmayıla hürufilik ümumiyyətlə lazım deyildi" [86, s. 243].

Sitat müəllifinin sosioloji mövqedən Hürufiliyə verdiyi şərhi bir yana qoyub (bu, ayrıca bir söhbətin mövzusudur) onu qeyd etməyi lazım bilirik ki, Xətainin Hürufiliklə münasibətlərinin xarakterini siyasi lazımlılıq dərəcəsinə əsasən müəyyənləşdirmək metodunun özü yanlışdır. Müəllif sanki unudur ki, Xətai yalnız siyasətçi deyildi, o, eyni zamanda şair idi. Orta əsrlər şairi isə təsəvvüfi, irfani təlimlərlə sıx əlaqədə olmuşdur. Hürufilik şah İsmayıldan əlavə, şair İsmayıla da lazım ola bilərdi. Necə ki, şair İsmayıla lazım olurdu da... Bütövlükdə "vəhdəti-vücudun" hürufilikdə kəsb etdiyi ifrat panteist məzmun (xaliqin məxluqda təcəssümü yox, xaliqlə məxluqun sırf eyniyyəti) Xətainin qeyri-aşiqanə qəzəllərinin əsas ideya məzmununu təşkil edirdi.

*Aşiq isən gəl bərü, kim cani-canan məndədir,*
*Zahida, sən qandasan, kim nuri-iman məndədir.*
*Məndədir yer ilə göyün hikməti, həm qüdrəti,*
*Abü ataş, dadü cümlə ərkan məndədir.* [104, s. 140]

Bu beytlərdə fəlsəfi tematikanın hürufilikdən, bədii üslubun, poetik intonasiyanın (substansionallaşmış "Mən"in coşqunluqla tərənnümü) isə Nəsimidən gəldiyini sezmək bir o qədər də çətin deyil. İki əsr əvvəl Nəsimi eyni rədiflə, eyni coşğunluqla demişdir:

*Aşiqəm hüsnünə, eşqin ehtimali məndədir,*
*Aqiləm, əmmarə nəfsin cuşmali məndədir.*
*...Fəzli-həqdən çünki mən əhləl-yəqini-cənnətəm,*
*Ta nəim, firdovsi-məskunun suali məndədir.*
[79, s. 145]

Yaxud intonasiyaca da, məzmunca da Nəsimi poeziya-

sından qidalanan Xətainin başqa bir beyti:

*On səkkiz min aləmə mən gərdiş ilə gəlmişəm,*
*Ol səbəbdən həqq ilə sirdar idim, sərdar idim.*
[104, s. 93]

Əgər Fliştinski ilə razılaşsaq, "poeziya müsəlman mistisizmində (sufizm) geniş intişar tapmış, xüsusi poetik janr kimi formalaşmış mistik özünüifadə formasıdır" [27, s. 222].

**Nəsiminin fəlsəfi qəzəlləri mistik təfəkkürün adi təfəkkür üzərində qiyamı idi. Çünki fərdi-mistik yaşantıdan doğurdu. Xətainin "vəhdəti-vücud" əqidəli şeirləri isə adi təfəkkürün öz hüdudlarını aşmaq cəhdi və bundan dolayı mistik təfəkkürün simvoludur. Çünki fərdi-mistik yaşantı ilə bərabər, həm də mistik təcrübənin ənənəsindən doğurdu.** Vəhdəti -vücud ideyasının ekstaz məqamına məxsus coşğunluqla təqdimi Nəsimidə bütöv bir sistem təşkil edir. Xətai isə təsəvvüfi ideyanı daha çox aşiq-məşuq münasibətləri kontekstində təqdim etməyə üstünlük verir.

İfrat panteist ideyanın coşğunluqla tərənnümü onun qəzəllərində istisna təşkil edir. Xətaidə substansionallaşmış "Mən"dən daha çox siyasi "Mən"in coşğunluqla tərənnümü qabarıqdır:

*Uçmaqda tuti quşuyam,*
*Ağır ləşkər ərbaşıyam,*
*Mən sufilər yoldaşıyam,*
*Qazilər, deyin şah mənəm.* [104, s. 48]

Əgər Nəsimi əlində əsa bütün Şərqi gəzib vahid mənəvi məkan yaradırdısa, Xətai əlində qılınc vahid Səfəvi dövləti yaradırdı. Bunun üçün Xətai nə az, nə də çox, beş dəfə miqyaslı müharibə aparmalı olmuşdur. Şirvanşah Fərrux Yasar ilə, Şərurda Əlvənd Mirzə ilə, Həmədanlı Sultan

Murad ilə, Mərv ətrafında Şeybani xan ilə, Çaldıranda osmanlı Sultan Səlim ilə... Bu müharibələrdən sonuncusu tək səfəvilərin deyil, türklüyün taleyində çox faciəvi rol oynamışdı. Bu gün də türk dövlətlərinin vahid ideoloji platforma altında birləşməsi ideyaları səsləndiyi bir vaxtda Şimaldan, Qərbdən əsən küləklər tarix kitabının türk dövlətlərinin didişmə səhifələrini yenidən vərəqləyir. Bir vaxtlar Sultan Səlimin, Şah İsmayıl Xətainin saraylarına uzanıb Çaldıran döyüşü törədən əllər, bu gün də türk dövlətlərinə uzanır. Bəzən o əllərə yenə də dost əli kimi salam veririk. O əlləri dost əllərindən ayıra bilmək üçün bədii fikir tariximizin də, dövlət düşüncə tariximizin də səhifələrini özümüz vərəqləməliyik.

## Ümumtürk ədəbiyyatının fövqəlestetik poeziya kodu: Məhəmməd Füzuli

Təsəvvüfün inkişaf haqqında irəli sürdüyü konsepsiya (kəsrətdən vəhdətə, materiallıqdan ilkin mənəviyə) Şərq poetik təfəkkürünün inkişaf qanunauyğunluğunu, bu inkişafın müxtəlif mərhələlərində təsəvvüfün xarakterini, lap elə təsəvvüfi şeirin struktur mürəkkəbliyini şərh etməyə imkan verir. **Müsəlman Şərqinin poetik fikri fərqli təmayüllərin vahid məcrada vəhdətinə doğru can atıb, Müsəlman Renessansı deyilən hadisə isə bu təmayüllərin ən kamil vəhdətə nail olduğu dövrlərdə yaranıb. Bu kontekstdə Füzuli rezonansı ən kamil evolyusiya aktıdır.** Biz Füzulini evolyusiya aktı hesab edərkən nə onun türklük miqyasında məlum nəhəng missiyasını, nə də ayrılıqda Azərbaycan bədii fikrinin inkişafında oynadığı rolu deyil, poeziyasının vəhdəti təmsil etməsini nəzərdə tuturuq. Bu vəhdət Füzuliyə qədər involyusiya mərhələsini yaşayan və fərqli təmayüllərlə seçilən poetik fikrin Füzuli yaradıcılığı timsalında birləşməsindən tutmuş, bədii mətnin strukturunda poetik və fəlsəfi planın sintezinə qədər özünü göstərir. Biz belə təhlil üsuluna Əli Hihad Tərlanın "Füzuli divanının şərhi" kitabında rast gəlirik [113]. Eyni zamanda İ.V.Zotovanın "Mir Tağı Mirin qəzəllərində tekst və teksaltı" və Fliştinskinin "Poeziya ərəb-müsəlman mistiklərində özünüifadə vasitəsi kimi" məqalələrində də ikipilləli məzmun haqqında məlumatlar mövcuddur. Hər iki məqalə "Müsəlman mədəniyyəti kontekstində təsəvvüf" kitabına daxil edilmişdir [114; 27].

Poetik fikrimizin ayrı-ayrı təmayüllərinin Füzuli şeiri

timsalında vahidləşməsi estetik büllurlaşma ilə paralel gedir. Artıq Azərbaycan ədəbi-nəzəri fikri bu aspektdən müşahidələrin nəticəsini bitkin nəzəri qənaət kimi təqdim edir: "İlahi" və "təbii" dünyaların hər ikisi Füzulidə bir yerdədir, biri zahirdə görünəndə, digəri alt qatda görünür. "İki dünyada" yaşayan şairin bir dünyada yaşayan adi bəşərdən fərqi də elə budur. Daha doğrusu, burada empirik fərdilik yoxdur, mənəvi vəhdət, kosmizm və qloballıq var" [11, s. 188].

Füzulidə belə bir mənəvi vəhdəti ən müxtəlif baxış bucağından izləmək mümkündür. Bizcə, daha səmərəli üsul poetik və təsəvvüfi məzmunun vəhdəti fonundan yanaşmadır. Çünki bu yöndən yanaşmada bədii təfəkkürün struktur modeli, orada təsəvvüfün mövqeyi haqqında daha dolğun təsəvvür yaranır və ümumən "Füzuli və təsəvvüf" probleminin çox qaranlıq cəhətləri aydınlaşır.

Həm də artıq təsəvvüfşünaslıqda sufi məzmunlu hesab edilən (məhz hesab edilən) bədii mətnə bu aspektdən yanaşmanın, mükəmməl olmasa da, müəyyən prinsipləri formalaşmışdır.

Füzulişünaslıqda "Füzuli və sufizm" problemi haqqında kifayət qədər tədqiqat aparılıb, son nəticədə istər türk, istər Azərbaycan, istərsə də Avropa alimləri şairin obrazlar sisteminin sufi poeziyası bazasına əsaslanmasını təsdiq etmişlər. Lakin belə bir elmi yekdilliklə yanaşı bu problem barədə əsasən iki mülahizə mövcuddur:

**1. Füzuli sufi simvollarından təriqətə mənsub olan şairlər kimi İlahi eşqi tərənnüm etmək naminə istifadə edib - Füzuli sufidir.**

**2. Füzuli sufi simvolikasını lirik qəhrəmanın məşuqəyə yüksək eşqini tərənnüm etməkdən ötrü adi poetik vasitə kimi işlədib - Füzuli sufi deyil [112, s. 74].**

Şairin hansısa sufi təriqətlərdən birinə mənsubluğunu və ya rəğbətini təsdiq edən heç bir tarixi fakt mövcud de-

yil. Lakin bununla yanaşı Füzulinin irihəcmli əsərlərindən olan "Bəngü-Badə", "Rind və Zahid", "Səhhət və Mərəz", "Yeddi cam" kimi alleqorik məzmunlu əsərlərində ənənəvi sufi-panteist konsepsiya yığcam süjet xətti daxilində öz bədii ifadəsini tapmışdır. Bu əsərlərdə ayrı-ayrı obrazların alleqorik planda ifadəsi vasitəsilə şairin öz dünyagörüşünün təsiri altında qismən dəyişən sufi konsepsiya bütöv sistem xarakterlidir.

Ruhi-mənəvi ekstazın texniki stimulu kimi musiqiyə böyük əhəmiyyət verən şair ("Həft cam") XIII əsrin dahi sufi şairi Cəlaləddin Rumi mistik məktəbinin (mövləviyyə) əsas ruhunu və ideyalarını təbliğ edir [115, s. 159]. "Səhhət və Mərəz" əsərində isə ruhun öz əzəli mənşəyi ilə vəhdət təşkil edərək fənaya qovuşması ideyası sufi eposçuluğu ənənəsində Əttarın "Məntiqüt-teyr" əsərini assosiasiya edir. Əgər "Məntiqüt-teyr"də quşların əfsanəvi Simurq axtarışından, sonda uzun məşəqqətlərdən sonra bu əfsanəvi padşahın onların özü olduğundan söhbət açılırsa (fars dilində si-otuz, mürğ isə quşdur), "Səhhət və Mərəz"də ruhla səfa ayinəsində görünən hüsnün vəhdətindən söz açılır [116, s. 80]. Şairin "Rind və Zahid" əsərində isə bir-birindən fərqli iki dünyagörüş – rindlik və zahidlik müqayisə edilir və onların bir-biri ilə zənginləşməsindən yaranan sufi-fəlsəfi konsepsiya ön plana çıxarılır. Rindanə ovqatın qabarıqlığı ilə seçilən "Bəngü-Badə"də də məcazi mənada götürülən şərabın üstünlüklərindən söhbət açılır. Mistik aşiqlə Allah arasında vəhdəti mümkünləşdirən ilahi eşqin simvolu şərab ilahiliyin rəmzi kimi faktlaşır. Onun lirik əsərləri içərisində də doktrial səciyyəli elə mülahizələr mövcuddur ki, şairin birbaşa sufi eşqinin tərənnümçüsü olduğuna şahidlik edir. "Qəd ənarəl", "Keç", "Bəkləriz", "Fəqr mülkün tut" və s. "traktat səciyyəli" (T. Hacıyeva) [117, s. 29] əsərlərin təsəvvüfi konsepsiyadan bəhrələnməsinə heç bir şübhə yoxdur. Bu əsərlərin ideyası təsəvvüf

təliminin ayrı-ayrı istiqamətlərini özündə əks etdirir. Bu tip əsərlər şairin ümumi yaradıcılığı timsalında azlıq təşkil etdiyindən, aşiqanə əsərlərin dünyəvi, yalnız traktat səciyyəli əsərlərin sufi məzmunlu hesab edilməsi də özünü doğrultmur, istər-istəməz birtərəfli şəkildə Füzulini dünyəvi eşqin tərənnümçüsü hesab etməyə gətirib çıxarır. Dünyəvi məhəbbəti həyatda ola biləcək ən ali dəyər kimi qiymətləndirib, şairin də bu ali dəyərin tərənnümçüsü kimi başa düşülməsi təcrübəsi ilə ədəbiyyatşünaslığımız tanışdır və bu təcrübə problemə yenidən qayıtmağı bir daha zərurətə çevirir. Məhz belə bir zərurətin nəticəsi olaraq son on ildə Füzuli poeziyasına bu aspektdən yanaşma meylləri tədqiqatçılar arasında kifayət qədər güclənib [118, s. 18-33; 119, s. 120-127; 121; 122; 123].

**Təsəvvüfşünaslıqda normativləşən qənaətə görə, poetik büllurluq, xalis estetiklik kəsb edən mətndə poetik və metafizik olmaq etibarilə ikipilləli məzmun mövcuddur. Belə mətndə obrazlar ümumanlaşıqlı səviyyəyə məxsus poetik və mistik təcrübəni əks etdirən fəlsəfi olmaqla iki müxtəlif strukturda mövcud olur.** Bu strukturlar arasında isə **simvol** əlaqələndirici həlqə rolunu oynayır. Təsəvvüf şeirinin Xətaiyə qədərki mərhələsində poetik-sufi mətnin bu strukturları arasında sərhədlər aydın sezilməkdə idi. Lakin tədricən vahid məcrada bütövləşən və büllurlaşan poetik təfəkkürdə bu planlar arasında sərhədlər silinir, poeziya yekcins xarakter kəsb edir. Belə yekcinslik bədii mətndə simvolun işarə etdiyinin (ilahi eşq, vəhdət, fəna, kəsrət və s.) simvol predmetinin özü ilə (şərab, sərv, dodaq, yanaq və s.) əvəzlənməsində əksini tapır.

Sufi şeirinin bu mərhələsini ərəb poeziyasında İbn əl-Fərid (XIII əsr) [27, s. 224-225], fars poeziyasında Hafiz (XIV əsr) [124, s. 95], türk poeziyasında isə Füzuli (XVI əsr) təmsil edir.

Füzulidə əvvəlki iki şairdən fərqli olaraq ikiplanlılıq

hərəsi ayrılıqda həndəsi mükəmməllik, bir-biri ilə münasibətdə isə elə vəhdət təşkil edir ki, poetik planın harada qurtarıb, sufi-fəlsəfi planın haradan başlandığını sezmək olmur. Başqa sözlə, poetik planın mükəmməlliyi daxili təsəvvüfi məzmunla şərtlənsə də, daxili qatın özünə nüfuz etməyə imkan vermir. Füzuli fars dilindəki "Divan"ının dibaçəsində yazır: "Bir neçə gecə özümü təfəkkür atəşi içində əritdim və fars qəzəlləri divanını tərtib etdim ki, həm kamil müdəqqiqlər onun üstüörtülü gözəl məzmunlarından həzz alsınlar, həm də sadədil zəriflər onun zövq ziyafətindən paylarını götürsünlər" [125, s. 23].

Deməli, şair özü oxucu auditoriyasını iki zümrəyə ayırır: sadədil zəriflər və kamil müdəqqiqlər (tədqiqatçılar). Eyni zamanda vahid mətndə hər iki zümrənin estetik zövqünü təmin etmək kimi şairdən böyük poetik istedad və ağır zəhmət tələb edən vəzifəni də qarşısına məqsəd qoyduğunu bildirir.

Füzulişünaslıqda onun təsəvvüflə əlaqəsi barədə bir-birindən fərqli iki mülahizənin meydana çıxmasının səbəblərindən biri də "dərun-birun", "məzmun-ibarə", "məna-surət" ifadələrinin müasir ədəbiyyatşünaslığın məzmun və forma anlayışı ilə eyniləşdirilməsidir. Halbuki bugünkü anlamda məzmun və forma anlayışları Füzuli şeirinin hər iki qatına eyni dərəcədə aid oluna bilər. Konkret mətnə keçək:

*Dönə-dönə ləli-meygunin öpər, ey qönçələb,*
*Qılmasınmı rəşki cami-badə xunindil məni.*

[126, s. 225]

**1. Poetik plan**

Məşuqə şərab içir. Bunu kənardan seyr edən aşiq məşuqəni şərab badəsinə qısqanır. Çünki aşiqin nəzərində gözəl şərab içmir, şərab badəsi məşuqənin al rəngli qönçə dodaqlarını öpür, özü də xüsusi canfəşanlıqla (dönə-dönə),

həm də bu, aşiqin nəzərində yalnız ona görə belə deyil ki, şərab badəsi onun rəqibidir və aşiq onu həyasızlıqda ittiham edir. Məşuqə öz misilsiz gözəlliyindən dolayı etinasız və passivdir. Şərab badəsi isə əlinə düşən bu fürsətdən mümkün qədər çox faydalanmaq istəyir. Məşuqə ilə şərab badəsinin məhrəm münasibəti aşiqin qəlbini qana döndərir. Şair lirik aşiqin əhvalını bədii sual vasitəsi ilə çatdırır. Bu sual hələlik fikrin daha qüvvətli alınmasına xidmət edir.

**2. Təsəvvüfi plan**

Simvolların işarə etdiyi təsəvvüfi anlayışlar: ləli-meygun (dodaq) - fənafillah, qönçələb - ilahi vüsala yetişməmək, cami-badə - ilahi eşq.

Təsəvvüf şairlərinin yaradıcılığında müştərək xarakter kəsb edən rəmz və məcazlarla zəngin "leksik fondun zahiri eyniliyi" (C. Şıxıyeva) [127, s. 65] həmin məcazların məna eyniliyi də demək deyil. Bu və ya digər şairin fəlsəfi dünyagörüşündən, mistik yaşantı səviyyəsindən asılı olaraq simvol müəyyən dəyişikliyə məruz qalır. Biz Füzuli poeziyasında simvolları şərh edərkən daha dürüst hesab etdiyimiz Əli Nihad Tərlanın "Füzuli divanın şərhi" [113] kitabına əsaslanmışıq.

İlahi vüsal həsrəti ilə qovrulan salik deyir: Ey vüsalına qovuşmadığım və sirrini kafi qədər anlamadığım (Allah), eşq daim səninlə təmas halındadır. Bu eşqin mənim də qəlbimi doldurub məni sənə qovuşdurmasını istəyirəm. Göründüyü kimi, ikinci misranın bədii sual formasında qoyulmuş poetik planda hökmün daha qəti təsdiqinə, təsəvvüfi planda isə salikin ilahi dərgaha ünvanlanmış sözlərinə yalvarış tonu, dua melodiyası verməyə xidmət edir. Allah metafizik mövcudluqdur. Eşq isə bu mövcudluğun aktiv formasıdır. Poetik planda məşuqənin etinasız, şərab abidəsinin isə canfəşanlığı daxili təsəvvüfi planda tam

məntiqi əsaslara dayanır.

Füzulidə tekst və tekstaltının bir-biri ilə müqayisədə nisbəti də maraqlıdır. İlk baxışdan elə görünə bilər ki, şair teksti təzahür, tekstaltını isə mahiyyət statusunda işləyir. Lakin belə olmayıb, hər iki plan bitkin, mükəmməl xarakter daşıyır. Digər bir beyt üzərində fikirlərimizi sübuta çalışaq:

*Arizin gül-gül edibdir meyi-gülgün tabi,*
*Vəh ki, bir güldən açılmış neçə gülzar sana.*

[126, s. 14]

**1. Poetik plan**

Aşiq məşuqəyə müraciətlə deyir: gül rəngli şərabın hərarəti yanağında neçə gül bağçası yaratmışdır. Əcəb işdir, sənə bir güldən neçə-neçə gülzar açılıb.

Şərab içənin yanağının güllənməsi (qızarması) təbiidir. Lakin şair bu təbiiliyi poetikləşdirir. Üz şərabın təsirindən ona görə gül-gül olubdur ki, şərab da gül rənglidir. Üzün güllənməsi şərabın gül rəngliliyindəndir. İkinci misrada isə səbəblə nəticənin müqayisəsi verilir. Şərab tək güldür. Onun yanaqdakı bəlirtisi isə daha çoxdur. Deməli, şərab içmiş məşuqə daha gözəldir.

**2. Təsəvvüfi plan**

Sufi simvolikasında ariz (yanaq) - vəhdət, gül - kəsrət gözəlliyi, şərab isə ilahi eşqdir. Sufi simvolikasının bu kodları prizmasından baxdıqda beyt tamamilə başqa anlam alır: Allahın ilahi eşqi vəhdət üzərində neçə kəsrət gözəlliyi vücuda gətirmişdir. Mənəvi vahid gözəllik material dünyada çoxsaylı gözəllik kimi təzahür edir.

Bu aspektdən şairin məşhur beytlərindən birinə diqqət yetirək:

*İstədim məhrəm oxundan cigərim yarəsinə,*
*Atdı min ox ki, dəyər hər biri bir parəsinə.*

[126, s. 193]

Gözəlin süzgün baxışından aşiqin yaralanması Şərq poeziyasının aktiv motivlərindəndir. Bu motivə Füzuli yaradıcılığında da kifayət qədər tez-tez təsadüf olunur. Yuxarıdakı beyt isə bu motiv əsasında qurulmuş ən gözəl nümunədir.

**1. Poetik plan**

Aşiq məşuqənin süzgün baxışından öz cigər yarasına dərman istəyir. Belə bir istək (dərmanı dərd verənin özündən, həm də məhz yaralayan oxdan istəmək) Füzuli poetik konteksti üçün çox təbiidir və onun orijinallığını şərtləndirir. Məşuqə aşiqin bu acizanə xahişini qəbul edərək ona yenidən nəzər yetirir və min yerə parçalanmış cigərinin hər birinə bu baxışdan bir ox dəyir. Beləcə, məşuqənin süzgün baxışlarının aşiqə etdiyi zülm mübaliğəli şəkildə oxucuya çatdırılır. Eyni zamanda aşiqin fəna əhvalı məşuqənin misilsiz gözəlliyinin də təsdiqinə çevrilir.

**2. Təsəvvüfi plan**

Süzgün baxışdan aşiqin yaralanması motivi qəlbin maddi duyğulardan təmizlənməsinin simvolik ifadəsi hesab edilir. Oxun simvolik anlamı isə ilahi hüsnün dünyəvi gözəllikdə təcəssümüdür. Bir cəhəti xüsusi nəzərə almaq vacibdir ki, təsəvvüfi simvollar bütün şairlərin yaradıcılığında eyni mənanın ifadəsinə xidmət etmir. Yuxarıda haqqında danışdığımız qəmzə oxundan cigərin yaralanması motivi Hafiz yaradıcılığında əməlləri və ibadəti tərk etmək, ilahi eşqə düşmək anlamındadır [5, s. 98]. Füzulidə isə həmin motiv dünyəvi gözəlliklərdə ilahi hüsnü seyr etmək və mənən kamilləşmək kimi məna anlamına uyğun gəlir. Beləliklə, beytin simvolik oxunuşu: mən Allahdan

bir gözəlliklə qarşımda təzahür etməsini dilərdim. O isə min gözəlliklə özünü göstərdi. Bu gözəlliklərin seyrindən dolayı maddi ehtiraslardan arındım.

Bu qəzəlin növbəti beytlərindən birində aşiq səhrada öz dərdi ilə baş-başa, tənha təsvir olunur:

*Qanı göz yaşı kimi əhli-nəzər kim, yügürüb,*
*Bir içim su verə dəşti-ğəmin avarəsinə.* [126, s. 193]

Aşiq qəm səhrasının avarəsidir. Səhrada olanın bir içim suya möhtaclığı təbiidir. Lakin aşiq səhrada tənha olduğundan göz yaşından başqa ona su verən yoxdur. Eşq dərdindən səhraya düşmüş aşiqin halına acımaq üçün onu anlamaq lazımdır. Bu dərdi anlayan əhli-nəzər isə yoxdur. Göz yaşı sözün hərfi mənasında əhli-nəzərdir (fiziki mənada göz yaşı göz əhlidir). Lakin dərd qanan anlamında əhli-nəzər olmadığından aşiqin məkanı səhradır.

Dəşti-qəm avarəsi kəsrət aləmində vəhdət həsrəti ilə yaşayan salikdir. Onun ağlayıb-sızlaması - İlahiyə qovuşmaq istəyi, bir növ duası, fasiləsiz zikridir. Bu zikr (göz yaşı) aşiqin həsrət yanğısını söndürməyə qabil yeganə vasitədir.

Oxucunu öz poetik sehrindən buraxmayan başqa bir beyt:

*Meyi-gülgundə degil nərgisi-məstin əksi,*
*Qədəh olmuş, göz açıb, aşiqi-didar sana.* [126, s. 14]

**1. Poetik plan**

Aşiq əlində şərab qədəhi tutmuş məşuqəyə müraciət edir: gül rəngli şərabda görünən sənin sərxoş gözlərinin əksi deyil. Didar aşiqin göz açıb sənə qədəh olmuşdur.

Gözün əksinin şəraba düşməsi fiziki qanunauyğunluqdur. Şair bu qanunauyğunluğu poetikləşdirir. Gül rəngli şərabda görünən aşiqin gözüdür. O, məşuqənin camalını daha yaxından seyr etmək üçün qədəhə çevrilmişdir. Möv-

cud kontekstdə söhbət ancaq seyrdən, tamaşadan getdiyi üçün şair "göz açıb" ifadəsini işlədir. Qədəhin üst hissəsi geniş açılmış gözə bənzəyir. Gözlərin geniş açılması həm də heyrət əlamətidir.

Deməli, çox yaxın məsafədən aşiq məşuqənin camalını heyranlıqla seyr edir. Bütün bunlar ən sonda aşiqin əlçatmaz arzusu kimi faktlaşır. Lirik aşiq məşuqəni seyr etmək üçün qədəh olmağı arzulayır.

**2. Təsəvvüfi plan**

Qədəh içi eşqlə dolu könülün simvoludur. Bu könül ilahi eşqin gücü ilə qeybin sirlərini özündə əks etdirir. Beytin sufi planına daxil olmaq üçün "göz açıb" ifadəsi açar rolunu oynayır. Əgər poetik planda "göz açıb" ifadəsi hərfi mənada işlənirsə, təsəvvüfi planda "insan yaranar-yaranmaz" anlamına uyğun gəlir. İlk yaradılış isə "bəzmi-əzəldir". Deməli, aşiqin eşq ilə dolu könlündə ilahi hüsn təcəlla edir. Qəlb heyranlıqla ilahi hüsnü seyr edir və bu heyranlığın mənşəyi bəzmi-əzəldən qoyulmuşdur. Bu beyt daxili mistik yaşantının "müşahidə" halını əks etdirir. Poetik planda gözəlin əlindəki badə yalnız seyrlə kifayətlənir. Təsəvvüfün daxili kamilləşmə mərhələlərində "müşahidə" halından sonra "yəqin" və "fənafillah" ardıcıllığına uyğun olaraq şair poetik planda qədəhin dodağa, yəni, mistik aşiqin fənafillaha qovuşmamışdan əvvəlki hal olan "müşahidə"ni təsvir edir.

Təsəvvüfi ideya Füzuli poeziyasında bəzən konseptual-sufi anlamda poetik məkansız təqdim olunur, amma traktat-şeir səciyyəsi daşımır. O mənada ki, ideya bütün çılpaqlığı ilə üzdə olmur. Ona görə də bu tipli mətnə yuxarıdakı prinsiplərlə yanaşmağa ehtiyac qalmır.

Məsələn:

*Cam içrə mey ki, dairə salmış hübab ona,*
*Ayinədir ki, əks salır afitab ona.* [126, s. 8]

Beyt simvolikdir. Lakin bu tip simvoliklik simvol predmetlərindən xüsusi bədii məzmun yaratmır. Burada yalnız sufi plan mövcuddur.

Şair iki mey dolu camı, onun üzərinə hava qabarcğının dairə, hübabın üzərinə isə günəşin əks salmasını təsvir edir. Heç bir simvolik açımı qəbul etməsək, bu beyti Füzuli şeiri kontekstində poeziya aktı kimi qiymətləndirmək mümkün deyil. Beytin simvolik kodlarla açımı isə bütöv bir təsəvvüfi eşq konsepsiyasını üzə çıxarır. İçi meylə dolu cam məhəbbətlə dolu könüldür. Bu camın üzərindəki hübab eşqin aşıb-daşmasından, arınıb durulmasından meydana gəlmişdir. Hübab güzgü tək parlaq olduğundan günəşi özündə əks etdirir. Beytin təsəvvüfi anlamı: ilahi eşq ilə dolu könül Allahın camalını özündə əks etdirir.

Eşqin təsəvvüfi planda emanativ funksiyasını əks etdirən başqa bir simvolik beyt:

*Əgər murad isə vermək səfayi-cövhəri-ruh,*
*Fələk misal yerit sağəri-şərabi-səbuh.* [266, s. 48]

Beytin normativ oxunuşu: əgər ruh cövhərini saflaşdırmaq istəyirsənsə, fələk kimi sabah şərabı qədəhini gəzdir. "Səfayi-cövhəri-ruh" ilahi eşqin təsirindən daxili emanasiyaya, ekstaz halına işarədir. Bunu "fələk misal" bənzətməsi bir daha sübut edir. Şair fələyi saqiyə, günəşi isə şərab qədəhinə bənzədir. Fələk-saqi hər gün öz qədəhini – günəşi Şərqdən Qərbə gəzdirir. Günəş göy üzərində gəzdirildikcə qaranlıq aydınlaşır, gözəlliklər aşkar olur. Ruhun saflaşması üçün də mürşidin salikə eşq dərslərini təlim etməsi vacibdir. Bəs niyə "şərabi-səbuh"? Yalnız ona görəmi ki, günəş səhər doğur? Təsəvvüf simvolikasında iki cür

şərab var: meyi-şəbanə, meyi-səbuh. Meyi-şəbanə, ruh ilahi dərgahdan ayrılarkən onun fitrətinə qoyulmuş eşqdir. Meyi-səbuh isə insanın öz mənəvi təkamülü nəticəsində əldə etdiyi Tanrı sevgisidir.

Şair qəzəllərinin birində bu simvoldan məharətlə istifadə edir:

*Səbuh üçün mənə dürdi-meyi-şəbanə yetər,*
*Əsər ki var, xərab olmağa bəhanə yetər.* [126, s. 60]

Sabah şərabı üçün mənə gecə içilmiş şərabın tortusu da bəsdir. Əvvəlcədən sərxoş olanın yenidən sərxoşluğuna bir bəhanə lazımdır. Simvol kimi mey eşqin doğmasına, şəb isə cəbərut aləminə işarədir. Sabah doğacaq olan eşq halları üçün mənə cəbərut aləmindəki eşqin əlaməti kifayətdir. Mən öz ilahi başlanğıcımdan aşiqəm, eşq içində məsti-xərab olmaq əsəri mənim fitri xüsusiyyətimdir. Onun yenidən canlanmasına kiçicik bir bəhanə lazımdır.

*Zairi-meyxanəyəm, müğ səcdəsidir taətim,*
*Eşq pirim, nəqdi-can nəzirim, təvəkkül niyyətim.*
*Hər yana baxsam, sürahi tək sücud etmək imiş,*
*Qanda olsam, badə tək düşmək ayağə adətim.*
[126, s. 155]

Şair bu qəzəlində özünü meyxanə ziyarətçisi kimi təqdim edir. Ziyarətçinin pərəstiş obyekti və bu obyektə itaət forması olmalıdır. Onun pərəstişgahı müğ, itaəti isə səcdədir. O, ziyarətə nəzir kimi canını gətirib. Çünki aşiqin canından başqa qiymətli heç nəyi yoxdur. Bu ziyarətçi özünü başqa "ziyarətçilərlə" (sürahi, badə) müqayisə edir. Adi mömin yalnız bir istiqamətdə üzü Kəbəyə səcdə edir. Sürahi üçün isə belə bir istiqamət yoxdur. O bütün istiqamətlərə səcdə edir. Badə isə harada olur-olsun ayağa düşür (yalnız məsciddə yox). Bu beytlərdə simvoliklik kəsb edən "meyxana", "müğ", "sürahi", "badə" obrazlarının potensial

ifadə gücündən maksimum istifadə edilmiş, panteist fəlsəfənin "hara baxsanız, Allah oradadır" tezisi də simvolik obrazlarla çatdırılmışdır.

Biz ikiplanlı poetik sufi mətnin nümunəsi kimi daha çox şairin rindanə şeirlərini təhlil obyektinə çevirdik. Lakin bununla yanaşı, məşuqənin zahiri atributlarından söhbət getdiyi məqamlarda da bu ikiplanlılığı izləmək mümkündür:

*Sərvi-azad qəddinlə mənə yeksan görünür,*
*Nəyə sərgəştə olan baxsa xuraman görünür.*

[128, s. 111]

Füzulinin məşhur beytlərindən olan bu mətnin poetik anlamı haqqında Sabir Əliyevin mülahizəsinə diqqət yetirək: "Beytdə orta əsr mexanikasının mühüm bir qanunu bədii obraz üçün əsas alınıb: məlumdur ki, hərəkətdə olana sükunətdə olan da hərəkətdə görünür (bu, beytin elmi qatı, real əsasıdır). Aşiq məşuqəyə deyir: azad (yeriyən) sərv mənim gözümə sənin qəddinlə bir vəziyyətdə görünür: mən sərgəştə (vurnuxan) olduğum üçün nəyə baxıramsa, hərəkət edən görürəm. Deməli, aşiq vurnuxanda dayanan sərvlər ona yeriyən sevgilini andırır, buradan da o nəticə çıxır ki, aşiq hər şeydə sevgilisini görür (bu da beytin bədii layı, obraz pilləsidir). Şair aşiq-məşuqu hərəkət-sükunət nöqtələri kimi götürüb şeirin içərisində maraqlı bir elmi anlayışı ifadə etmişdir" [129, s. 195]. Göründüyü kimi, sitat müəllifi bir beytdə elmi və bədii olmaqla iki qatın mövcudluğunu və onların həndəsi dəqiqliklə bir-biri ilə əlaqələndirildiyini sübut edir. Bizcə, bundan başqa beytin təsəvvüfi qatı da mövcuddur. Bu qata daxil olmaq üçün "sərv" simvolik açardır. Məlumdur ki, sərv vəhdətin simvoludur. Poetik planda sərvi-azadla qəddin yeksanlığından söhbət gedirsə, sufi planda kəsrətlə vəhdətin eyniliyindən söz açmaq olar. Sərgəştəlik bir yerdə qərar tuta bilməyən aşiqi

bildirməklə yanaşı, səma məclisində fırlanan sufi təəssüratı da doğurur.

Burada söhbətin sufi anlamda vəhdətdən getdiyini qəzəlin növbəti beytləri bir daha təsdiqləyir:

*Dərəm əhvalımı canana qılam ərz, vəli,*
*Görə bilmən özümü onda ki, canan görünür.*
[128, s. 111]

Təsəvvüfdə yalnız öz "Mən"ini məhv edən fəna məqamına yüksəlib, Allahın cəmalını seyr edir. Nə vaxt ki, canan görünür - şair mənəvi kamilləşmə vasitəsilə, deməli, özünüməhvlə vəhdətə yaxınlaşır, öz mövcudluğunu tapa bilmir. Şair bir tərəfdən "əhvalını canana ərz qılmaq" istəyirsə də, bu arzu o qədər də şiddətli deyil. Çünki onsuz da aşiqin əhvalı ərzsiz Allaha məlumdur:

*Mən nə hacət ki, qılam dərdi-dilim yarə əyam,*
*Qamu dərdi-dilimi yar bilibdir, bilirəm.*
[126, s. 145]

Lakin bununla yanaşı, aşiq özünü itirmədiyi anlarda, o məqamda ki, yar gözünə görünür, səba vasitəsilə ərz edir:

*Qıl, səba, könlüm pərişan olduğun canana ərz,*
*Surəti-halın bu viran mülkün et sultanə ərz.*
[126, s. 111]

Bu beyti sevgilisinin ayrılığından əfğan edən aşiqin sızıltıları da hesab edə bilərik, sufinin yalvarışı da.

"Könül" anlayışını Füzuli əksər hallarda struktural məzmunda təqdim edir. Yuxarıdakı beytdə isə "könül" viran mülkə bənzədilir. Bu cəhət də təsəvvüfdən qaynaqlanaraq ruhi-mənəvi strukturun disharmoniyasını ifadə edir.

Sənəti Tanrıya çevirən başlıca xüsusiyyət poetik büllurluq və dini məzmunla yanaşı bədii formanın mükəmməlliyidir.

Bədii forma mükəmməlliyi Füzulinin şüurlu şəkildə qarşısına məqsəd qoyduğu və əlinə qələm aldığı gündən sonadək sadiq qaldığı niyyət olub. Şair bu barədə əsərlərində ətraflı məlumat verir. Tədqiqatçılar da şairin "filoloji zəhmətkeşliyini" dönə-dönə vurğulayıblar. Lakin Füzuli şeirlərinin çoxplanlılığını, bu planların bir-biri ilə həndəsi uyarlılığını- bir sözlə, obraz mükəmməlliyini yalnız zəhmətin nəticəsi də hesab etmək doğru olmazdı. **Füzulidə bədii forma mükəmməlliyini şərtləndirən başlıca xüsusiyyət bədii yaradıcılığa sövq edən daxili ideyanın kamilliyi və mənəvi yaşantının dərinliyidir. Əgər mənəvi yaşantı sənət aktına çevrilməli olan səviyyədədirsə, onda münasib formanı da müəyyənləşdirir. Füzulinin hər bir qəzəlini könül mülkünün özündən kənara ötürdüyü mənəvi yaşantıdan ayrılan enerji də hesab etmək olar. Və o, bədii mətnə çevrilmə prosesinin özündəcə mükəmməl ifadə formasının tapılmasına kömək edir. Dərd potensiallıq mərhələsində (hələ şeirə çevrilməmişdən əvvəl) poetik dünyaduyumun məntiqi ilə yaşanılır. Ona görə də aktivləşdiyi, şeirə çevrildiyi andaca formanı da tapır.** Əlbəttə, bu məqamda Şərq poeziyasının uzunəsrlik sufi və poetik məzmunu ifadə təcrübəsinin də həlledici rolunu nəzərdən qaçırmaq olmaz.

Füzuli eşqinin xarakteri barədəki mübahisələrdə "təsəvvüfi", "dünyəvi" qəlibləri tez-tez ifadə olunur. Mətnin ikiplanlılığı bir daha təsdiq edir ki, şairin eşqini mütləq şəkildə bunlardan yalnız biri hesab etmək hər iki halda yanlışdır. Son dövr ədəbiyyatşünaslığımızda klassik irsə münasibətdə yaranmaqda olan ifrat tendensiyaları sezən A.Rüstəmova çox doğru olaraq qeyd edir: "Bir vaxtlar marksist-leninçi ehkamlar bizi mənəviyyatdan, ruhdan, Tanrıdan uzaqlaşdırırdı. İndi idealist fəlsəfəyə həddindən artıq aludəçilik bizi Yer, Təbiət və İnsan realiyasından təcrid edir. Hər iki halda da klassik uduzur - onun bütövlüyü-

nə, həqiqətinə hər iki halda xələl gəlir..." [118, s. 19]

**Zahidin Allahla təmənnalı məhəbbəti ilə aşiqin məşuqəyə cismani ehtirası eyni dərəcədə naqislikdir. Təmənnadan uzaq Allaha eşq və ehtirasdan arınan gözələ məhəbbət isə eyni bir kamillik zirvəsidir. Füzuli eşqi də belə bir kamillik zirvəsindən dəyərləndirilməlidir. Eşqin belə bir zirvədən dəyərləndirilməsinin ən böyük nümunəsi isə "Leyli və Məcnun" dastanıdır.**

"Leyli və Məcnun" Füzuli poeziyasında onun fəlsəfi dünyagörüşü, eşq konsepsiyası və bu konsepsiya daxilində təsəvvüfün mövqeyini əks etdirmək baxımından dini məzmunlu, irihəcmli əsərlərindən ("Mətləül-etiqad", "Hədiqətüs-süəda", "Hədisi-ərbəin") daha çox əhəmiyyətlidir.

Poemada təsəvvüf konsepsiyası, fəlsəfə bütün süjet xəttini özünə tabe etdirən hakim mövqedə deyil, bədiiliyin daxilindədir. Lakin "vasitəçi", "zahiri qabıq" səciyyəli də deyil. Eşqin ən ali mərhələsinin təsviri üçün daxili anlamdadır. Həm də fəlsəfi ideyanın poemadakı belə səciyyəsi ümumən təsəvvüfün Füzuli bədii düşüncəsindəki mövqeyi ilə şərtlənir. Şair əsərin girişində "Əfsanə bəhanəsilə raz ərz etdiyini" qeyd edir:

*Tutsam tələbi-həqiqətə rahi-məcaz,*
*Əfsanə bəhanəsilə ərz etsəm raz,*
*Leyli səbəbilə vəsfin etsəm ağaz,*
*Məcnun dili ilə etsəm izhari-niyaz.* [130, s. 13]

"Leyli və Məcnun" əsərindəki eşqi mütləq şəkildə ilahi eşq hesab etmək də doğru deyil. Əsərdə eşq dünyəvilikdən ilahiliyə doğru təkamüldə verilmişdir və bizcə, əsərin təhlili də bu aspektdə aparılmalıdır.

Təsəvvüf təlimində mənəvi təkmilləşmənin şəriətdən sonrakı üç mərhələsinə uyğun olaraq (təriqət, mərifət, həqiqət), əsərdə də eşqin təkamülü üç mərhələni ayırıb fərqləndirməyə imkan verir:

**1. Dünyəvi məhəbbət**

**2. Dünyəvi məhəbbətdən ilahi eşqə keçid**

**3. İlahi eşq.**

Əsərdə **birinci mərhələ** Məcnun dünyaya gələndən ("Bu tuğrayi misalı – məhəbbətdir və dibaçeyi-divani-möhnətdir") Kəbədəki dua səhnəsinəqədərki ("Bu Məcnu-ni-biçarənin Kəbəyə üz urduğudur və minacatla sevdası artdığıdır") süjet xəttini əhatə edir.

Qəbilə başçısının yeniyetmə övladı Qeysin məktəbdə Leyli ilə tanışlığı, bir-birinə könül vermələri iki gəncin bir-birinə olan ülvi məhəbbətidir. Bu mərhələdə nə Leyli simvolik obraz, nə də Qeys Tanrı aşiqi deyil. Şairin Leyli-ni təsvir edərkən işlətdiyi epitetlər onun real həyatdan gəl-diyini (prototipliyini) bir daha sübut edir:

*Şahbaz baxışlı, ahu gözlü,*
*Şirin hərəkətli, şəhd sözlü.*
*Rahü rəvişi müdam ğəmzə,*
*Başdan ayağa təmam ğəmzə.*
*Ayruqca şəklü xoşca peykər,*
*Yaxşıca sənəm, gözəlcə dilbər,*
*Aləm səri-muyinin tüfeyli,*
*Məhbubeyi-aləm, adı Leyli.* [130, s. 55]

Eyni zamanda Qeyslə Leylinin ilkin məhəbbət "oyun-ları" yeniyetmələrin yaş həddinə uyğun, olduqca real plan-da təsvir edilir:

*Çün lövhələr üzrə xətt yazardı,*
*Əmdən xəttini qələt yazardı.*
*Yəni ki, xəta təvəhhüm edə,*
*Ol gül açılıb təbəssüm edə...*

Hadisələrin sonrakı inkişafı məcnunluq üçün zəmin hazırlayır. Leyli cəmiyyətlə ilk toqquşmada zahirən güzəş-tə gedir, Qeys isə eyni məqamda eşqini etiraf edir, həm də

bu mərhələ üçün o qədər də xarakterik olmayan bir tərzdə qeyri-iradi, bunu fitri başlanığıcla əlaqələndirir:

*Su süfləliyindən ayrılarmı?*
*Od yandıra bilməyə bilərmi?*
*Ol gün ki, rəhimdə kilki-qüdrət,*
*İcadıma verdi ziybi-surət,*
*Doldurdu həva ilə dimağım,*
*Sevda ilə bağladı ayağım...* [130, s. 85]

Qeys eşq mübtəlalığının "tale məsələsi" olduğunu anlamaqla yanaşı, Leyli nigahı ilə bu dərdə məlhəm ediləcəyinə də inanır:

*Onunla edin bu dərdə məlhəm,*
*Urman dəxi özgə kimsədən dəm.* [130, s. 86]

Qeysin bu sözlərini eşidən ata Leyli ilə onun dərdinə dərman etmək qərarına gəlir. Lakin Leylinin atası bu izdivacın baş tutması üçün Qeysin eşq xəstəliyindən sağalmaq şərtini irəli sürür.

Bu mərhələdə Məcnunun Leyliyə qovuşması üçün iki yol mövcuddur: geriyə və irəliyə gedən yollar. Geriyə Leyliyə qovuşmaq üçün inkişafın aşağı səviyyəsini təmsil edən kütlə ondan məhz özü kimi olmağı tələb edir. Cəmiyyət şəxsiyyəti sevmir, onu öz içində əritməyə çalışır. Bəs Məcnun necə, Qeysə dönmək istəyirmi? Məşhur Kəbə səhnəsində cəmiyyət Qeysi belə bir dilemma qarşısında qoyur. Məcnunluq Qeys üçün irəlidə - xəyal aləmində Leyli vüsalının potensial imkanıdır. Kütlə də Qeysi məhz bu imkandan məhrum etmək istəyir. Qeys yaxın gələcəkdə heç bir vüsal ümidi görməsə belə bu potensial imkandan imtina etmir, daha doğrusu, imtina edə bilmir. Tanrı dərgahına əl açıb eşq bəlasına daha artıq mübtəla olmağı diləyir:

*Ya rəb, bəlayi-eşq ilə qıl aşina məni!*
*Bir dəm bəlayi-eşqdən etmə cüda məni!* [130, s. 93]

Artıq bu, Məcnunun çıxardığı qəti hökm olur. Geriyə yol yoxdur!

Bununla da Qeys sevgisindən Məcnun eşqinə keçidi təmin edən **ikinci mərhələ** başlayır. Əsərdə orta keçid bu mərhələlər içərisində ən uzunu və keşməkeşlisidir. Bu mərhələdə aşiqə həm geriyə - nigahda Leyliyə, həm də irəliyə - məna aləmində Leyliyə qovuşmağa sövq edən qüvvələr eyni vaxtda təsir edir. Real Leylidən mütləq hüsnə tədrici təkamülü özündə əks etdirən bu mərhələdə Məcnun iki qütb arasında tərəddüddədir. Cəmiyyətlə Məcnun arasında yaranan uçurum da ən kəskin şəkildə bu mərhələdə əksini tapmışdır. Məcnunluq sufi planda daxili kamilləşmə ilə yanaşı, real sosial planda mövcud ənənələrə, normativ baxışlar sisteminə etiraz kimi də faktlaşır. Ona düşmən kəsilən cəmiyyətə qarşı Məcnun da incə bir müxalifət ovqatı hiss etdirir:

*Çoxdur bəni-adəm içrə bidad,*
*Et könlümü vəhşət ilə mötad!*
*Bir mülkdə ver mənə qərarı*
*Kim, etməyə adəmi qübarı!* [130, s. 93]

Füzulidə "insan və zaman" konflikti cəmiyyətin qeyrihümanistliyindən doğmur. Halbuki bizim ədəbiyyatşünaslıqda şairin sosial baxışları adı altında bu yöndən ifrat sosioloji tədqiqatlar aparılıb. "Uzun illər biz ədəbiyyatşünaslığımızın tarixini, faktlarını və inkişaf qanunauyğunluqlarını sxemlərlə öyrənmişik: tədqiqatlarda və dərsliklərdə bütün orta əsrlər sığıb Füzuli ilə mücərrəd bir şər, zülmət, qaranlıq stereotipinin arasında münaqişənin və mübarizənin modelinə" [134, s. 95].

Məcnunla cəmiyyət arasındakı konflikt kamilləşən və bundan dolayı cəmiyyətdən uzaqlaşan aşiqlə öz məişət

həyatını yaşayan və hər şeyə, o cümlədən Məcnuna da bu məişətin dar çərçivəsindən baxan bəşər arasında baş verir. Bu konfliktin kökü - tarixi şəraitin qeyri-naqisliyi ilə bərabər, şəxsiyyət kimi Məcnunun mənəvi-psixoloji aləmindədir. Əgər belə olmasa idi, mövcud tarixi şəraitdə real qüvvə olan Nofəlin qılıncı problemi həll edərdi. Məhz Nofəl qələbəsinin faydasızlığı Məcnun eşqinin adi məişət deyil, "tale", "qəzavü-qədər" səviyyəsini bir daha təsdiq edir.

Əsərdə İbn Səlam Məcnunun rəqibi olsa belə, məcnunluğa əks qütb kimi deyil, paralel işlənmişdir. Hətta onu məcnunlaşmayan, Leyli nigahına can atan Qeysin (birinci mərhələ) adekvatı da hesab etmək olar. O, Leylinin izdivacına nail olmaq üçün malından, hətta canından belə keçməyə hazırdır:

*Şərt eylədi ol bulənd əxtər*
*Kim, olsa bu kami-dil müyəssər*
*Sərf eyləyə gəncü mali-aləm,*
*Canənə yolunda, bəlkə can həm.* [130, s. 121]

Lakin bütün bu səxavəti və fədakarlığı ilə yanaşı ölüm anınadək İbn Səlam yer övladı olaraq qalır. Füzulinin öz təsnifatı ilə yanaşsaq, İbn Səlam eşqi "cananı can üçün sevməyin" faktı idi. Sufiyanə eşq əsərin sonuna doğru Məcnunun simasında artan xətt üzrə inkişaf edir. Azərbaycan ədəbiyyatşünaslığında sosioloji yönün üstün olduğu bir şəraitdə belə tədqiqatçılar bu fikri təsdiq edir [131, s. 79; 135, s. 76].

Əsərdə **üçüncü mərhələ** "Bu Leyli Məcnunun istiğnasıdır və isbati-səfayi-imlasıdır" hissəsindən başlamış Məcnunun ölüm səhnəsinədək olan hissəni əhatə edir. Əvvəlcə Tanrının zərrəsi, nuru kimi Leyliyə aşiq olan Məcnun öz "Mən"ini fəna dəryasında məhv edib Tanrının özünə qovuşduqdan sonra Leylidən imtina edir:

*Xəyalilə təsəllidir, könül meyli-vüsal etməz,*
*Könüldən dişrə bir yar olduğun aşiq xəyal etməz.*
[130, s. 209]

Türk ədəbiyyatşünası Hasibə Mazıoğlu "Leyli və Məcnun"un sonunda Məcnunun Leylidən imtina etməsini mahiyyət etibarilə dünyəvi hesab etdiyi eşqin idealizasiyası kimi qiymətləndirir. "Məcnunun ancaq eşq ilə yaşaya biləcəyi, onun eşqin ələmlərindən zövq duyması kimi bütün hisslər bizi mərhələ-mərhələ bəşəri eşqin üstünə yüksəldir. Şair eşqin bu mərhələsində təsəvvüfün məcazlarından faydalanmış, eşqi idealizə edərkən təsəvvüfi bir vasitə olaraq istifadə etmişdir" [71, s. 105].

Müəllif Məcnunun timsalında eşqin mənəvi təkamül nəticəsində kəmiyyət dəyişməsindən keyfiyyət çevrilməsini diqqətdən kənarda qoyur.

Əgər eşqdə məqsəd eşqin özünün idealizasiyası idisə, onda Məcnunun aşağıdakı bəyanatını necə anlamalı:

*Məndə olan aşikar sənsən,*
*Mən xud yoxam, ol ki var, sənsən!*
*Daim sənə məndədir təcəlli,*
*Mən qeyrdən olmuşam təsəlli.* [130, s. 208]

Eşq cövründən zövq bulmaq Məcnunun Leylidən ayrıldığı gündən səhrada Leyli ilə yenidən üz-üzə gəldiyi günə qədər xarakterik idi. Çünki eşqin bu cövrü Məcnunu ali məqsədə-vəhdət məqamında Leyli vüsalına doğru aparırdı. Məqsədə nail olunduqdan sonra isə vasitə bir növ əhəmiyyətini itirir. Bu məqamda Məcnunun əsl kimliyini də ən dürüst şəkildə Leyli anlayır:

*Oldum necə olduğundan agah,*
*Xoş mərtəbədir bu, bərəkallah!...*
*Hala mənə rövşən oldu halın,*
*Meraci-həqiqəti kəmalın.* [130, s. 211]

Əgər əvvəlcə Leyli Tanrı zərrəsi kimi Məcnunun kamilləşməsinə səbəb idisə, sonda kamilləşən Məcnunun simasında Leyli də həqiqəti və vəhdəti dərk edir, ölüm yatağında

*Ya rəb, məni et fənayə mülhəq*
*Kim, rahi-fəna imiş rəhi-həq* – [130, s. 218]

deyərək dünyadan kamil aşiq kimi gedir. Hekayətin məna aləmində vüsalla, vəhdətlə tamam olması üçün belə də olmalı idi. Kamilləşib fənayə qovuşan Leyli və Məcnun bir-birinə, birlikdə isə Tanrılarına qovuşurlar:

*İzharə gəlib rümuzi-vəhdət,*
*Vəhdətdə tamam olub hekayət.* [130, s. 232]

**XVI əsrdən reallaşan cəmiyyət təfəkkürü Füzuli şeiri timsalında mistik ideyanı mətnin daha dərin qatına qovur. Zamanın qovduğu və sıxlaşdırdığı bu ideya mətnin nüvəsində enerji kütləsi kimi qərarlaşır. Üst qatda "fələklərə baş vuran" bədiilik bu nüvə ətrafında cəmləşir. Təsəvvüfi ideyanın Füzuli poeziyasında asanlıqla sezilməməsinə səbəb də elə budur. Daxili qata sıxlaşan ideya üst qatdakı mükəmməlliklə vəhdət təşkil edərək estetik zövqü kifayət qədər təmin edir. Sanki bu qatda sehirlənən və cazibəyə düşən oxucu bu cazibədən çıxıb daha ali orbitin cazibə dairəsinə düşə bilmir. Bu mənada Füzuli poeziyası yalnız Azərbaycan ədəbiyyatının deyil, bütövlükdə ümumtürk ədəbiyyatının, yalnız orta əsrlərin deyil, bütün dövrlərin fövqəlestetik poeziya zirvəsi kimi faktlaşır.**

## NƏTİCƏ

İslam sivilizasiyasının öz daxili ictimai-siyasi, eyni zamanda dini-mənəvi mühitindən qaynaqlanaraq zahidlik hərəkatı şəklində meydana çıxan, ilkin təsəvvüf mərhələsində qeyri-islami təmayüllərin nəzəri bazası əsasında mistik-fəlsəfi ideyalarla zənginləşən və təşkilatlanan, Qəzalinin timsalında qeyri-islami ifratlardan arınaraq yenidən start götürdüyü ilkin nöqtəyə dönən təsəvvüf təlimi uzun əsrlər boyu ümummüsəlman mədəniyyətinin mühüm ideya bazası funksiyasını yerinə yetirmişdir. Təsəvvüfün İslam sivilizasiyası daxilində bu kulturoloji funksionallığı elə bir səviyyədə olmuşdur ki, yalnız poeziyanın deyil, mədəniyyətin və sosial həyatın bütün sahələrini bu və ya digər baxımdan əhatə etmişdir. Belə ki, müsəlman memarlığından tutmuş müsəlman dövlətlərində siyasi idarəçilik mexanizmlərinə qədər əksər sosial-mədəni təsisatlar təsəvvüf təliminin müxtəlif dünyagörüş və yaşam modellərinə əsaslanmışdır. Bu baxımdan poeziya xüsusilə fərqlənir.

İlkin mənəvi başlanğıca - Allaha intuitiv yolla, eşqlə qovuşmağı və bu qovuşma üçün daxili kamilləşmə yolunu əsas götürən təsəvvüfün poeziyaya ilkin müraciətində məqsəd ekstaza çatmağı texniki vasitələrlə sürətləndirmək olmuşdur. Lakin bu ilkin tanışlıqdan sonra təsəvvüflə poeziyanın qarşılıqlı münasibətləri bir-birindən fərqli iki mərhələdən keçib:

**1. Poeziya sufi ideyanın ifadə vasitəsi kimi;**

**2. Poeziya sufi ideyanın estetik özünüdərk aktı kimi.**

Milli bədii düşüncə nümayəndələrinin yaradıcılıqları timsalında müşahidələr onu göstərdi ki, poeziya sufi ideyanın ifadə vasitəsi statusunda bir-birindən fərqli iki axarda - poetik fəlsəfə və fəlsəfi poeziya səviyyələrində əyanilәşir. Bu da ümumən şairin poetik istedadı və mistik yaşantı səviyyəsi (təriqətlə bağlılığı) ilə bərabər, bədii fikrin öz daxili hərəkətverici potensiyasından da qaynaqlanır. Belə ki, insanın dünyaya poetik münasibəti universal psixosemantik mahiyyət daşımaqla daim onu məhdudlaşdıran sosial-mədəni buxovları qırmaq, suverenliyə doğru can atmaq kimi ümumi hərəkət istiqaməti ilə də şərtlənir. Poeziya sufi ideyanın ifadəsi statusunda ideyanın çılpaq təqdimi (əsasən, sufi eposu, məsnəvi və s. janrlar) və simvolik təqdimi (əsasən, qəzəl janrı) olmaqla da bir-birindən fərqli istiqamətlərdə əyaniləşir. Simvolik təsəvvüfi mətn ikipilləli məzmun kəsb edir. Belə şeirdə obrazlar iki müxtəlif strukturda - zahiri poetik və daxili metafizik strukturda eyni vaxtda mövcud olur.

Fəlsəfi ideyanın özünü sənətdə estetik dərk mərhələsində isə təsəvvüfi ideya sıxlaşaraq şeirin nüvəsinə çəkilir. Belə şeirlərdə varlığın poetik dərki və təqdimi ön plana çıxır.

Türk xalqlarının İslamı qəbulundan sonra türkün bütöv mənəvi-estetik potensiyası yeni axarda, ümummüsəlman mədəniyyətinin daxilində inkişafını davam etdirir. Bundan dolayı XIII-XVI əsrlər Azərbaycan ədəbiyyatının da istər ideya-estetik əsasları, istər ümumi inkişafı İslam mədəniyyəti hadisəsi olan təsəvvüflə sıx bağlı olub. Bu bağlılığı əsas götürərək yuxarıdakı sufi poeziyasının nəzəri prinsipləri əsasında bu mərhələni tədqiq edib aşağıdakı qənaətlərə gəlinmişdir.

XIII əsrdə Mahmud Şəbüstəri yaradıcılığında varlığın sufi-fəlsəfi mənzərəsinin traktatda olduğu kimi çılpaq ideyanın təqdimi səviyyəsində əyaniləşməsi, həm də ümumən

təfəkkürün poetik fəlsəfə tipində fəlsəfi yönün üstünlüyü onun poeziyasını traktat səciyyəli poetik fəlsəfə kimi dəyərləndirməyə tam əsas verir. Həmçinin, zəngin təsəvvüf eposçuluğu ənənələri əsasında yetişən böyük təsəvvüf şairi Əvhədinin yaradıcılığı da poetik fəlsəfə kimi meydana çıxır. Onun təsəvvüfi dünya modelinə əsaslanan didaktik-əxlaqi nəsihətləri heç bir halda estetik meyarlara əsaslanan poeziya hadisəsinə çevrilmir.

XI əsrdən etibarən qədim dövlətçilik ənənələrinə malik türklərin müsəlman sivilizasiyası daxilində ictimai-siyasi fəallığının artması tədricən sosial-mədəni sferada da öz təsirlərini göstərməyə başlayır. Farsca şeir ənənəsi ilə yanaşı, türkcə şeirlərin yaranması bu dövrdə bu istiqamətdə baş verən mühüm etnik-mədəni dəyişikliklərdəndir. İzzəddin Həsənoğlu, Qazi Bürhanəddin, Nəsimi, Kişvəri, Həbibi, nəhayət Məhəmməd Füzuli ümummüsəlman mədəniyyəti daxilində öz tipoloji avtonomluğu ilə seçilən oğuz-səlcuq mədəniyyətinin nümayəndələridir. Azərbaycan təsəvvüf ədəbiyyatı sonrakı inkişaf mərhələsini oğuz-səlcuq mədəniyyətinin daxilində də davam etdirir. İzzəddin Həsənoğlunun "Apardı könlümü" qəzəli ilk türkdilli təsəvvüf mənzuməsi kimi, həm də ilk türkdilli ədəbiyyat nümunəsinə çevrilir. Bu şeir fəlsəfi ideyanın simvolik planda təqdimi kimi dildən uzunəsrlik inkişaf tələb edən bir formada yazılmışdır. Və onun yaradıcılığından artıq poetik fəlsəfə kimi deyil, təsəvvüfi ideyanın simvolik planda əks olunduğu fəlsəfi poeziya kimi söz açmaq mümkündür. Milli bədii fikrimizdə fəlsəfə və poeziya məhrəmliyinin, təriqət və sənət vəhdətinin ən böyük nümunəsinə Nəsimi poeziyası çevrilir. Hürufilik təliminin fəlsəfi görüşləri əsasında yetişən Nəsimidə varlığın sufi-fəlsəfi təqdimi ilə, poetik emosiyanın bir-birinə çulğalaşıb yeni bir estetik keyfiyyət halında üzə çıxdığının şahidi oluruq.

XIV əsrdən sonra istər hürufilik, istərsə də digər təriqətlər, xüsusən Səfəvilik bədii fikrin inkişafına həlledici təsir göstərsələr də, elə həmin təriqətə bağlı şairlərin öz yaradıcılığında poetik fikrin təriqətin müəyyənləşdirdiyi çərçivələri aşıb keçərək suverenliyə doğru ümumi hərəkət istiqamətinin ilkin əlamətləri görünməyə başlayır. Bu istiqamət Kişvəri yaradıcılığından keçərək Füzulidə ən kamil zirvəsinə çatır. Tədricən reallaşan cəmiyyət təfəkkürü sufi ideyanı Füzuli şeiri timsalında mətnin daha dərin qatına qovur. Suverenliyə can atan və büllurlaşan poetik fikir nəhəng poetik istedadın timsalında yenidən hakim mövqeyə keçir.

Beləliklə, XIII-XVI əsrlər Azərbaycan bədii düşüncəsinin poetik fəlsəfədən (Mahmud Şəbüstəri, Marağalı Əvhədi) fəlsəfi poeziyaya (İzzəddin Həsənoğlu, Qazi Bürhanəddin Nəsimi), fəlsəfi poeziyanın təriqət mərhələsindən isə (Qasım Ənvar, Şah İsmayıl Xətai) estetik poetikliyə (Məhəmməd Füzuli) doğru inkişafının şahidi oluruq.

## ƏDƏBİYYAT


1. Hayrani Altıntaş. Tasavvuf Tarihi, Ankara: Ankara Üniversitesi Basimevi 1986, 170 s.

2. Бертельс.Е. Э. Суфизм и суфийская литература, Москва, Наука, 1965, 524 с.

3.Васильев.Л.С. История религии Востока, Москва, Высщая школа, 1983, 368 с.

4. Peyami Səfa. Mistisizm (Təsəvvüf), İstanbul, Türkiyə Ticarət Postası mətbəəsi, 1961, 131 s.

5. Agah Sirri Ləvənd. Divan ədəbiyyatı, İstanbul, 1980.

6. Körpülü Fuad. Türk ədəbiyyatında ilk mütəsəvviflər, Ankara, Türk Tarix Qurumu Basımevi, 1976, 415 s.

7. İmam Qəzali. İhyai ulumid-din, V c., İstanbul, Arslan yayınları, 1979, 400 s.

8. Qurani-Kərim.

9. İmam Qəzali. İhyai ulumid-din, IX c., İstanbul, Arslan yayınları, 1981, 415 s.

10. Seyid Əliəkbər Ocaqnəjad. İslam, elm və təhsil, "Cahan", 1997, N 3.

11. Qarayev Yaşar. Tarix: yaxından və uzaqdan, Bakı, Sabah, 1996, 712 s.

12. Fritjof Kapra. Fizikanın Daosu, İstanbul, Arıtan yayınevi, 1991, 448 s.

13. Кочетов. А. Н. Буддизм, Москва, Наука, 1983, 177 с.

14. Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi, Bakı, Bilik İrşad Mərkəzi, 1996, 340 s.

15. Розин. В.М. Введение в културологии, Москва, Издательский Дом Форм, 1997, 224 с.

16. İmam Qəzali. Əl munqizu minəd-dələl. İstanbul, Cacaloğlu yayınevi, 1970, 96 s.

17. Мухаммед Игбал. Таинства личности и суфизм. Стеранянц. Философские аспекти суфизма, Москва, Наука, 1987, 190 с.

18. Адам Мец. Мусульманский ренессанс, Москва, Издательство "ВИМ", 1994, 544 с.

19. Азизаддин Насафи. Зубдад ал-хакаик. Суфизм в контексте мусульманской культури, Москва, Наука, 1989, 341 с.

20. Abdulbaqi Gölpınarlı. 100 soruda təsəvvüf, İstanbul, Gerçək Yayınevi, 1969, 222 s.

21. М. Гендель. Космогоническая консепция, Санкт-Петербург, 1994, 389 с.

22. Anri Masse. İslam, Bakı, AE Baş Redaksiyası, 1991, 256 s.

23. Кныш А. Д. Учение Ибн Араби и поздней мусульманской традиции. - Суфизм в контексте мусульманской культури, Москва, Наука, 1989, 341 с.

24.Гегель. Энциклопедия философских наук, том I , Москва, Госполитиздат, 1985, 501 с.

25. Гегель. Наука логики, том III , Москва, Мысль, 1972, 374 с.

26. Ədəbiyyatşünaslıq teminləri lüğəti (tərtibçi Ə. Mirəhmədov), Bakı, Maarif, 1978, 200 s.

27. Фильштинский И. М. Поэзия как форма самовыражения арабо-мусульманских мистиков. Суфизм в контексте мусульманской культури, Москва, Наука, 1989, 341 с.

28. İmadəddin Nəsimi. Seçilmiş əsərləri, Azərbaycan klassik ədəbiyyatı kitabxanası, V c., Bakı, Elm, 1985, 368 s.

29. Yunus İmrə. Güldəstə, Bakı, Yazıçı, 1992, 232 s.

30. Осипова. М.М. Религиозно-философские суфийские концепции в маснави Амира Хосрова Дехлеви "Довал-пани Хизр хан". Суфизм в контексте мусульманской культури, Москва, Наука, 1989, 341 с.

31. Sasani Ç. Füzulinin irfani şeirləri. AEA-nın Xəbərləri, Ədəbiyyat, dil və incəsənət seriyası, Bakı, Sabah, 1996, N 4.

32. Cəfərov H. Qədim türk ədəbiyyatı və Nizami Gəncəvi. Nizami Gəncəvi - 850 (Məqalələr toplusu), Bakı, Bakı Universitetinin nəşriyyatı, 1992, 306 s.

33. Osmanlı Vəli. Türk xalqları ədəbiyyatının ortaq başlanğıcı (VI-X əsrlər), Ərzurum, 1996.

34. Токарев С.А. Ранние формы религии, Москва, Политиздат, 1990, 622 с.

35. Qasımlı Məhərrəm. Aşıq sənəti, Bakı, Ozan, 1996, 260 s.

36. Rəfiq Özdək. Türkün qızıl kitabı. II c., Bakı, Yazıçı, 1999, 232 s,

37. Süleymenov Oljas. Az-ya, Bakı, Azərnəşr, 1993, 304 s.

38. Füzuli Bayat. Xoca Əhməd Yəsəvi və xalq sufizminin bəzi problemləri, Bakı, Ağrıdağ, 1997, 102 s.

39. Фильштинский И.М. Консепция единства религиозново опыта у арабских суфиев. Суфизм в контексте мусульманской культури, Москва, Наука, 1989, 341 с.

40. Парапсихология, Москва, 1992.

41. Şaman əfsanələri və söyləmələri, Bakı, Yazıçı, 1993, 144s.

42. Abdulqadir İnan. Tarixdə və bu gün şamanizm, Ankara, Türk Tarix Kurumu Basımevi, 1954, 222 s.

43. Seyidov M. Qam-şaman və onun qaynaqlarına ümumi baxış, Bakı, Gənclik, 1994, 231 s.

44. Лазарев С. Н. Диагностика кармы, I том, Санкт-Петербург, 1995, 315 с.

45. Kitabi-Dədə Qorqud Ensiklopediyası, I c., Bakı, Yeni Nəşrlər Evi, 2000, 622 s.

46. Əhməd Yəsəvi. Divani-hikmət, Seçmələr (hazırlayan Kemal Əraslan), Ankara, Özkan matbaası, 1991, 498 s.

47. Тримингем. Дж.С. Суфийские ордены в Исламе, Москва, Наука, 1989, 328 с.

48. Cəfərov H. Füzulidən Vaqifə qədər, Bakı, Yazıçı, 1991, 168s.

49. İsmayıl Hikmət. Azərbaycan ədəbiyyatı tarixi, Bakı, Azərnəşr, 1928.

50. Azərbaycan ədəbiyyatı tarixi, I c., Bakı, Elm, 1960, 582 s.

51. Кулузаде Зумруд. Закономерности развития восточной философии XIII-XVI вв. и проблема запад-восток, Bakı, elm, 1983, 283 s.

52. Qarayev Y. Faciə və qəhrəman, Bakı, Elm, 1965, 192 s.

53. Abdullah Yegin. İslami-elmi-ədəbi-fəlsəfi lüğət, İstanbul, Hizmət Vakfi Yayınları, 1992, 800 s.

54. Ərzurumi İbrahim Həqqi. Mərifətnamə, İstanbul, Merve Yayınevi, 1992, 800 s.

55. Махмуд Шабустари. Голшан-и раз (Перевод с персидского, предисловие и примечания Ш. О. Исмаилов), Baku, Elm, 1977, 116 c.

56. M.Tərbiyət. Daneşməndani-Azərbaycan, Bakı, Azərnəşr, 1987, 464 s.

57. Şeyx Mahmud Şəbüstəri. Gülşəni-raz (fars dilində), Bakı, Elm, 1976.

58. Исмаилов Ш. Философия Махмуда Шабустари, Баку, елм, 1976, 169 с.

59. R.Azadə. Azərbaycan epik şeirinin inkişaf yolları, XII-XVII əsrlər, Bakı, Elm, 1975, 262 s.

60. Hüseynov Xəlil. Nizaminin "Sirlər xəzinəsi", Bakı, Elm, 1983, 132 s.

61. Cəlaləddin Muhəmməd Movləvi. Məsnəvi-Mənəvi-Movlayi, nüsxə Hikolson, Tehran, çarxanə Rejman, 1272 (h).

62. Бертельс. Э.Е. "Сокровищница тайн"(предисловие), Низами Гянджеви, Сокровищница тайн, Москва, Гостполиздат, 1959, 239 с.

63. Beqdeli Qulamhüseyn. Böyük humanist şair, "Bakı" qəzeti, 1975, 15 may.

64. Əvhədi. Camü-Cəm, Tehran, 1207 (h).

65. Əvhədi. Cami-Cəm, Bakı, Azərnəşr, 1970, 248 s.

66. Mehdiyev Hiyazi. Orta əsrlər Azərbaycan estetik mədəniyyəti, Bakı, İşıq, 1986, 159 s.

67. R.Azadə. Həyatsevərlik və demokratizm, "Ədəbiyyat və incəsənət", 22 fevral 1975.

68. İbrahimov M. "Cami-Cəm" və sufizmin bəzi məsələləri barədə Azərbaycan SSR EA-nın Xəbərləri, Dil, ədəbiyyat və incəsənət seriyası, 1975, N 2.

69. Cəfərov N. Türk dünyası: xaos və kosmos, Bakı, BDU-nun nəşriyyatı, 1998, 216 s.

70. Körpülüzadə Fuad. Azəri ədəbiyyatına aid tədqiqlər, Bakı, Elm, 1996, 58 s.

71. Hasibə Mazıoğlu. Füzuli və Hafiz: iki şair arasında bir qarşılaşdırma. Ankara, Türk Tarix Kurumu basımevi, 1956, 384 s.

72. Azadə Rüstəmova. Klassik Azərbaycan poeziyasında qəzəl (janrın tarixi və poetikası, XII-XVI əsrlər), Bakı, Elm, 1990, 100 s.

73. XIII-XVI əsrlər Azərbaycan şeiri, III c., Bakı, Elm, 1984, 544 s.

74. Səfərli Ə. Yusifov X. Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatı, Bakı, Maarif, 1982, 238 s.

75. Qazi Bürhanəddin. Divan, B.:, Azərnəşr, 1988, 65 s.

76. Qazi Bürhanəddin. Gülşənə gəl, nigara, bülbülü gör, Bakı, Gənclik, 1976, 112 s.

77. Şıxıyeva S. Nəsiminin lirikası (namizədlik dissertasiyası), Bakı, 1990, 205 s.

78. Gölpınarlı Abdulbaqi. 100 soruda Türkiyədə məzhəblər və təriqətlər, Qum, Ensariyan Yayınevi, 1991, 304 s.

79. İ.Nəsimi. Əsərləri, II c., Bakı, Elm, 1973, 73 s.

80. İ.Nəsimi. Seçilmiş əsərləri, Bakı, Azərnəşr, 1973, 676 s.

81. İ.Nəsimi. Əsərləri, I c., Bakı, Azərnəşr, 1973, 672 s.

82. Fəzlullah Nəimi. "Vəsiyyətnamə", "Azərbaycan" jurnalı, 1970, N 5.

83. Araslı H. İmadəddin Nəsimi (həyat və yaradıcılığı), Bakı, Azərnəşr, 1972, 74 s.

84. Quluzadə M. Böyük ideallar şairi, Bakı, Gənclik, 1973, 140 s.

85. Salman Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları, Bakı, 1986, 445 s.

86. Кулизаде З. Хуруфизм и его представители в Азербайджане, Baku, Elm, 1970, 265 s.

87. Azərbaycan klassik ədəbiyyatı kitabxanası, V c. (İmadəddin Nəsimi), Bakı, Elm, 1985, 368 s.

88. Şıxıyeva S. "Məndə sığar iki cahan..." qəzəlinin təhlili, "Ana sözü", 1996, N3.

89. Şıxıyeva S. İki cahan hikməti, "Şəhriyar", 1999, N2.

90. Nəsimi İmadəddin. İraq Divanı, Bakı, Yazıçı, 1987, 336 s.

91. Belyayev Y.A. Müsəlman təriqətləri, Bakı, AE Baş Redaksiyası, 1991, 104 s.

92. Ayətullah Kaşifül-Ğita. Cəfəri məzhəbi və əsasları, Bakı, "Əlhuda" beynəlxalq nəşriyyatı, 1993, 152 s.

93. Петрушевски И. Р. Шийтское движение в Азербайджане, "Известия Азербайджанского филиала", Баку, 1944, N 7.

94. Azərbaycan klassik ədəbiyyatında işlənən adların və terminlərin şərhi, Bakı, Maarif, 1993, 291 s.

95. Петрушевский И. Р. Из героической борбы Азербайджанского народа в XIII-XIV вв., Баку, 1941.

96. Salehov B. Şah Qasım Ənvar (namizədlik dissertasiyası), Bakı, 1990, 148 s.

97. Kəmaləddin Hüseyn Gadzgahi. Məcasisül-üşşaq. Bombey, 1308 (h), 1888 miladi.

98. Abbaslı Mirzə. Şah Qasım Ənvarın "Səfəviyyə" ilə əlaqəsi məsələsinə dair, Azərbaycan SSR EA-nın xəbərləri, dil və incəsənət seriyası, 1969, N4.

99. Şairi farsi dər Mahmud Şahruh, Tehran, 1206 (h).

100. Külliyyat Qasım Ənvar, Tehran, 1227 (h).

101. Qasım Ənvar. Divan, Səmərqənd nüsxəsi, şifr N 7.

102. Təzkirəti-sami, Tehran, 1270 (h).

103. Rafael Hüseynov. Xətai bütövlüyü, Ədəbiyyat və İncəsənət, 9 oktyabr 1987, N41.

104. Şah İsmayıl Xətai. Əsərləri, I c., Bakı, Azərnəşr, 1975, 412s.

105. Azərbaycan ədəbiyyatı tarixi, II c., Bakı, Elm, 1960, 906 s.

106. Şah İsmayıl Xətai. Seçilmiş şeirləri, Bakı, Azərnəşr, 1964, 243 s.

107. Azərbaycan aşıqları və el şairləri, I c., Bakı, Elm, 1983, 376 s.

108. Əminzadə Ə. Azərbaycan fəlsəfi və ictimai-siyasi fikir tarixindən, Bakı, Elm, 1972, 224 s.

109. Джавад Нурбахш. Таверна среди руин, Семь эссе о суфизме, Москва, Издательство "НВВ", 1992, 136 с.

110. Məmmədov Əzizağa. Şah İsmayıl Xətai, Bakı, Yazıçı, 1961, 158 s.

111. Anar. Sizsiz, Bakı, Gənclik, 1992, 592 s.

112. Nizaməddin Mustafa. Füzulinin poetik semantikası, Bakı, Bilik İrşad Mərkəzi, 1994, 101 s.

113. Əli Nihad Tərlan. Füzuli divanının şərhi, Ankara, Başbakanlıq basımevi, 1985, 350 s.

114.Зотова. И. В. текст и подтекст суфийской газели Мира Таки Мира. Суфизм в контексте мусульманской культури, Москва, Наука, 1989, 341 с.

115. Füzuli. Əsərləri, V c., Bakı, Elm, 1985, 216 s.

116. Əlizadə Lalə. Füzulinin gizli sözü, Bakı, Yazıçı, 1990, 144s.

117. Hacıyev T. Füzulinin dil sənətkarlığı, Bakı, Gənclik, 1994, 72 s.

118. R.Azadə. Bir daha Füzuli yaradıcılığında sufizm probleminə dair, – Məhəmməd Füzuli - 500 Beynəlxalq Füzuli Simpoziumunun materialları (7-8 noyabr 1996), Bakı, Elm, 1997, 296 s.

119. Sasani Ç. Füzulinin irfani şeirlərində təşbeh və bədii rəmzlərin məna yozumları, Məhəmməd Füzuli - 500 Beynəlxalq Füzuli Simpoziumunun materialları (7-8 noyabr 1996), Bakı, Elm, 1997, 296 s.

120. Nəsib Cümşüdoğlu. Füzulinin sənət və mərifət dünyası, Bakı-Tehran, "Süruş" Beynəlxalq Nəşriyyatı, 1997, 386 s.

121. Fətəliyeva N. Füzulinin "Leyli və Məcnun" əsərində "təcəlla" anlayışı, Axtarış bülleteni, 199 , N 96.

122. Fətəliyeva N. Füzuli şeirlərində "təəllüq" anlayışı, Filologiya məsələləri, (VII buraxılış), 1996.

123. Fətəliyeva Nəzakət. Füzulinin "Leyli və Məcnun" əsərində "şəhr" və "səhra" anlayışı, Filoloji araşdırmalar, 1996.

124. Пригарина. Н.И. Хафиз и влияние суфизма на формирование языка персидское поэзии - Суфизм в контексте мусульманской культури, Москва, Наука, 1989, 341 с.

125. M.Füzuli. Əsərləri, III c., Bakı, Elm, 1958, 465 s.

126. Füzuli. Türkcə divanı, Tehran, Fərhəng və İrşadi-İslami Hazirliyi, 1996, 531 s.

127. Şıxıyeva S. Nəsiminin və Füzulinin "Tanrı" və

"eşq" təlimləri, – Məhəmməd Füzuli - 500 Beynəlxalq Füzuli Simpoziumunun materialları (7-8 noyabr 1996), Bakı, Elm, 1997, 296 s.

128. Füzuli. Seçilmiş əsərləri, Bakı, Yazıçı, 1984, 272 s.

129. Əliyev Sabir. Füzulinin poetikası, Bakı, Yazıçı, 1986, 221s.

130. Füzuli. Leyli və Məcnun. Əsərləri, II c., Bakı, Elm, 1958, 355s.

131. Cəfərov M. Füzuli düşünür, Bakı, Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı nəşriyyatı, 1959, 236 s.

132. Cəfərov M. Seçilmiş əsərləri, I c., Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1973, 352 s.

133. Quluzadə M. Füzulinin lirikası, Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1965, 476 s.

134. Qarayev Y. Meyar şəxsiyyətdir, Bakı, Yazıçı, 1988, 451s.

135. Qasımzadə F. Qəm karvanı, yaxud zülmətdə nur, Bakı, Azərnəşr, 1968, 360 s.

## SUMMARY

**Sarkhan Khavari**

### The kind of sufism in the system of national culture

In the book the Azerbaijani literary thought of the 13-16th centuries is studied in the aspect of the theoretical and philosophical basis of the Sufi teaching which played a considerable role in developing artistic thought of this period. In the creative work of the poets who lived and created in the mentioned period of time (Mahmud Shabustari, Izzaddin Hasanoglu, Gazi Burhanaddin, Avhadi, Imadaddin Nasimi, Shah Gasim Anver, Shah Ismail Khatai, Mahammad Fizuli, etc), the Sufi teaching covered a long way of development from a function of philosophical basis to an aesthetic background to a certain extent. In the book this difference is looked through on the basis of stages.

The main objective of the research is to present the scientific picture of the Azerbaijani artistic thought as a single process, with Sufism — from poetic philosophy to philosophical poetry, from philosophical poetry to poetic crystality. In the book the literary thought of the Middle Ages has for the first time been investigated in the theoretical aspect on the basis of trends of eastern philosophical thought.

In the book the following problems find its reflection and solution: origin and philosophical basis of Sufism in the context of Islamic civilization; religious-philosophical

cultural causes of connections of Sufism with art, especially with poetry; formation of Turkic cultural-ethnic system with Sufism, in connection with adoption of Islam by Turks; the Turkic-language Azerbaijani Sufi literature and national thought, the Persian-language Azerbaijani Sufi literature and so on.

The problems considered in the research are analyzed on the basis of contemporary scientific and theoretical method and principles of Azerbaijani history of literature.

## РЕЗЮМЕ

### Серхан Хавери

### Суфийский код национальной культуры

В книге были проведены системные исследования на материале творчества таких поэтов, как Махмуд Шабустари, Марагалы Авхади, Гасаноглу, Гази Бурханаддин, Имадеддин Насими, Гасым Анвар, Шах Исмаил Хатаи, Физули с тем, чтобы определить философскую сущность суфийских идей и их художественное воплощение. Автору удалось выяснить специфику творчества этих поэтов как в отдельности, так и в общем контексте поэзии XIII-XVI вв., уровень их зависимости от суфийских идей и роль в развитии этого литературно-философского течения. Указанный период весьма богат литературным материалом. Автор удачно выбрал поэтов, творческие пути которых определяли и обуславливали литературный процесс XIII-XVIвв., правильно определил предметную область и привлек необходимый материал к исследованию.

Исследователь смог воссоздать суфийско-литературную картину указанного периода, ему удалось рассмотреть общехудожественный процесс с точки зрения суфизма и тем самым выполнить главную поставленную задачу.

Суфийское возрождение, проникшее во все области средневековой культуры в Азербайджане, достигает кульминации в поэзии, и соискатель в своем исследо-

вании вполне справедливо ищет классический суфизм в художественном образном пласте национального сознания. Трехвековой идейно-художественный опыт поэзии, с точки зрения пантеистской мудрой философии, ее историко-литературное формирование, пути развития, этапы, поэты составляют основную тему, проблему и предмет книги.

Основное достоинство и научная новизна книги-заключаетсяв современном методологическом отношении к литературному процессу. Так, в отличие от традиционных филологических стереотипов, автор не ищет философию вне поэзии, не объявляет секту самой философией, а поэзию ее носительницей, не выделяет первой - роли сущности, а второй – иллюстрации. И в структуре, и в анализе автор представляет поэзию и суфизм как единое целое, монолитное идейно-художественное целое, онтологический феномен и универсум, на протяжении всей книги ищет философию в самой поэзии, образе, символе, поэтике. Именно в этом заключается роль книги как образца для последующих разработок такого типа и ее новаторское значение.

Знакомство же с происхождением и философскими основами суфизма как единой основой художественно-эстетической мысли XIII-XVI веков, с религиозными, теологическими источниками понадобилось соискателю лишь в качестве подготовительного этапа в этом направлении. Учитывая важность выявления генетических основ азербайджанской суфийской литературы, на примере творчества Ахмеда Ясави и Юнуса Имрэи сследуется специфическая роль суфизма в период принятия тюрками ислама иформирования тюрко-исламской культуры. На основе анализа конкретных текстов художественная мысль XIII-XIV

веков от Махмуда Шабустари до Насими обосновывается как путь от поэтической философии к философской поэзии, а художественная мысль XV-XVI веков от Шаха Гасыма Анвара до Физули - как поэзия, поднимающаяся от философской поэзии до уровня философии. На основе общей концептуальной идеи отношение к проблемам, связанным с чисто суфийской литературой, выражается с позиций современной методологии.

Результаты, полученные автором книги предназначены для широкогоиспользования в исследованиях классического литературного наследия.

*Kitabın üz qabığındakı şəkil*
*görkəmli Azərbaycan rəssamı*
*Cavad Mircavadovundur.*

---

**Nəşriyyat direktoru:**
Hafiz ABIYEV

**Bədii redaktor:**
Səbuhi QƏHRƏMANOV

**Korrektor:**
Şakir ALBALIYEV

Sifariş № 29, Formatı: 84x108 1/32
Həcmi: 11,25 ç.v. Tirajı: 300

*"Elm" nəşriyyatının mətbəəsində çap edilmişdir*
*(İstiqlaliyyət, 28)*



· 26 may 1973-cü ildə Goranboyda doğulmuşdur.
· 1995-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.
· 1995-1998-ci illərdə AMEA Nizami adına Ədəbiyyat İnstitutunda əyani doktorant olmuş, 2000-ci ildə professor Yaşar Qarayevin elmi rəhbərliyi ilə «XIII-XVI əsrlər Azərbaycan ədəbiyyatında təsəvvüf» mövzusunda dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi adına layiq görülmüşdür.
· 1998-2002-ci illərdə Ədəbiyyat İnstitutunda müxtəlif vəzifələrdə, 2003-2006-cı illərdə AMEA Folklor İnstitutunun elmi katibi vəzifəsində çalışmış, 2006-cı ildən AMEA Rəyasət Heyətinin elmi katibidir. 2004-cü ildən Qafqaz Universitetində filoloji profilli bir sıra fənnlərdən mühazirələr oxuyur.
· Bir sıra xarici ölkələrdə keçirilən elmi simpozium və konfranslarda iştirak etmiş, müxtəlif yerli və xarici nəşrlərdə 30-dək elmi və publisistik məqaləsi dərc olunmuşdur.
· Professional tədqiqat sahələri orta əsrlər Azərbaycan bədii düşüncəsinin ideya-məzmun xüsusiyyətlərinin, ədəbi-fəlsəfi əsaslarının nəzəri-filoloji aspektdən təhlili; milli mədəniyyət sistemi, onun təkamül dinamikasının kulturoloji aspektləri; milli mədəniyyət sistemində folklorun funksional xüsusiyyətləri; Azərbaycan mədəniyyətinin tarixi təkamülü prosesində folklorun rolu; müasir sosial-mədəni proseslərdə milli folklor resurslarının iştirakı; milli mədəniyyət sistemində ənənəvi mədəniyyətlə bağlı sosial-psixoloji arxetiplərinin araşdırılması kimi məsələlərdən ibarətdir.
· Hazırda "Milli mədəniyyət sistemində folklorun funksional strukturu və tipologiyası" mövzusunda doktorluq dissertasiyası üzərində çalışır.
· Ailəlidir, iki övladı var.

Sərxan Xavəri

MİLLİ MƏDƏNİYYƏT SİSTEMİNDƏ POETİK TƏSƏVVÜF KODU